Eğitim ve din insanlık tarihi kadar eski iki olgudur. Eğitimin amacı, bireyin davranışlarında kendi yaşantıları yoluyla ve kasıtlı olarak istendik davranış meydana getirmektir. Dinlerin temel amacı da Aşkın varlığın emir ve yasakları doğrultusunda birey davranışlarını şekillendirmektir. O halde eğitim ve din olgusu insan ve onun davranışlarının değişikliği gibi iki noktada birleşmektedir. Din eğitimi de bireyin dini davranışlarında kendi yaşantısı yoluyla ve kasıtlı olarak istendik değişme meydana getirmeyi amaçlamaktadır. Söz konusu din eğitimi sanayi devrimine kadar hem doğu devletlerinde hem de batı devletlerinde evlerde aile ve din görevlileri tarafından verilmekteydi. Tarım toplumunda bireyler sade bir hayat yaşamaktaydı. Çocuk-

lar gerek din konusunda gerekse sosyal yaşam konusunda ihtiyaç duydukları bilgileri anne ve babasından öğrenmekteydi. Bu dönemde eğitimin merkezinde din vardı. Batı'da çocuğuna İncil okuyan ve çocuğunu dindar yetiştiren kişi iyi bir baba olarak görülmekteydi. Benzer durumu İslam dünyasında da görmek mümkündür. Bilginin kaynağı ve eğitimin merkezinde ebeveyn ve din görevlileri vardı. Din konusunda bilgi öğrenmek isteyen bireylerin soru sorabileceği tek kaynak din görevlileri ve aile büyükleriydi. Onlardan alınan bilgiler doğru kabul edilir ve eleştirilmezdi. Çünkü söz konusu dönemde bilgi sınırlı, bilgiye ulaşmak zordu.

Sanayi devrimine kadar dünya genelinde toplumlar kırsal bölgelerde yaşamaktaydı. Kapalı toplumlar geniş ailelerden oluşmaktaydı. Sanayi devrimiyle birlikte insanlar şehirlere göçmeye başladı. Kapalı toplumların yerini açık toplumlar, geniş ailelerin yerini çekirdek aileler almaya başladı. Savaş, eğitim olanaklarının yetersizliği, ekonomik problem ve ırkçı saldırıların neden olduğu göç dalgaları, toplumsal yapıların değişmesine ve yeni toplumsal yapıların oluşmasına neden olmuştur. Bu toplumsal yapılardan birisi de çoğulcu toplumdur. Bu toplumda farklı inanç, kültür, dü-

şünce ve ideolojiye sahip bireyler aynı ortamı paylaşmaktadırlar. Böyle bir ortamda sosyal hayatın barış ve huzurunun sağlanabilmesi için birlikte yaşama kültürünün oluşturulması gerekmektedir. Birlikte yaşama kültürünün oluşabilmesi için de herkes farklılıklarıyla kabul edilmelidir. Bu durumun oluşmasında okul ve din eğitiminin önemli rolü vardır. Bu bağlamda okullardaki din eğitiminde uygulanmak üzere Mezheplere Göre Din Öğretimi, Mezheplerüstü Din Öğretimi, Dinlerarası Din Öğretimi ve Fenomenolojik din öğretimi yaklaşımları gibi din öğretimi yaklaşımları geliştirilmiştir. Bu yaklaşımlar sayesinde birey hem inandığı dinini hem de diğer dinleri kaynaklarından öğrenmektedir. Böylelikle bireyler önyargılarından ve ötekileştirme duygusundan kurtulabilmektedir. Söz konusu din eğitimi yaklaşımlarının en sağlıklı uygulandığı yerler devlet okullarıdır. Herkese açık olan devlet okullarının her türlü dünya görüşüne, din ve mezhep özgürlüğüne hak tanıması gerekmektedir. Bildirinin amacı da devlet okullarında verilen din eğitiminin çoğulcu toplumlarda birlikte yaşama kültürüne etkisini tespit etmektir. Bildiride okulda din eğitiminin insan için bir ihtiyaç olup olmadığına yer verilecektir. Ayrıca birey söz konusu eğitim sürecinde farklı inanç, dil ve kültür sahibi bireyleri

tanıma fırsatı yakaladığı için din eğitiminin özellikle çoğulcu toplumlarda birlikte yaşama kültürüne katkıda bulunup bulunmadığı ifade edilecektir.

***Anahtar Kelimeler:*** *Din, Eğitim, Çoğulculuk, Toplum, Din Eğitimi, Çoğulcu Toplum*

# Çağdaş Ahlak Eğitiminde Erdem Ahlakının Sağlayabileceği İmkânlar

***Prof., Dr. Murat Demirkol***
Ankara Yıldırım Beyazıt Üniversitesi
İlahiyat Fakültesi (İslam Felsefesi) Öğretim Üyesi
Ankara, Türkiye
mdemirkol@aybu.edu.tr
https://orcid.org/0000-0002-1770-4288

Ahlak eğitimini konu alan bu tebliğin amacı, çağdaş ahlak eğitiminde erdem ahlakının sağlayabileceği imkânları araştırarak değerlendirmektir. Müslüman filozoflar, başta Aristoteles olmak üzere bazı Antik Yunan ve Helenistik dönem filozoflarının ahlak ve psikoloji çalışmalarını esas alarak ahlak felsefesine dair eserler yazmışlardır. Kindî, Fârâbî ve İbn Sînâ'nın bazı konulara tahsis edilmiş bölüm ve risaleleri bir yana konacak olursa, ilk kapsamlı sistematik ahlak kitabının yazarı İbn Miskeveyh'tir. İbn Miskeveyh'in *Tehzîbü'l-Ahlâk*'ını ana malzeme olarak kullanan Nasiruddin Tûsî, kendisinden sonra ahlak hakkında yazılacak eserlere model olan *Ahlâk-ı Nâsırî*'yi yazmıştır. Tûsî ve onu takip eden sonraki ahlakçılar, bugün erdem ahlakı diye adlandırdığımız bir teoriyi benimsemişler,

huyların nefs-i natıka, gazabi kuvve ve şehevi kuvveden kaynaklanma şeklini izah etmişlerdir. "Fiillerin insan nefsinden düşünüp taşınmaya gerek kalmaksızın kolayca çıkmasını sağlayan meleke" şeklindeki huy tanımı, aslında erdem ahlakının temel esprisini açık etmektedir. Bu teoriye göre, düşünen nefsin pratik konularda dengeli işletilmesinden hikmet erdemi, gazabi kuvvenin dengeli işletilmesinden şecaat/yiğitlik erdemi, şehevi kuvvenin dengeli işletilmesinden ise iffet erdemi ortaya çıkmaktadır. Bir kişide bu üç erdem meleke haline gelmişse adaletin kendiliğinden gerçekleşeceği kabul edilmektedir. Erdemler dengeyi temsil ederken, erdemsizlikler erdemin iki ucunda yer alan ifrat ve tefriti temsil etmektedir. Pratik konularda aklın ifratı hilekârlık, tefriti ahmaklıktır. Gazabi kuvvenin ifratı atılganlık, tefriti korkaklıktır. Şehevi kuvvenin ifratı fücur, tefriti sönmüşlüktür. Adaletin ifrat tarafında zulüm, tefrit tarafında zulme boyun eğme şeklinde iki aşırılık yer alır. Dört temel erdemin altında şefkat, sabır, sebat, ülfet, hayâ, cömertlik, tevazu ve incelik gibi onlarca alt erdem sıralanmaktadır.

Erdem ahlak teorisinde huyların değişebileceği düşüncesi esas alınmaktadır. Ancak meleke haline gelen, yerleşik bir meleke haline gelen huyun değiş-

mesi oldukça zordur. Bu nedenle küçük yaştan itibaren çocukların olumlu, güzel örneklikle iyi huylara yatkın hale getirilmesi önem arz etmektedir. Tabiî yatkınlıklar, eğitim ve alışkanlık yoluyla pekiştirilebilmekte veya kötü ise değiştirilebilmektedir. Türkçedeki "Üzüm üzüme baka baka kararır" ve "Kır atın yanında duran ya huyundan ya suyundan" atasözleri, kişinin ahlak ve kişiliğinde arkadaşlığın ne kadar önemli olduğunu ifade etmektedir. Bir kişinin gerçekten erdemli sayılabilmesi için erdemiyle başkalarını olumlu yönde etkilemesi şart koşulmuştur. Okulda ahlak eğitimi verilebilmekteyse de aile ve çevrenin ahlak eğitiminde büyük rolü vardır. Çocuklar belli bir yaşa kadar aile ortamının etkisinde kalmakta, yaklaşık ergenlik yaşından itibaren arkadaşlık daha etkin olmaktadır. Okulda sağlanacak güzel ortamlar, sergilenecek olumlu örnek davranışlar, çocuğun ahlaki gelişimine olumlu katkılar verebilir. Bütün öğretmenlerin ahlaki anlamda rol model olacak şekilde donanımlı ve özenli olmaları bu açıdan çok önemlidir. Tebliğde bireyin ahlaki gelişimindeki etkisi bakımından erdem ahlakı ile ödev ahlakı karşılaştırılacaktır. İslam erdem ahlakında kötü huyların giderilip güzel huyların kazanılmasına yönelik iyileştirme işlemine ruhani tıp denmiş ve bedensel tıp örnek alınarak bazı yöntemler geliştirilmiştir.

Araştırmada nitel yöntem, doküman analizi versiyonuyla kullanılacaktır. Bu kapsamda hem söz konusu klasik ahlak kitaplarındaki bilgiler karşılaştırmalı olarak incelenip değerlendirilecek ve yorumlanacak hem de çağdaş psikoloji ve eğitim bilimlerinden ahlak eğitiminde nasıl yararlanılacağı bu alanlardaki literatürden seçkiler yapılmak suretiyle tespit edilmeye çalışılacaktır.

***Anahtar Kelimeler:*** *Ahlak, Eğitim, Huy, Erdem Ahlakı, Çağdaş Ahlak Eğitimi*

## Гуманистические ориентиры в практике сосуществования светского и исламского образования в Дагестане

***доктор философских наук Асият Буттаева***
профессор кафедры теологии и социально-гуманитарных дисциплин Дагестанского гуманитарного института,
профессор отделения кафедры ЮНЕСКО по компаративным исследованиям духовных традиций, специфики их культур и межрелигиозного диалога по Северному Кавказу
Махачкала, Россия
pikieva51@mail.ru
https://orcid.org/0000-0003-4724-7230

К концу XX века в Российской Федерации происходят кардинальные преобразования во всех направлениях социокультурной среды, обусловленные всеобъемлющими реформами в экономике, политике, международных отношениях, образовании и т.д. Правда на этом пути не обходится без определенных перегибов, ошибок, преувели-

чений, а главное, часто отношения к этим преобразованиям складываются под влиянием предвзятых установок, вытекающих из социально-политических позиций того или иного интерпретатора.

Общеизвестно, что «Образование всегда являлось и является системообразующей и странообразующей сферой, т.е. оно либо делается главным инструментом мировой политики, подъёма и развития государства, либо вырождается в систему обслуживания идеологических и экономических интересов паразитирующего на стране класса. Третьего не дано!»

Образование - такой феномен общественной жизни, который формируется и функционирует благодаря сознанию и воле людей и, следовательно, уровень развитости любой образовательной системы во многом предопределяется самосознанием людей, ее профессионально создающих.

Как показывает историческая практика, в современном мире именно высокая эффективность системы образования, в которой тесно переплетаются и гармонично сосуществуют светское и религиозное образование, во многом определяет мощь и богатство страны.

Президент Российской Федерации В.В. Путин, говоря о роли системы образования, отмечал: «Развитие образования — это задача общенациональной значимости. Мы всегда держали здесь высокую планку, и высота эта нужна не сама по себе. Она - залог успешного развития государства и общества. Но так будет только в том случае, если образование у нас будет отвечать общим требованиям сегодняшнего дня, если оно будет доступным и качественным»

Современное человечество постепенно приходит к мысли, что религиозная сфера, это то место, где человек сохранил свою природную загадку, место, где он может рефлексировать и из глубины своего «Я» осмыслить и через осмысление прийти к пониманию неизбежных изменений этого мира.

На свете очень много маловероятных вещей, которые заслуживают человеческого детального изучения. Отвержение того, что мы не в силах понять, - вносит немалую путаницу в те религиозные разногласия, в которых пребывает современное общество.

Человек - существо склонное к рефлексии всякого рода: философская, религиозная, научная

и т.д. Нас же интересует больше религиозная рефлексия, в которой человек рисует определенную картину мира, через которую он старается обрести смысл своей жизни. И, на наш взгляд, главные качества, которыми должен обладать, человек, стремящийся к религиозной рефлексии – логичность ума и мягкость нрава.

В структуре гуманной просвещенности немаловажное значение имеет, не только грамотно с точки зрения методологии поставленное, светско - богословское образование, но и истинная воспитанность, через которое проявляется внутренняя культура человека, где баланс между убеждениями, мыслями, знаниями человека и его поступками порождает гармоничную личность.

Если сделать небольшой ретроспективный анализ исламского образования в Дагестане, то вырисовывается следующая, довольно интересная картина, подтверждающая высокий статус исламского образования в этой республике: «Накануне Октябрьской революции в Дагестанской области насчитывалось более 740 мусульманских и 20 горскоеврейских школ, охватывавших 7,5 тыс.

учащихся. Дагестан не без основания считался поставщиком кадров духовенства для всего восточного Кавказа»

«Можно сказать, что в Дагестанской области нет почти ни одного селения, в котором при мечети у кадия или муллы не обучалось бы арабскому языку от трех до пятнадцати учеников.

Едва ли где-либо в мусульманском населении Кавказа до такой степени развито изучение арабского языка и духовной литературы на этом языке, как в Дагестане»

В Дагестане не только переписывают созданные неместными авторами труды, но и создают свою собственную разнообразную литературу на арабском языке. Вот что пишет по этому поводу, академик И.Ю. Крачковский: «… ни в одной из неарабских стран местная литература, возникшая на арабском языке, не сохраняла в такой мере полной жизненности до второй четверти XX в.»

***Ключевые слова:*** *религия, гуманизм светское образование, исламское образование, сосуществование, традиция.*

# Qori Müəllimlər Seminariyası və onun Azərbaycan cəmiyyətinə təsiri

*f.e.d., dos. Zəkiyyə Əbilova*
Azərbaycan Milli Elmləri Akademiyası
Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
Əlyazmaların və əski çap kitablarının tərcüməsi
şöbəsinin baş elmi işçisi
zekiyye.abilova@mail.ru
https://orcid.org/0000-0003-4395-4042

Xətiblər, Nizamilər, Füzulilər, Bəhmənyarlar, Sührəvərdilər, Nəsimilər yetişdirmiş Azərbaycan xalqı həmişə elm və təhsilə yüksək dəyər vermis, ziyalıları mötəbər şəxs kimi tanıtmışdır. Bu məqalədə bir qrup Azərbaycan elm fədaisinin çox çətin şəraitdə, təzyiq və məhrumiyyətlərə məruz qalaraq bilik əldə etdikləri Qafqazda ilk təhsil müəssisələrindən biri olan Qori Müəllimlər Seminariyasının fəaliyyətindən bəhs edilir.

Azərbaycan elm tarixində yeni bir səhifə açmış Qori Müəllimlər Seminariyası və onun müdavimləri haqqında yetərincə tədqiqat aparılmış, fəaliyyətlərinin məqsəd və məramları analiz edilmişdir. Buna baxmayaraq, yenidən bu mövzuya qayıtmaq üçün hər dəfə hansısa bir səbəb tapılır.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Azərbaycanın 32 görkəmli elm və incəsənət xadiminin şəxsi fondu mühafizə olunur. Bunlardan bir çoxunun həyat yolu birbaşa və yaxud dolayısı ilə Qori Müəllimlər Seminariyasından keçmişdir. Həmin sənədlərin arasında seminariyada təhsil almış F.Köçərli, M.Mahmudbəyov, Abbas Səhhət, S.Axundzadə, F.Ağazadə, A.Talıbzadə, A. Əfəndizadə kimi neçə-neçə maarifpərvər Azərbaycan ziyalısının həyat və yaradıcılığını əks etdirən səhifələr vardır.

Bu günlərdə Əlyazmalar İnstitutunun xəzinəsində mühafizə olunan arxeoqrafik sənədləri nəzərdən keçirərkən bir attestata rast gəldim. Attestat Yelisavetpol uyezdi mədrəsəsinin keçmiş şəriət və tatar (tütk) dili müəllimi Molla Abbas Hüseyn xan oğluna xidməti fəaliyyəti ilə bağlı verilmişdir. Sənəddən məlum olur ki, Qori Müəllimlər Seminariyasına təhsil dalınca gedən müsəlman tələbələr öz dinlərindən dönərək, Xristianlığa meyil göstərməli idilər. Çarizm üsul-idarəsinin tələblərini əsas tutan bu təhsil müəssisəsinin qaydalarına əməl etsələr də, məfkurəcə dəyişməyən Azərbaycan övladları sonralar görkəmli ictimai-siyasi xadim, yazıçı, ədib və musiqişünaslar olmuşlar. Özlərindən sonra qoyub-getdikləri zəngin mədəni irsdən Azərbaycan xalqı hələ uzun əsrlər faydalanacaqdır.

Məqalədə Seminariyanın ictimaiyyətə göstərdiyi müsbət və mənfi təsirlərdən də bəhs olunur. Bütün bunlarla yanaşı, XIX–XX əsrin I yarısı Azərbaycanda təhsil və mədəniyyət sahəsində maraqlı və rəngarəng bir dövr olmuşdur.

Məktəb və mədrəsələrdə təlim-tərbiyənin ərəb və fars dilləri əvəzinə Ana dilində aparılması XIX əsrin ikinci yarısında bir çox ziyalını düşündürürdü. Bu fikrin nəticəsi olaraq, yenitipli məktəblər yarandı və Azərbaycanda, tədricən, istimai-pedaqoji hərəkat formalaşmağa başladı.

Bu gün müasir din təhsili modelləri nəzərdən keçirilərkən hər bir ictimai dövrdə yeni qəbul edilmiş tədris üsulları və onları əks etdirən dərsliklər də diqqətdən kənarda qalmamalıdır. Bu baxımdan, Qori Müəllimlər Seminariyasının fəaliyyətindəki müsbət və mənfi xüsusiyyətlər, onun fədakar məzunlarının Azərbaycan maarifinə gətirmiş olduqları metodların araşdırılması müasir din təhsil sisteminin formalaşmasına müəyyən istiqamətlər verə bilər.

***Açar sözlər****: Qori Müəllimlər Seminariyası, din təhsili müəssisələri, Rusiya imperatoru, Qafqaz xalqları, maarifpərvər.*

## Опыт преподавания дисциплин в области межрелигиозного диалога в России

***доктор философских наук Сергей Мельник***
заведующий отделом философии Института
научной информации по общественным наукам
Российской академии наук (ИНИОН РАН),
профессор Общецерковной аспирантуры и
докторантуры им. св. Кирилла и Мефодия,
старший научный сотрудник
Центра межрелигиозного диалога Болгарской
исламской академии
Москва, Россия
melnik.s.vl@yandex.ru
https://orcid.org/0000-0002-1491-7624

Одной из тем в рамках религиоведческого и теологического образования является проблематика выстраивания отношений между последователями разных религий, что можно обозначить как «межрелигиозный диалог». Актуальность этой предметной области сомнений не вызывает. Религия сегодня играет большую роль в жизни обществ, при этом современная цивилизация характеризуется беспрецедентно высокой для истории

человечества степенью социальной коммуникации, взаимозависимости и взаимосвязи. Возросший уровень грамотности, открывшиеся возможности получения информации о других религиях также обуславливают новое качество межрелигиозных отношений.

Автором была разработана оригинальная классификация видов межрелигиозного диалога, которая может лечь в основу преподаваемых дисциплин в этой области. Классификация содержит четыре типа межрелигиозного диалога: (1) полемический, (2) когнитивный, (3) миротворческий и (4) партнерский. Указанным типам диалога можно сопоставить вопрос, который отражает основную мотивацию вступления верующего человека в межрелигиозные отношения: (1) «кто прав?» (стремление распространить свою веру, продемонстрировать ее преимущества, что приводит к полемике, спорам на богословские темы), (2) «кто ты?» (попытка узнать, понять другую религию), (3) «как нам мирно жить вместе?» (обеспечение межрелигиозного согласия, благоприятного социального климата, гармонизация этноконфессионального взаимовосприятия), (4) «что мы можем вместе сделать для улучшения мира?» (совместная деятельность,

сотрудничество верующих разных религий). Все существующие формы межрелигиозного диалога можно отнести к одному из четырех перечисленных типов. Выделенные типы межрелигиозного диалога отличаются по своим целям, принципам выстраивания отношений и формам реализации.

В каждом из указанных типов диалога можно выделить разные виды. Например, следует различать три вида миротворческого диалога в зависимости от «уровня» участников. «Высокий/религиозные лидеры», например, Съезд лидеров мировых и традиционных религий в Казахстане или межрелигиозные встречи религиозных лидеров по урегулированию Карабахского конфликта. На «среднем» или «экспертном/концептуальном» уровне на первое место выходит задача разработки идейной платформы, разъясняющей, почему верующие разных религий должны жить в мире и уважать друг друга (примерами здесь могут служить декларация Римско-Католической церкви об отношении к нехристианским религиям «Nostra aetate» (1965), открытое письмо мусульманских религиозных деятелей и ученое к главам христианских церквей «Общее

слово между нами и вами» (2007), проект «Глобальная этика Г. Кюнга и пр.). Третий вид миротворческого диалога осуществляется на «низовом» (grassroots) уровне и выражается в таких формах как встречи верующей молодежи, межрелигиозное образование. Подобным образом в «полемическом», «когнитивном» и «партнерском» типах межрелигиозного диалог можно выделить разные виды.

Основные результаты исследований представлены в вышедшей в 2022 году монографии «Межрелигиозный диалог: типологизация, методология, формы реализации». Кроме этого, автор преподает соответствующие учебные дисциплины в высших учебных заведениях России (курсы «Межрелигиозные отношения» и «Богословские основания межрелигиозного диалога» в Общецерковной аспирантуре и докторантуре им. святых Кирилла и Мефодия (Москва) и «Ислам и актуальные проблемы межрелигиозного диалога» в Болгарской исламской академии (г. Болгар, Татарстан)). В предлагаемой статье и выступлении на форуме хотел бы поделиться своим опытом, который мог бы оказаться полезным не только преподавате-

лям, но и всем специалистам, занимающимся исследованием проблем межрелигиозных отношений.

***Ключевые слова:*** *межрелигиозный диалог, классификация, межрелигиозное образование, миротворчество, религиозное образование.*

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsil mərkəzli din siyasəti

***f.f.d., dos. Mirniyaz Mürsəlov***
Azərbaycan İlahiyyat İnstitutu,
Elm və innovasiyalar üzrə prorektor
Bakı, Azərbaycan
mirniyazmurselov@ait.edu.az
https://orcid.org/0000-0002-3682-9510

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən dövlət–din siyasəti milli təhlükəsizliyin təminatı, cəmiyyətin ideoloji əsaslarının möhkəmləndirilməsi və dini maarifçiliyin gücləndirilməsi istiqamətində strateji əhəmiyyət daşıyır. Bu siyasətin mərkəzində isə din təhsilinin inkişafı, radikal meyillərə qarşı qabaqlayıcı tədbirlər və gənclərin milli-mənəvi dəyərlər əsasında formalaşması dayanır. Tədqiqatda Prezident İlham Əliyevin təhsil mərkəzli din siyasətinin əsas istiqamətləri təhlil olunur, müasir dövrün çağırışları fonunda onun aktuallığı və tətbiq mexanizmləri araşdırılır.

Müstəqillik dövründə Azərbaycan Respublikası qarşılaşdığı sosial-siyasi çağırışlara qarşı din

sahəsində milli maraqlara əsaslanan, praqmatik və uzaqgörən siyasət formalaşdırmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət daha da sistemləşdirilmiş, ölkədə dini sabitliyin və tolerant mühitin qorunmasına xidmət edən kompleks tədbirlər həyata keçirilmişdir. Bu kontekstdə təhsilin, xüsusilə də din təhsilinin dövlət–din münasibətlərində mərkəzi yer tutduğu müşahidə olunur.

Prezident İlham Əliyev çıxışlarında daim qeyd edir ki, Azərbaycan cəmiyyətinin əsası milli-mənəvi dəyərlər üzərində qurulmalıdır. Bu, milli ideologiyamızın formalaşmasının təməlini qoyan Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin davamıdır. Ulu Öndər vurğulayırdı: “Bizim milli ideologiyamızın konsepiyası olmalıdır. Şübhəsiz ki, bu konsepsiya tarixi keçmişimizin, milli, mədəni, dini ənənələrimizin üzərində qurulmalıdır...”. Bu baxımdan, din siyasəti milli ideologiyanın bir hissəsi kimi çıxış edir və onun idarə olunmasında elmi yanaşma, ictimai sabitlik və hüquqi tənzimləmə əsas meyarlardır. Prezident İlham Əliyevin din siyasətini, əsasən, üç istiqamətdə səciyyələndirmək olar:

- dini dözümlülük və multikulturalizmin təşviqi;
- dini ekstremizm və radikal meyillərə qarşı hüquqi və maarifçi mübarizə;

– din təhsilinin təşkili və tənzimlənməsi.

Qeyd edilməlidir ki, dini sahədə sabitliyin qorunması yalnız inzibati vasitələrlə deyil, ilk növbədə, maarifləndirmə ilə mümkündür. Maarifləndirmə prosesini həyata keçirəcək ilahiyyatçı alimlərin və din xadimlərinin milli kadrlar olaraq olkə daxilində yetişmələri əsas prioritetlərdəndir. Prezident İlham Əliyevin bu sahədə həyata keçirdiyi islahatlar sırasında 2018-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, ali din təhsilində mənbə əsaslı elmi biliklərin təşviqi, din təhsilinin hüquqi çərçivəyə salınması məsələləri xüsusi yer tutur.

Azərbaycan İlahiyyat İnstitutunun həyata keçirdiyi tədris siyasəti də onu ölkə rəhbərinin apardığı təhsil mərkəzli din siyasətində əhəmiyyətli yer tutmasını şərtləndirən amildir. Belə ki, Azərbaycan İlahiyyat İnstitutu ölkədə müxtəlif İslam məzhəbləri mənsublarının yaşadığını nəzərə alaraq, din təhsilinin məzhəblərüstü modelini əsas götürür, tədrisdə məzhəblərüstü modelin birləşdirici formasını tətbiq edir. Bu formaya görə, bütün məzhəblərdən olan tələbələr birlikdə dərs alır, məzhəblər arasındakı fərqlər görməzliyə alınmır. Məzhəblərin eyni dinin anlayış fərqliliklərindən doğan

müxtəlif yaşayış tərzləri olduğu vurğulanmaqla dinin bütünlüyü qorunur.

Azərbaycan İlahiyyat İnstitutunda İslam dini ilə yanaşı, İbrahimi və digər dünya dinləri də tədris olunur. Bu dinlərin tədrisi zamanı din təhsilinin dinlərarası modeli tətbiq olunur. Sözügedən təhsil modelinə əsasən, bütün dinlər öz mənbələri əsasında tədqiq və tədris olunur.

Beləliklə, Prezident İlham Əliyevin təhsil mərkəzli din siyasəti milli birliyin, ictimai sabitliyin və dini dözümlülüyün təmin olunmasında fundamental rol oynayır. Bu siyasət Azərbaycan modelinin regional və beynəlxalq səviyyədə uğurlu nümunəyə çevrilməsinə zəmin yaradır. Təhsilin din siyasətində əsas vasitə kimi mövqeləndirilməsi gələcək nəsillərin sağlam dini şüurla formalaşmasında mühüm əhəmiyyətə malikdir.

***Açar sözlər:*** *İlham Əliyev, din təhsili, din siyasəti, dövlət-din münasibətləri, maarifçilik*

## Развитие религиозного образования - путь к национальной безопасности

***Гюльчохра Сеидова***
заведующая отделением кафедры
ЮНЕСКО по компаративным исследованиям
духовных традиций, специфики их культур и
межрелигиозного диалога по Северному Кавказу;
проректор по научной работе и международным
связям Института дружбы народов Кавказа
(Ставрополь);
доцент кафедры юридических и гуманитарных
дисциплин филиала ДГУ в г Дербент;
н. к. ГБУ РД «Музей истории мировых культур и
религий» и Музей-заповедник
Дербент, Россия
gseidova@yandex.ru
https://orchid.org/:0000-0003-2382-7564

В данном докладе обосновывается важная роль формирования собственной национальной системы религиозного образования как условия национальной безопасности государства. Минувший XX век выдвигает, новую парадигму - культурологическую, требующую осознания планетарной роли

культуры и образования. Это требует развития культуры, ментальных и религиозных слагаемых духовного бытия народов. Ведь на всем постсоветском пространстве наблюдался кардинальный рост числа духовных учебных заведений, благотворительных учреждений и фондов разного рода. Возросшая возможность совершения паломничества по святым местам - позитивный фактор, но вызывает известные опасения. Сегодня одним из условий обеспечения национальной безопасности выступает религиозная безопасность общества, на что должна быть нацелена собственная национальная система религиозного образования. В рамках работы целого ряда международных и общероссийских научных конференций мы отмечали касательно, в частности, современного исламского образования, что оно должно строиться на сочетании светского, университетского образования вкупе со специальным духовным, взвешенное равновесие и взаимодействие которых должно стать ключевым принципом концепции деятельности образовательных институтов. Мировому сообществу придётся искать решение проблем образования в более широких масштабах, обращаясь к опыту других стран, в

частности России, Азербайджана, бывших советских республик Средней Азии. Становится одной из приоритетных задач возрождение, развитие и утверждение отечественных богословских традиций в системе образования. В результате усилий сподвижников системы теологического образования в нашей стране удалось утвердить понимание этого. ВАК утвердил теологию в качестве одной из научных специальностей, что позволяет открыть новые перспективы исследования в рамках академической науки. Два исламских ВУЗа России – Московский и Российский исламский институты имеют государственную аккредитацию по направлению «Теология» и готовят бакалавров и магистров исламской теологии, имеющих все шансы осуществить защиту кандидатских и докторских диссертаций. И это – магистральное направление в развитии отечественного теологического образования. Процесс глобализации формирует пёстрый спектр социокультурных схем и моделей их соотнесения между собой. В идеале образовательная интеграция должна быть национально обусловленной, интернационально ориентированной и социально скоординированной. Обогащение культурных взаимосвязей не должно при-

вести к сокращению цивилизационного разнообразия. Народы России создали перекрестье невероятного множества культур. Сама российская система образования по своим истокам никогда на самом деле не была чисто русской, а её остов оказался настолько крепким, что ее порождение – культура до сих пор поражает своей основательностью. В результате осмысления сложнейших процессов в середине 90-XX века была позитивно воспринята программа ЮНЕСКО «Культура мира», а само понятие *культурной сложности* стало активно использоваться в современной общественно-политической практике под названиями мультикультурализм, культурное разнообразие и т.д. Роль общей культурно-информационной среды в условиях глобализации и индивидуального опыта отдельной личности в утверждении национального самосознания важнейшая роль отводится образованию, в том числе и религиозному, выступающему основным способом социокультурного воспроизводства нации, обеспечения всего её бытия.

***Ключевые слова:*** *религиозное образование, культура, национальная безопасность, ЮНЕСКО*

# Dünyəvi təhsil sistemlərində “din haqqında öyrənmə” modelinin proqram və müəllim hazırlığı: Azərbaycan modelinin beynəlxalq təcrübə ilə müqayisəli təhlili

***i.f.d., dos. Elnurə Əzizova***
Azərbaycan İlahiyyat İnstitutu
İlahiyyat fakültəsinin dekanı
Bakı, Azərbaycan
elnuraazizova@ait.edu.az
https://orcid.org/0000-0002-2505-1299

Demokratik dövlətlərin böyük əksəriyyətində dini qurumların tabeliyində fəaliyyət göstərən dini təmayüllü özəl məktəblərlə yanaşı, dövlət ümumtəhsil müəssisələrində də din tədrisinin müxtəlif forma və metodları tətbiq edilməkdədir. Bu forma və metodlar əsasən “konfessional” və ya “qeyri-konfessional”, “inteqrativ” və ya “ayırıcı”, habelə “din içində öyrənmə”, “din haqqında öyrənmə” və “dindən öyrənmə” kimi müxtəlif qruplarda təsnif edilir. “Konfessional” din dərsləri, müəyyən bir dinin və ya məzhəbin inanc, ibadət, əxlaq və tarixi aspektlərinin sistemli şəkildə tədrisini hədəfləyir. “Qeyri-konfessional” yanaşmada

isə spesifik dini və ya məzhəbi öndə tutmadan, cəmiyyətin dini müxtəlifliyi və ölkənin dini demoqrafiyası nəzərə alınaraq müxtəlif dinlərə dair ümumi biliklərin verilməsi əsas götürülür. Din tədrisi, həmçinin təşkilati baxımdan da müxtəlif formalarda həyata keçirilə bilər: “müstəqil” din tədrisi dinə dair biliklərin ayrıca bir fənn kimi öyrədilməsini nəzərdə tutur; “inteqrativ” model isə dinlə bağlı mövzuların digər sosial-humanitar fənlərin çərçivəsində (məsələn, tarix, ədəbiyyat, vətəndaşlıq və s.) tədrisini ehtiva edir. Pedoqoji yanaşma baxımından da fərqliliklər mövcuddur. “Dindən öyrənmə” modeli dinin normativ və formativ aspektlərinin vurğulandığı yanaşmanı, “din haqqında öyrənmə” isə deskriptiv, yəni təsviri və neytral metodologiyanın tətbiqi ilə həyata keçirilən bir modeli təmsil edir. Bu ümumi təsnifatlar müxtəlif ölkələrdə yerli sosial və hüquqi kontekstə uyğun olaraq fərqli şəkildə tətbiq oluna bilər. Din tədrisi modelinin seçilməsində cəmiyyətin dini mənsubiyyəti, monokonfessional və ya plüralist xarakter daşıması, din-dövlət münasibətlərinin quruluşu, tarixi ənənələr, eləcə də ümumtəhsil sistemində din təliminin məqsəd və funksiyaları həlledici rol oynayır.

Azərbaycanın orta ümumtəhsil müəssisələrində dinlə əlaqəli müstəqil fənn tədris olunmur. Bununla birlikdə “din haqqında öyrənmə” modeli tətbiq olunaraq, “Həyat bilgisi”, “Tarix”, “Ədəbiyyat”, “Azərbaycan dili” kimi sosial və humanitar fənlər çərçivəsində inteqrativ formada dinə dair biliklər tədris olunur. Dövlət ümumtəhsil müəssisələrində tətbiq olunan din tədrisi modelinə dair beynəlxalq təcrübənin tədqiqi göstərir ki, bu sahədə Azərbaycanla ABŞ və Fransa təhsil sistemi arasında müəyyən bənzərliklər mövcuddur. ABŞ və Fransa dünyəviliyi öz konstitusiyasında açıq şəkildə vurğulaması, dövlət-din münasibətləri çərçivəsində dövlət ümumtəhsil müəssisələrində konfessional din tədrisinə yer verilməməsinə dair xüsusi yanaşmaları ilə seçilir. Bununla birlikdə, hər iki dövlətdə son onilliklərdə qanunvericilik və təhsil qurumları çərçivəsində din tədrisi sahəsində mühüm dəyişiklik etmişlər. Bu dəyişikliklər nəticəsində həm Fransa, həm də ABŞ dinin məktəbdə deskriptiv və obyektiv şəkildə öyrədilməsinə şərait yaradan “din haqqında öyrənmə” modelini tətbiq edir. Tədqiqatlar göstərir ki, bu modelinin həm təhsil proqramlarının, həm də pedaqoq hazırlığı prosesində müəyyən çətinliklər mövcuddur. Bu tədqiqatda din

haqqında öyrənmə modelinin inteqrativ metodla tətbiq olunduğu Azərbaycan, ABŞ və Fransanın bu sahədə təhsil proqramı və pedaqoq hazırlığı prosesi müqayisəli təhlil olunacaqdır.

***Açar sözlər:*** *din tədrisi, dünyəvi təhsil, din haqqında öyrənmə, Azərbaycan, ABŞ, Fransa, din haqqında öyrənmə, inteqrativ din tədrisi*

## التعليم الديني كمنظومة لترسيخ القيم الأخلاقية في المجتمعات المعاصرة

***كاظم خليفة حمادي***

أستاذ مشارك

الجامعة العراقية – كلية العلوم الإسلامية

عميد كلية العلوم الإسلامية في الجامعة العراقية

الأنبار، العراق

dr.kadhim.hummadi@aliraqia.edu.iq

https://orcid.org/0009-0007-6655-2843

في ظل التغيرات المتسارعة التي يشهدها العالم المعاصر، تبرز الحاجة الملحة إلى مراجعة دور التعليم، لاسيما التعليم الديني، بوصفه إحدى الأدوات الفاعلة في صياغة سلوك الأفراد وتشكيل وعيهم القيمي. يهدف هذا البحث إلى تسليط الضوء على التعليم الديني كمنظومة مركزية في ترسيخ القيم الأخلاقية لدى طلبة المدارس والمعاهد والجامعات، من خلال استقراء الواقع التربوي وتحليل المناهج والمقررات الدينية المعتمدة في عدد من الدول الإسلامية، وبحث مدى فاعليتها في مواكبة تطلعات الأجيال الجديدة في ظل ما تواجهه من تحديات فكرية وثقافية.

ينطلق البحث من فرضية رئيسية مفادها أن التعليم الديني، إذا ما أعيدت صياغته بأسلوب معاصر، يمكن أن يسهم إسهامًا حقيقيًا في بناء شخصية متزنة قادرة على التفاعل الإيجابي مع محيطها المحلي والعالمي. وقد تم الاعتماد على المنهج التحليلي النقدي في دراسة عيّنة من المناهج الدينية، مع إجراء مقارنات بين ما هو مطروح من مضامين وبين ما يتطلبه الواقع من مهارات وقيم.

كما يناقش البحث الخلفيات النظرية للتعليم القيمي، مستندًا إلى المفاهيم الإسلامية الأصيلة التي تجعل من القيم الأخلاقية ركيزة أساسية في بناء الفرد والمجتمع، مثل الصدق، الأمانة، العدل، التسامح، التعاون، وحسن التعامل مع الآخر. ويربط بين تلك القيم وما ورد في القرآن الكريم والسنة النبوية المطهرة من نصوص تؤكد على ضرورة غرس هذه المبادئ في الناشئة.

ويطرح البحث تساؤلات جوهرية تتعلق بمدى قدرة التعليم الديني الحالي على تحقيق هذا الهدف، في ظل طغيان الأساليب التلقينية وضعف التفاعل الحي بين المعلّم والمتعلّم، إضافة إلى غياب الجانب التطبيقي من التعليم القيمي. كما يعرض نماذج من الدول التي نجحت إلى حد كبير في إدماج التعليم الديني ضمن مشروع تربوي متكامل، يجمع بين المضمون العقائدي والتربوي، ويُسهم في بناء مواطن صالح ملتزم بقيمه ومنفتح على العالم.

من أبرز التحديات التي رصدها البحث: ضعف الإعداد الأكاديمي للمعلمين القائمين على تدريس المواد الدينية، وعدم وجود استراتيجية موحدة لتطوير هذه المناهج، فضلاً عن النظرة النمطية السائدة لدى بعض فئات المجتمع التي تعتبر التعليم الديني جامدًا أو معيقًا للتطور، في حين أن جوهره الحقيقي يحمل في طياته إمكانات كبيرة للنهضة الأخلاقية والفكرية.

وقد توصلت الدراسة إلى أن إعادة هيكلة التعليم الديني لا ينبغي أن تقتصر على تعديل الكتب، بل يجب أن تشمل إصلاحًا شاملًا في فلسفة التعليم ذاتها، بحيث يكون الطالب محورها، والقيم غايتها، والعقل أداة لفهم النص وليس مجرد وعاء للحفظ. كما يؤكد البحث على أهمية التكامل بين المؤسسات التعليمية والدينية والإعلامية في غرس القيم، من خلال شراكات مجتمعية تدعم هذا التوجه.

كما يوصي البحث بتضمين المناهج الدينية وحدات تدريبية تطبيقية، تُمارَس من خلال أنشطة حياتية داخل المدرسة وخارجها، وتشجيع أساليب التعليم النشط التي تركز على الحوار والتفكير النقدي، وتوظيف الوسائط الرقمية الحديثة لنقل المفاهيم الأخلاقية بلغة يفهمها الجيل الرقمي.

وختامًا، يشدد البحث على أن التعليم الديني، إذا ما تم تفعيله ضمن رؤية تربوية شاملة تجمع بين الأصالة والتجديد، يمكن أن يكون قوة محركة نحو إصلاح المجتمع، والحد من مظاهر الانحلال الأخلاقي، وبناء أجيال تتحلى بالمسؤولية والانضباط الذاتي، وتُسهم بفاعلية في بناء عالم أكثر عدلاً وسلامًا.

***الكلمات المفتاحية:*** *التعليم الديني، القيم الأخلاقية، المناهج الدراسية، التربية الإسلامية، الخطاب التربوي*

# Din təhsilində Montessori modeli və İslam təlim-tərbiyə üsulu ilə uyğunluğu

***f.f.d. Kövsər Tağıyev***
Azərbaycan İlahiyyat İnstitutu
İslamşünaslıq kafedrasının müəllimi
Bakı, Azərbaycan
kovsartagiyev@ait.edu.az
https://orcid.org/0000-0002-0541-7118

Montessori modeli italyanəsilli həkim və pedaqoq Maria Montessori (1870–1952) tərəfindən XX əsrin əvvəllərində irəli sürülmüş təhsil nümunəsidir. Bu modelin əsas prinsipi uşağın təbii inkişaf potensialına hörmət etmək, ona azadlıq vermək və öyrənməni məcburiyyətlə deyil, maraq və təcrübə əsasında həyata keçirməkdir. Montessori modelində müəllim rəhbər rolundadır, əsas öyrənmə isə uşaqla onun ətraf mühiti arasında qurulan əlaqəyə əsaslanır. Tədris vəsaitləri xüsusi olaraq hazırlanır ki, uşaq hiss orqanları vasitəsilə öyrənsin və öz təcrübəsi ilə idrak etsin.

Montessori modeli yalnız dünyəvi biliklərin öyrənilməsinə yönəlməyib, eyni zamanda, uşağın mənəvi, emosional və əxlaqi inkişafına da xüsusi

önəm verir. Maria Montessori öz fikirlərində tez-tez insan ruhunun inkişafından, daxili intizamdan və yaradıcı təfəkkürdən bəhs edirdi. Onun fikrincə, hər bir uşağın daxilində mənəvi təmayül mövcuddur və bu mənəvi meyillər düzgün tərbiyə ilə gücləndirilməlidir.

Din təhsili nəzəriyyələri arasında Montessori modeli mənəvi-ruhi inkişafı əsas götürən yanaşmalara daha yaxın durur. Bu model sosial-psixoloji nəzəriyyələrlə müqayisədə daha holistik (bütüncül) bir yanaşma təqdim edir. Məsələn, sosial öyrənmə və tənqidi dini təhsil kimi yanaşmalarda əsas vurğu davranış və ya analitik təfəkkür üzərindədirsə, Montessori modelində təlim uşağın daxili aləmi, vicdanı və ruhu meyilləri ilə birgə formalaşır. Bu xüsusiyyətilə Montessori yanaşması, xüsusən erkən yaş mərhələsində din və mənəviyyat təlimi üçün aktual və praktik bir çərçivə təqdim edir.

Bu modelin əsas prinsipləri uşağın təbii inkişaf ahənginə uyğun olaraq, məcburiyyətsiz və daxildən xaricə doğru formalaşan bir tərbiyə prosesini nəzərdə tutur. Montessori yanaşmasına görə, dini öyrənmə yalnız informasiya ötürmək deyil, həmçinin insan ruhunun və əxlaqının yetişdirilməsinə xidmət etməlidir.

Montessori modelinin din təlimində tətbiq oluna biləcək əsas prinsiplərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- **Fitrətə hörmət:** hər bir uşaqda təbii mənəviyyat meyli mövcuddur. Tərbiyə bu meylin qorunması və istiqamətləndirilməsi üzərində qurulmalıdır.
- **Təcrübəyə əsaslanan öyrənmə:** dini biliklər və ibadətlər uşaq tərəfindən yaşanaraq, müşahidə və təkrarlama yolu ilə mənimsənilməlidir.
- **Mühitin tərbiyəvi rolu:** sakit, nizamlı və estetik baxımdan zəngin mühit uşağın diqqətini cəmləməsinə və daxili harmoniya tapmasına şərait yaradır.
- **Müəllimin müşahidəçi rolu:** müəllim rəhbərlik etməz, sadəcə, müşahidə aparar və uşağın inkişafına uyğun şəkildə ona istiqamət verər.
- **Azadlıq və məsuliyyət balansı:** uşaq seçimində sərbəstdir, lakin bu azadlıq məsuliyyətlə tənzimlənir.
- **Sensor əsaslı tədris:** uşaq dini məzmunu duyğu orqanları vasitəsilə daha dərindən qavraya bilər — məsələn, dəstəmazı tətbiqlə öyrənmək.

Bu prinsiplərin İslamın təlim və tərbiyə sistemindəki əsas yanaşmalarla paralellik təşkil etdiyini

görmək mümkündür. İslamda insanın fitrət üzrə yaradılması ("Rum", 30/30) onun mənəvi inkişaf potensialını tanımağın əsasını təşkil edir. Məhəmməd peyğəmbərin uşaqlara mərhələli şəkildə namazın öyrədilməsi ilə bağlı hədisləri məcburiyyətdən uzaq, şövqlə aparılan dini təlimi təşviq edir. Bu isə Montessori prinsipi – uşağın daxili təşəbbüsünə hörmət və azad seçim – ilə üst-üstə düşür.

Həmçinin İslam təlimində əməllərin öyrədilməsi yalnız nəzəri şəkildə deyil, təcrübə yolu ilə həyata keçirilir. Namaz qılmaq, dəstəmaz almaq, dua öyrənmək – bütün bunlar uşağın sensor təcrübəsinə və bədən yaddaşına xitab edir. Bu Montessori metodunun sensor materiallardan və praktik bacarıqlardan istifadə etməsi ilə eyni fəlsəfi əsas üzərində dayanır.

Beləliklə, Montessori modelinin din təhsili üçün təklif etdiyi prinsiplər İslam təlim-tərbiyəsi ilə nəzəri, praktik baxımdan yüksək səviyyədə paralellik təşkil edir. Bu paralellik erkən yaşlarda mənəvi tərbiyəni daha təsirli və təbii yolla həyata keçirmək, uşağı sağlam şəxsiyyətlə yetişdirmək üçün ciddi imkanlar yaradır.

***Açar sözlər**: Montessori modeli, pedaqogika, din təhsili, mənəvi inkişaf, İslam tədris üsulu.*

# Multikultural cəmiyyətdə din təhsili: Robert Ceksonun şərhedici təhsil modelinə qısa baxış

***s.f.d., dos. Asəf Qənbərov***
Azərbaycan İlahiyyat İnstitutunun dekan müavini
Bakı, Azərbaycan
asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029

Bu tezis Robert Cekson tərəfindən hazırlanmış və Vorvik Universitetində formalaşdırılmış şərhedici və ya interpretativ din təhsili modelini təhlil edir. Bu model multikultural və çoxdinli cəmiyyətlərdə din təhsilinin obyektiv və əhatəli şəkildə təqdim oluna biləcəyini müzakirə edir. Tezisdə bu yanaşmanın əsas prinsipləri, pedaqoji aspektləri və təhsil siyasətinə təsiri, Azərbaycan kontekstində əhəmiyyəti müzakirə edilmişdir. Tədqiqatın əsas məqsədi şagirdlərin fərqli dini inanclarla tanış olarkən tənqidi düşüncə, empatiya qurmaq bacarığı əldə etməsinə imkan yaradan bir modelin analizi və dəyərləndirilməsidir.

Yazıda metod olaraq kvalitativ sənəd analizi tətbiq edilmiş, əsas akademik mənbələr təhlil olunmuşdur. Bu mənada, Robert Ceksonun əsas əsərləri və beynəlxalq sahədə mövcud olan ədəbiyyat nəzərdən

keçirilmişdir. Xüsusilə "*Religious Education: An Interpretive Approach*" (1997) və "*Rethinking Religious Education and Plurality*" (2004) araşdırmalar əsas mənbələr kimi qiymətləndirilmişdir. Əlavə olaraq, "*British Journal of Religious Education* və *Education*", "*Religion and Diversity*" kimi akademik nəşrlərdə dərc olunmuş elmi məqalələrdən istifadə olunmuşdur.

Robert Cekson (1997, 2004) tərəfindən inkişaf etdirilən şərhedici (interpretativ) din təhsili modeli dini ənənələrin yalnız müqəddəs mətnlərlə deyil, fərdlərin şəxsi təcrübələri və gündəlik praktika ilə başa düşülməsi ideyasına əsaslanır. Onun şərhedici yanaşması dini ənənələri homogen qurumlar deyil, fərdi və ictimai kontekstlərdə davamlı dəyişən yaşantı sistemləri kimi qəbul edir. R. Cekson (1997, 2004), dinlərin həm daxildən, həm də kənardan başa düşülməsini təmin edən pedaqoji modellər yaratmış, tələbələrin tənqidi düşüncə, empatiyaqurma və mədəniyyətlərarası şüur bacarıqlarını inkişaf etdirməyi hədəfləmişdir. Şərhedici din təhsili fenomenoloji yanaşmanın dinə mötərizəli və məsafəli baxışından fərqli olaraq, dini fərdi və mədəni təcrübə kontekstində kollektiv öyrənməyə əsaslanır. Şagirdin başqasını anlama, öz düşüncələrini tənqidi şəkildə dərk etməsi yolu ilə tərbiyəvi məqsədləri də ön plana

çıxarır. Bu yanaşmanın əsas prinsipləri aşağdakılardır:

- perspektivlərarası baxış; şagirdlər eyni dini ənənə daxilinə fərqli şərhlərin mövcud olduğunu öyrənirlər;
- empatiya və refleksiya; tələbələr digər dini kimliklərə hörmətlə yanaşmağı və öz baxışlarını dəyərləndirməyi öyrənirlər;
- plüralizm və tənqidçilik; tək bir doğru dini həqiqət əvəzinə, müxtəliflik və çoxsəslilik əsas götürülür.

Şərhedici din təhsili modeli, xüsusilə dünyəvi və çoxdinli təhsil sistemləri üçün davamlı və inklüziv bir model irəli sürür. Bu modelə görə, din təhsili, sadəcə, dini bilik verməklə kifayətlənmir, eyni zamanda, fərqli həyat tərzlərini dərk etməyə yönəlmiş bir sosial öyrənmə prosesi olaraq qəbul edilir. UNESCO və Avropa Şurası kimi beynəlxalq qurumlar tərəfindən dəstəklənən bu yanaşma din təhsilinin ümumbəşəri dəyərlərlə uyğun şəkildə təşkili baxımından strateji əhəmiyyətə malikdir.

Nəticə olaraq, təhsil sistemində şərhedici təhsil modelinin tətbiqi dünyəvilik prinsipinə uyğunluq, milli-mənəvi dəyərlərə hörmət baxımından əhəmiyyətlidir. Fikrimizcə, Azərbaycanda mövcud dini və mədəni plüralizm bu modelin tətbiqi üçün əlverişli zəmin yaradır.

Dünyəvi və eyni zamanda, dini tolerantlıq prinsipləri üzərində qurulmuş dövlət olaraq, Azərbaycan məktəblərində bu modelin tətbiqi dinlərarası anlaşmanın artırılmasına, gənclərdə tənqidi və empatiya yanaşmanın inkişafına, dini münaqişələrin və stereotiplərin azaldılmasına xidmət göstərə bilər.

***Açar sözlər:*** *şərhedici din təhsili, multikultural təhsil, tənqidi düşüncə, dünyəvi təhsil sistemi, Robert Cekson.*

# Dini radikalizmlə mübarizədə din təhsilinin əhəmiyyəti (reallıqlar və perspektivlər)

***f.f.d., dos. Elnur Mustafayev***
Azərbaycan Milli Elmlər Akademiyası
akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
Din və ictimai fikir şöbəsinin müdiri
Bakı, Azərbaycan
elnur.mustafayev88@mail.ru
https://orcid.org/0000-0001-9784-3466

Heç şübhə yoxdur ki, hər bir cəmiyyətin, yaxud hansısa mədəniyyətin formalaşmasında din amili əsas elementlərdən biri kimi çıxış edir. Dini dəyərlər fərdi və ictimai müstəvidə ali ideallar hesab edildiyindən, ətraf aləmdə baş verənləri, insanların hadisələrə münasibətini müəyyənləşdirən normalar kimi qəbul olunur. Qeyd edək ki, dövrümüzdə dinlər və dini düşüncə tərzi öz aktuallığını itirməmiş, əksinə olaraq, qarşılıqlı ictimai münasibətlərin tənzimlənməsində başlıca bünövrə rolunu oynayır.

Müasir dövrdə dini radikalizm və ekstremizm bütün dünyanı narahat edən, bəşəriyyət üçün olduqca təhlükəli qlobal problemlərdən birinə çevrilmişdir. Şübhəsiz, yaxın coğrafiyamızda, xüsusilə də Yaxın

Şərq regionunda dini radikalizm və ekstremizm meyillərinin güclənməsi bölgə dövlətləri üçün ciddi təhdid və təhlükə mənbəyinə çevrilmişdir.

Radikalizm, separatizim, islamofobiya, ksenofobiya və antisemitizim kimi hallara qarşı mubarizə aparmaq üçün ilk növbədə, həmin anlayışların yaranma səbəblərini və mahiyyətini öyrənmək lazımdır.

Ümumiyyətlə, radikalizm müəyyən hədəfə çatmaq üçün başqalarının hüquqlarına hörmət göstərməyən, digərlərinin hüquqlarını pozmaq bahasına məqsədəçatma fəaliyyətinə deyilir. Dini radikalizm bu mənada, özündən olmayan dini qruplara qarşı barışmaz mövqe tutan, başqalarına qarşı fiziki, mənəvi güc tətbiq edən və ya radikalizmin ən şiddətli növünü təşkil edən terrorçu qrupların fəaliyyətlərinə şamil edilir. Düzdür, dini radikalizm və dini ekstremizm problemini yalnız müasir dövrə aid etmək düzgün olmazdı. Demək olar ki, tarixin müxtəlif dövrlərində zaman-zaman dini radikalizm və ekstremizm fenomeni müşahidə olunmuşdur.

Dini radikalizmlə mübarizədə din təhsili və bu təhsilin düzgün təşkili bir neçə aspektdən böyük məna kəsb edir. Belə ki, din və təhsil mövzusu bu gün də öz aktuallığını saxlayır. Dünyada baş verən terror hadisələri, radikal dini qruplaşmaların siyasi-ictimai

məsələlərə müdaxiləsi və bunun, adətən, mənfi nəticələrə gətirib-çıxarması din pərdəsi altında fəaliyyət göstərənlərlə ehtiyatlı davranmağı, ayıq olmağı tələb edir. Bu məsələlərdə dini sahədə bilgilərin az, yetərsiz olması ictimaiyyətə düzgün məlumat ötürülməsinə, cəmiyyətdə təhlükəli tendensiyaların formalaşmasının qarşısının alınmasına mane olur. Bu məsələdə din və təhsilin üzərinə düşən konkret öhdəliklər var ki, dini sahədə lazımi bilgilərə sahib olmadan vəzifəni icra etmək xeyli çətinləşir.

Bəzi qrupların öz maraqlarını təmin etmək üçün din amilindən istifadə etməsi, dini və milli-mənəvi dəyərlərin bəzi maraqlı qüvvələrin alətinə çevrilməsi, xüsusilə son dövrdə dinin siyasiləşdirilmiş formada yayılması və təqdim edilməsinin təhlükələri, eyni zamanda, bu istiqamətdəki təhdidlərin qarşısının alınmasında din təhsilinin və dini maarifləndirmənin düzgün təşkili böyük töhfələr verə bilər. Başqa ifadə ilə desək, dinin düzgün şəkildə tədris edilməsi dinin özünü təhriflərdən qoruya, milli-mənəvi birliyi təmin edə, dinin cəmiyyətdəki müsbət cəhətdən rolunu artıra, insanları radikal dini tendensiyalardan sığortalaya bilər.

Din təhsili və milli dini kadrların hazırlanması isə aktual problemlərdən biri kimi böyük əhəmiyyət kəsb

edir. İnsanların dini düşüncəsinin sağlam müstəvidə və milli-mənəvi dəyərlərə uyğun şəkildə formalaşdırılması üçün milli kadrlar yetişdirmək zəruridir. Həmin kadrlar din xadimi və ya mütəxəssis kimi fəaliyyət göstərərkən milli dövlətçilik maraqlarını nəzərə almalı, vətənpərvərlik ruhunu rəhbər tutmalı, milli-mənəvi dəyərlərin keşiyində durmalı, dinin insanlara olduğu kimi çatdırılmasında aparıcı qüvvəyə çevrilməli, xurafat və dini radikalizmlə barışmaz mübarizə ortaya qoymalıdırlar.

***Açar sözlər:*** *din, təhsil, radikalizm, mənəvi dəyərlər, müasir çağırışlar.*

# Актуальные проблемы взаимного изучения религиозных традиций в исламо-христианском взаимодействии

***Григорий Матрусов***
доктор церковного права,
председатель Экспертного совета по взаимодействию с исламским миром
(Русская Православная Церковь),
доцент Казанской духовной семинарии.
Москва, Россия
daniilorth@mail.ru
https://orcid.org/0009-0000-7251-3268

В настоящее время определяющими факторами стабильности в мире являются политические, религиозные, социальные. По своему непреходящему значению, особо следует выделить религиозный фактор. С одной стороны, вероубеждение определяет характер поведения человека и целой группы верующих людей, принадлежащих к религиозному сообществу. С другой стороны, религия уже в течение многих столетий является тем инструментом, который активно и очень успешно используют, прежде

всего, различные политические силы для достижения своих целей.

В этом отношении особенно следует выделить две религии: ислам и христианство. Последователи этих двух великих религий составляют почти половину населения земного шара, и от того как протекает или будет складываться отношение между этими религиями в огромной мере зависит настоящее и будущее нашей планеты.

Следует признать, что существуют проблемы взаимодействия между мусульманами и христианами. Эти проблемы уходят корнями в глубокую историю. Можно сказать, они возникли в момент зарождения ислама как новой религии. Совершенно естественно, что кроме сугубо мировоззренческого, религиозного аспекта, который определял стратегию развития христианского и мусульманского общества в этот период, важнейшим фактором стал вопрос политической власти и влияния. И к сожалению, кровопролитные столкновения и конфликты на много веков определили общий характер взаимодействия.

В современный период нашей истории вопрос взаимодействия по многим причинам стано-

вится еще более актуальным. Но это взаимодействие никогда не будет успешным, если не найти с одной стороны базовые положения для его развития, а с другой стороны не прилагать усилий для его продвижения и практического развития.

На данном этапе, по большому счету, исламо-христианское взаимодействие является уделом очень ограниченной группы религиозных и научных деятелей, изучающих эти вопросы и участвующих в различных конференциях и круглых столах. При этом можно отметить, что, к сожалению, само взаимодействие зачастую носит формальный характер.

Очевидно, что ведущую роль в исламо-христианском диалоге следует отвести религиозным деятелям этих религий. Проблема заключает в том, что изучение ислама в христианском религиозном образовании очень ограниченно. Представляется, что программы исламского религиозного образования отводят еще меньше места изучению христианства. Но без качественного, глубокого знания другой традиции невозможно уважительное и продуктивное общение и сотрудничество.

Более того, чисто научное знание является недостаточным для глубокого понимания религиозного явления, что является дополнительным фактором, осложняющим взаимодействие.

На основе своего опыта автор предлагает рассмотреть существующую традицию изучения ислама в христианских учебных заведениях (Папский институт изучения арабистики и исламоведения в Риме и Казанская духовная семинария). Рассматриваются особенности преподавания, с точки зрения практического применения в межрелигиозном исламо-христианском взаимодейсвии. Обозначаются сложности и предлагается осмысление некоторых аспектов православного христианского и мусульманского вероучения с целью повышения эффективности диалога и межрелигиозного сотрудничества.

***Ключевые слова:*** *Ислам, христианство, религиозное образование, межрелигиозное взаимодействие.*

# Din təhsilində süni intellekt platformalarından istifadə imkanları: fürsətlər və risklər

***f.f.d., dos. Anar Qafarov***
Azərbaycan İlahiyyat İnstitutu
Dinşünaslıq kafedrasının müdiri
Bakı, Azərbaycan
anargafarov@ait.edu.az
https://orcid.org/0000-0002-3113-1287

Süni intellekt və onunla bağlı platformalardakı (ChatGPT, Google Bard, Deepseek) sürətli inkişaf və nailiyyətlər bəşər həyatının bir çox fəaliyyət sahəsinə öz təsirini göstərir. Belə ki, süni intellekt artıq sənaye, səhiyyə, təhlükəsizlik, iqtisadiyyat və təhsil də daxil olmaqla, müxtəlif sahələrdə geniş şəkildə tətbiq edilir. Sözsüz ki, bu gedişat din təhsili və dini maarifləndirmə sahəsində də müşahidə olunur.

Təhsil sistemlərinə inteqrasiya olunan süni intellekt XXI əsrin iyirminci illərindən etibarən, bütün tədris sahələrində olduğu kimi, din təhsilində də yeni yanaşmalar və imkanlar ortaya qoyur. Bu məqamda belə bir sual doğur: görəsən, Sİ əsaslı platformaların təhsildə,

o cümlədən din təhsilində tətbiqi, sadəcə, təhsil imkanlarında üstünlük olaraq dəyərləndirilməlidir? Ola bilsin, bu imkan bəzi riskləri də özündə daşısın.

Bütün qeyd etdiklərimiz ənənəvi və müasir tədris metodlarına yenidən nəzər salıb, onları dərindən təhlil süzgəcindən keçirərək, tədqiqat obyektinə çevirməyi labüd edir. Bu mənada, "Din təhsilində süni intellekt platformalarından istifadə imkanları: fürsətlər və risklər" mövzusundakı tədqiqat aktuallıq kəsb edir. Bu tezisdə süni intellekt əsaslı platformaların din təhsilinə inteqrasiya imkanları və bu inteqrasiyanın yaradacağı fürsət və daşıdığı potensial risklər ətraflı şəkildə müzakirə edilir.

Tədqiqatın əsas metodunu mövzuya dair əldə olunan məlumat, elmi mənbə və sənədlərin müqayisəsi, qiymətləndirmə, fərziyyə və şərhəsaslı keyfiyyət araşdırması və məzmun analizi təşkil edir.

Tədiqiqatın ilk tezisi ondan ibarətdir ki, süni intellekt əsaslı platformalar din tədrisində fərdiləşdirilmiş öyrənmə, avtomatik məzmun analizi və virtual interaktiv təlim mühitlərinin yaradılması kimi bir sıra imkanlar təqdim edir. Bu platformalar, eyni zamanda, etik, pedaqoji və teoloji aspektlərdən bəzi risklər də doğurur. Belə ki, süni intellektin dini mətnləri şərh və təfsiretmə,

yaxud dini suallara cavabvermə kimi funksiyaları yerinə yetirməsi, bir tərəfdən, dini biliklərə çıxışı asanlaşdırsa da, digər tərəfdən, ciddi teoloji risklər doğurur. Burada narahatlıq yaradan ən böyük problemlərdən biri həmin texnologiyanın mürəkkəb dini anlayışları sadələşdirməsi, bununla da yanlış və səthi interpretasiyalara yol açması ehtimalıdır. Məsələn, Yəhudilik, Xristianlıq və İslam kimi böyük dünya dinləri vəhy, ənənə və ilahi hikmət anlayışlarına əsaslandığından, bu mənbələrin süni zəka tərəfindən şərh edilməsi, bəzən, ciddi teoloji mübahisələr doğura bilər. Sözügedən dinlərə dair mənbələrin layiqincə şərh və analiz edilməsi yalnız dil bacarığı ilə deyil, ciddi tarixi, mədəni və məzhəbi biliklərə və onların analiz və sintezinə əsaslanır. Sual olunur: həmin dini mətnlərin kontekstual mənalarını başa düşməkdə süni intellektin müvəffəqolma ehtimalı nə dərəcədədir?

Bütün bunları nəzərə aldıqda, dini təlimlərin orijinallığı və doğru anlaşılması böyük şübhə doğura bilər. Bu mənada, tədqiqatın ikinci tezisinə görə, süni intellektin din tədrisində istifadəsi yalnız texniki və innovativ bir məsələ deyil, o, həm də epistemoloji və mənəvi bir məsələ kimi analiz edilməlidir. Elə isə dini qurumlar və təhsil müəssisələri süni intellekt əsaslı platformaların din tədris sistemlərində tətbiqinə ehtiyatla və

məsuliyyətlə yanaşmalıdırlar. Bu mənada, süni intellektin din təhsilində tətbiq imkanları ilə yanaşı, bu fürsətlərin daşıdığı potensial risklər və onların aradan qaldırılması üsullarının müzakirə olunması son dərəcə zəruridir.

Tədqiqatın nəticəsi budur ki, süni intellektin dini təhsildə istifadəsi yaxşı fürsətlər, risklər daşıyan mürəkkəb bir fenomendir. Onun tətbiqi zamanı təkcə texnoloji effektivlik deyil, eyni zamanda, teoloji dəqiqlik, epistemoloji dərinlik və dini icmaların dəyərlərinə hörmət prinsipləri əsas götürülməlidir. Yalnız bu cür balanslı yanaşma süni intellektin din təhsili və dini maarifləndirmədə sağlam və faydalı şəkildə inteqrasiyasını təmin edə bilər.

***Açar sözlər:*** *din təhsili, təlim innovasiyaları, süni intellekt, fürsətlər, risklər.*

# Din təhsilində biliklərin islamlaşdırılması modeli (Malayziya Beynəlxalq İslam Universitetinin nümunəsi əsasında)

***f.f.d., dos. Elvüsal Məmmədov***
Azərbaycan İlahiyyat İnstitutu
Dillər və ictimai fənlər kafedrasının müəllimi
Bakı, Azərbaycan
elvusalmammadov@ait.edu.az
https://orcid.org/0009-0000-7015-6535

Müsəlman dünyasında ümumi dirçəlişin təmini ətrafında gedən müzakirələrdə təkcə iqtisadi və texnoloji tərəqqiyə deyil, həm də mənəvi və intellektual yüksəlişə diqqət çəkilir. Bu yüksəlişi təmin edəcək əsas sahələrdən biri təhsildir. Bu gün müsəlman ölkələrində təhsil sistemi, xüsusilə ali təhsil əksər hallarda yad modellərə əsaslanır, yerli mədəni mühit və İslam nöqteyi-nəzərini əks etdirmir. Ali təhsildə özünü göstərən bu problemin həlli istiqamətində təqdim edilən "biliyin islamlaşdırılması", yaxud "biliklərarası inteqrasiya" modeli mühüm alternativ sayılır. Bu model ilk dəfə Malayziya Beynəlxalq İslam Universitetində tətbiq edilmişdir. Bu

baxımdan, Malayziya Beynəlxalq İslam Universiteti optimal və münasib təcrübəni təmsil edir.

Malayziya Beynəlxalq İslam Universitetinin yaradılmasında məqsəd yalnız dini biliklərin verilməsi deyil, həm də bu bilikləri müasir humanitar və texniki elmlərlə vəhdətdə götürmək olmuşdur. Universitetin təhsil modeli dini və dünyəvi elmlərin inteqrasiyasına söykənir ki, bu da tələbələrə həm şəriət elmlərini, həm də sosial elmləri eyni zamanda öyrənmək imkanı verir. Bu təhsil sistemində bilik sintezi və ötürülməsi qurancasına olub, dini biliklərin əməli müstəviyə daşınması təmin edilir. Bununla da tələbə, sadəcə, məlumat daşıyıcısı deyil, həm də düşünən, tənqidi yanaşan və yaradıcı təfəkkürə sahib fərd kimi yetişdirilir.

Biliyin islamlaşdırılması yalnız dini biliklərin yenilənməsini deyil, həm də bütün bilik sahələrinin – fəlsəfə, iqtisadiyyat, hüquq, təbiət elmlərinin İslam perspektivindən təhlili və təqdimini nəzərdə tutur. Problemə bu cür yanaşma təhsil və mədəniyyətdə müşahidə olunan yadlaşma təmayülünü aradan qaldırmaqla bərabər, müsəlman gənclərin öz mədəni-mənəvi keçmişləri, deməli, kimlikləri ilə bütünləşməsinə, yerli kadrlar kimi inkişafına şərait yaradır.

Malayziya nümunəsi göstərir ki, universitetlər yalnız bilik verən deyil, həm də şəxsiyyət formalaşdıran, mədəniyyət və dünyagörüşü aşılayan müəssisələr olmalıdır. Malayziya Beynəlxalq İslam Universitetində tətbiq edilən ikili ixtisas modeli, kampusların memarlıq üslubu və əxlaqi-mənəvi şərtlərə uyğun layihələndirilməsi, dillərə, xüsusilə ərəb və ingilis dillərinə verilən əhəmiyyət bu modelin praktik effektivliyinə dəlalət edir. Bu yanaşma nəticəsində təkcə yerli deyil, beynəlxalq miqyasda da rəqabətə davamlı, islam dünyagörüşə sahib mütəxəssislər hazırlanır.

Bununla yanaşı, Universitetdə tələbələrə yaradıcı düşüncə, cəmiyyətə yararlılıq və fəaliyyətdə mənəvi məsuliyyət prinsipinin rəhbər tutulması aşılanır. Eyni zamanda, burada müsəlman cəmiyyətlərinin qarşılaşdığı mədəni və psixoloji problemlərin təhlilinə əsaslanan tədris proqramları hazırlanır. Biliyin islamlaşdırılması modeli gənc nəsildə təkcə elmi deyil, həm də mənəvi-əxlaqi baza yaratmaq məqsədi daşıyır.

Nəticə etibarilə, biliyin islamlaşdırılması modeli müsəlman dünyasında təhsil islahatlarının mərkəzində durmalı, mənəvi dəyərlərlə zənginləşdirilmiş, mədəni kimliklə vəhdət təşkil edən intellektual mühitin

formalaşmasına xidmət etməlidir. Bu modelin genişləndirilməsi və digər İslam ölkələrinin ali dini təhsil təcrübəsində tətbiq edilməsi müsəlman ümmətinin öz potensialını realizə etməsi üçün vacib addım ola bilər. Beləliklə, düşüncə, metod və təlim-təhsili islam paradiqması ilə vəhdətdə götürən bu model müsəlman dünyasında ali dini təhsilin gələcəyi üçün mühüm olub geniş perspektiv vəd edir.

***Açar sözlər:*** *dini təhsil, biliklərin islamlaşdırılması, Malayziya Beynəlxalq İslam Universiteti, biliklərarası inteqrasiya, müsəlman dünyası.*

# Tədris prosesində dinə yanaşmaların fərqləndirilməsi

***f.f.d., dos. Radif Mustafayev***
Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Sosiologiya İnstitutu
İslam fəlsəfəsi və dinşünaslıq
şöbəsinin aparıcı elmi işçisi
Bakı, Azərbaycan
hradif@mail.ru
https://orcid.org/0000-0003-0046-1440

Dinə müxtəlif təriflər verildiyi kimi, fərqli yanaşmaların mövcudluğu da danılmazdır. Fikrimizcə, istər gündəlik həyatda, istərsə də tədris prosesində sözügedən yanaşmalar fərqləndirilmədiyi təqdirdə, bir sıra anlaşılmazlıq və dolaşıqlıqlar qaçılmaz olur. Mövcud duruma aydınlıq gətirib, təhsilin keyfiyyətini yüksəltmək, eləcə də cəmiyyətdə dinə münasibətə aydınlıq gətirmək baxımından yanaşmaları bir-birindən fərqləndirib, hansı görüşün əldə rəhbər tutulduğunu müəyyən etmək olduqca vacibdir. Bu məqsədlə də ölkə təhsilində mövcud olan dərslik və dərs vəsaitlərinin, o cümlədən tədqiqatların təhlili əsasında aşağıdakı tezisləri irəli sürə bilərik:

– tədris prosesində dini izah etməzdən öncə, dünyagörüşünün nə olduğunu anlatmaq, onun biliyə nisbəti, tarixən inkişaf səviyyəsi, forma və növləri, o cümlədən strukturunun aydınlaşdırılması olduqca vacibdir;

–dindən bəhs edərkən onun həm fövqəltəbii hadisə, fenomen, həm də tarixən formalaşan dünyagörüşü olmaq imkanlarını fərqləndirərək, bütün qeyd etdiklərimizə ayrıca diqqət yetirilməlidir;

– ali təhsil müəssisələrinin elm ocaqları olduqlarını nəzərə alaraq, burada, ilk növbədə, dinə elmi yanaşma fərqləndirilməli və nəticədə dinşünaslığın mahiyyəti, hansı prinsip, metodlar və metodologiya üzrə öyrənildiyi izah edilməlidir. Belə ki, bu tezisdə din fenomeninə sistemli şəkildə yanaşıldığı vurğulanıb, həmçinin onun iki istiqamətdən – birincisi, dinin strukturunun başlıca elementlərinin və ikincisi, dinin cəmiyyətdəki rolu və funksiyalarının öyrənildiyi qeyd edilməlidir;

– dini təhsil müəssisələrində peşəkar ilahiyyatçılar və ruhanilər formalaşdırıldığından, burada dinə dini yanaşma üstünlük təşkil etməli, apologetik münasibət kimi teoloji yanaşma fərqləndirilməlidir. Tezisdə iman elementinə üstünlük verildiyindən, onun digər yanaşmalardan prinsipial fərqliliyi də özünün

normativliyi, aksioloji səciyyə daşıması ilə seçilir. Bununla yanaşı, müqayisəli ilahiyyatın tədrisi dinləyicilərin məntiqi təfəkkürünün inkişafına xidmət edən amillərdəndir;

– dinə fəlsəfi yanaşma özünün ümumfəlsəfi kontekstdə açıqlama və izah etməsi ilə, o cümlədən, məntiqi olaraq doğru və yanlış hesab etdiklərini müəyyənləşdirməyə çalışıb, dinin fəlsəfəsi sahəsini formalaşdırır. Buraya qədim dövrlərdən başlayaraq, filosofların dinə münasibətini aid edə bildiyimiz kimi, xüsusən də XVIII əsrdən etibarən, dinin mahiyyəti, mənşəyi, cəmiyyətdəki rolu və mövqeyini təhlil edən nəzəriyyələrin fəlsəfi əsaslarında dayanan İ.Kantın, G.Hegelin, L.Feyerbaxın baxışlarını, eqzistensialist fəlsəfənin, praqmatizmin, fenomenologiya və digər fəlsəfi təlimlərin əsaslarını təqdim edə bilərik. Unutmaq olmaz ki, daha çox postsekulyarlıq kimi təqdim edilən müasir dövrdə dinin postmodernist izahı da olduqca maraqlı və aktualdır;

– dövrün tələbləri və mövcud şəraitdən irəli gələrək, dinə müxtəlif yanaşmalardan sadalanmış hər hansı bir mövqeyin üstünlük təşkil etməsi dinin fərqli şəkillərdə təqdim olunmasına gətirib çıxarır. Halbuki bu yanaşmaların hər birinin öz daxili məntiqindən irəli gələn prinsiplərin əldə rəhbər tutulub, bütövlükdə,

aralarında mövcud olan təsir və əks-təsir, qarşılıqlı faydalanma və dialoq imkanları da diqqətdən kənarda qalmamalıdır.

***Açar sözlər:*** *din, dinşünaslıq, dinin fəlsəfəsi, ilahiyyat, apologetika.*

# Mapping the Intellectual Landscape of Artificial Intelligence and Educational Technology in Religious Education

***Assoc. Prof. Sharofiddin Ashurov***
International Islamic University Malaysia
Institute of Islamic Banking and Finance (IIiBF)
Kuala Lumpur, Malaysia
ashurov@iium.edu.my
https://orcid.org/.0000-0001-9100-2113

The convergence of artificial intelligence (AI), educational technology, and religious education marks a significant and emerging area of interdisciplinary inquiry. As digital tools increasingly mediate learning processes, the role of intelligent systems in faith-based pedagogy is gaining traction across diverse academic landscapes. This study aims to systematically map the intellectual structure, thematic evolution, and collaborative networks within this growing body of research through a bibliometric analysis. Using the Scopus database, a comprehensive dataset of 18,516 publications published between 2000 and 2025 was extracted

using the keywords “artificial intelligence,” “religious education,” “education,” and “technology.” The data was analysed using Bibliometrix (R package) to identify publication trends, key contributing authors, prolific journals, citation structures, institutional collaborations, and keyword co-occurrence patterns. The objective is to provide a global overview of the research trajectory and emerging hotspots in the intersection of AI and religious educational contexts. Findings reveal a steady increase in scholarly output over the last two decades, with a marked acceleration post-2015, coinciding with the widespread adoption of AI-driven learning platforms and the global shift toward digital education. While the majority of publications originate from developed countries, a growing interest from scholars in Muslim-majority and Asian contexts is evident, particularly in exploring AI’s ethical, pedagogical, and theological implications. Dominant themes identified include intelligent tutoring systems for faith-based learning, virtual and augmented reality in religious instruction, machine learning applications in moral and theological reasoning, and critical discourses on the compatibility of AI with religious

epistemologies. The co-authorship and citation analysis highlight a fragmented but expanding academic community, with limited but increasing cross-regional collaboration. Core journals contributing to the field span both educational technology and theology, underscoring the interdisciplinary nature of the topic. Keyword analysis shows a clustering around terms such as “digital ethics,” “Islamic education,” “AI in curriculum,” and “smart learning environments,” indicating both practical and philosophical engagements with the subject matter. This study contributes to the academic discourse by offering a structured and data-driven understanding of how AI and technology are shaping the future of religious education. It also identifies key research gaps, including the need for deeper empirical studies on pedagogical outcomes, the role of spiritual intelligence in AI design, and the development of culturally and theologically informed educational technologies. As digital transformation continues to redefine teaching and learning modalities, the insights from this bibliometric analysis provide valuable guidance for educators, policymakers,

technologists, and religious scholars seeking to harness AI responsibly within faith-based education systems.

***Keywords:*** *Artificial Intelligence (AI), Religious Education, Educational Technology, Bibliometric Analysis, Digital Pedagogy*

# К истории религиозного образования в Азербайджане до Октябрьского переворота 1917 года и в период АДР (1918-1920)

***д.ф. по филос., доц. Лейла Меликова***
Национальная Академия Наук Азербайджана
Институт Востоковедения им. акад.З.М.Буниятова
ведущий научный сотрудник
Баку, Азербайджан
leyla_melikova2004@yahoo.com
https://orcid.org/0000-0001-5602-8385

Вопросы религиозного образования в Северном Азербайджане в обозначенный период необходимо рассматривать в контексте общей религиозной ситуации, сложившейся после присоединения его к Российской империи в начале XIX века, когда мусульманское духовенство завоеванной Россией части Азербайджана попало под полный контроль имперских властей. Именно с этого момента вся религиозная политика в данном регионе оказывается направленной на насильственную переориентацию местного населения в пророссийское русло. Естественно, что многовековой фактор

исламского духовного и общественно-религиозного сознания оказался камнем преткновения в этом вопросе. По этой причине, на протяжении XIX века религиозное образование в регионе развивалось довольно слабо, однако отечественными учёными было доказано, что до Октябрьского переворота образование мусульман Южного Кавказа находилось в руках мусульманского духовенства. Известны имена многих исламских шайхов, учёных-богословов и *мударрис*ов, живших и творивших в Шемахе, Шуше, Гахе, Закаталах, Шеки, Огузе, Ахсу и в других местностях на рубеже XIX-XX веков и сыгравших огромную роль в развитии просвещения, культуры и образования в Азербайджане, о чём свидетельствует огромное количество памятников и данных эпиграфики и историко-архивных материалов. *Медресе* и школы-м*ектеб*ы функционировали при мечетях за счет доходов с *вакуфа* и пожертвования (*закят*) местных жителей, в домах учителей-мударрисов, и специально арендованных для учёбы помещениях.

В целом, представители интеллектуальной элиты на Южном Кавказе конце XIX – начале XX вв. являлись, приверженцами традиционной мусульманской культуры и посвятили себя одной цели

– пробудить интерес народа к знаниям. Одного из первых представителей азербайджанского просветительства – Аббас-Кули-ага Бакиханова (1794-1846), можно рассматривать как человека, предвосхитившего идеи *джадӣд*ов конца XIX – начала XX вв. и предложившего свой оригинальный подход к интеграции исламских знаний в обновленном контексте. Его позиция наглядно проявилась и в составленном им «Проекте об учреждении мусульманских школ в Баку» (1832). Первая же школа *усӯли-джадӣд* в Азербайджане была открыта в 1869 году известным азербайджанским поэтом и просветителем С.А.Ширвани (1835-1888) в г. Шамаха. Этот опыт дал положительные результаты и был продолжен в других регионах Азербайджана позднее, уже в русле идей крымскотатарского просветителя И.Гаспыралы (1851-1914). Среди прогрессистов, отстаивавших новые методы образования в Азербайджане, находились поистине уникальные личности азербайджанской интеллектуальной культуры, такие как М.М. Навваб (1833-1918) М.Т. Сафаров (Сидги) (1854-1903), Г.-б. Зардаби (Меликов) (1837-1907) и многие другие. Начавшийся на всем Южном Кавказе во второй половине XIX века процесс обновленческой

интеграции в подходе к образованию привлек внимание и мусульманских интеллектуалов Южного Азербайджана, что ознаменовалось открытием южноазербайджанским педагогом и просветителем М.Х. Рушдиййа (1851-1944) школ нового образца с обучением на азербайджанском языке «Дабистани-Рушдиййа» и «Мадрасейи-Рушдиййа в 1888 г., «Рушдиййайи-музаффариййа» в 1893 г. в Табризе и школы *усули джадид* в Тегеране в 1897 г.

Особняком также выделялась системная образовательная традиция в русле *тасаввуфа*, с рядом присущих ей особенностей и принципов, обусловивших подъём просвещения в северных районах Северного Азербайджана. Распространение этих принципов обеспечило полное обновление (*таджди̅д*) в образовательной сфере и общественное единение различных культур, являя собой яркий исторический пример.

Под влиянием идей исламского реформизма XIX-XX вв., вдохновителями которых были видные деятели исламской нахды – Мухаммад ‘Абдух(1849-1905) и Джама̅ладди̅н ал-Афга̅ни̅ (1838-1897), в Северном Азербайджане в начале XX имел место всплеск политической активности и

рост национального самосознания, которые привели к созданию в 1918 году первой республики (АДР) на мусульманском Востоке, где религия была отделена от государства. В регионе к тому времени не осталось ни одного исламского учебного заведения, которое могло бы стать духовным центром “просвещенного исламского духовенства” и служить для подготовки духовных кадров, войдя в противоречие с государственной идеологией культурной унификации всех подданных Российской империи. Азербайджанские просветители требовали обучения на родном (тюркском) языке и преподавания не только религиозных, но и светских предметов. Однако, по их мнению, *мектеб*ы и *медресе* следовало не закрывать, а реформировать для того, чтобы получить грамотных и интеллигентных учителей и мулл. В статье будут рассмотрены эти и другие важные аспекты заявленной темы.

***Ключевые слова:*** *мектебы, медресе, религиозное образование, усӯли джадӣд, просвещение, Азербайджан.*

## Türkiyədə din təhsili: tarix, ənənə və müasirlik

***t.f.d., dos. İsmayıl İsmayılov***
Gəncə Dövlət Universiteti
Ümumi tarix kafedrası
Gəncə, Azərbaycan
ismayil.ismayilov@gdu.edu.az
https://orcid.org/0000-0001-6033-7383

Din insan cəmiyyətinin tarixboyu formalaşmasında mühüm rol oynayan institut kimi, fərdlərin əxlaqi formalaşması, kimlik axtarışı və ictimai harmoniyanın təminində əsas vasitələrdən biri kimi qəbul edilir. Din təhsili isə bu dəyərlərin gələcək nəsillərə elmi, sistemli və mənəvi çərçivədə ötürülməsi funksiyasını yerinə yetirir. Xüsusilə Türkiyə kimi İslam aləminə, eləcə də Qərb dünyasına yaxın coğrafi və mədəni mövqedə yerləşən bir ölkədə din təhsili daxili ictimai dinamikliyin, beynəlxalq münasibətlərin formalaşmasında mühüm əhəmiyyət daşıyır.

Türkiyədə din təhsilinin kökləri Osmanlı dövrünə gedib-çıxır. Bu dövrdə mədrəsələr vasitəsilə din alimləri yetişdirilir, təhsil proqramlarında fiqh, təfsir, hədis və kəlam kimi klassik İslam elmlərinə üstünlük verilirdi. Şifahi ənənə əsaslı təhsil metodları və

mətnəzbərləmə dərs modelləri geniş yayılmışdı. Cümhuriyyətin qurulması ilə bərabər, 1924-cü ildə mədrəsələr bağlandı və tövhidi-tədrisat qanunu ilə təhsil sistemi mərkəzləşdirilərək dövlət nəzarətinə keçdi. Bu dəyişikliklə din təhsili dövlətin nəzarətində olan daha məhdud bir sahəyə çevrildi. Bununla belə, xalqın dini ehtiyaclarına cavab vermək məqsədilə 1949-cu ildə ilk imam xətib kursları təşkil edildi. Bu kurslar isə sonralar imam xətib liseylərinə çevrildi.

Bu təhsil modeli təkcə dini biliklərin ötürülməsi ilə kifayətlənməyib, eyni zamanda, əxlaqi-mənəvi formalaşmanı hədəfləyirdi. İmam xətib məktəbləri bu modelin əsas təmsilçiləri kimi fəaliyyət göstərmiş, xüsusilə kənd və kiçik şəhərlərdə dini həyatın canlanmasında mühüm rol oynamışdır. Bu məktəblərin sayı 1980-ci illərdə artmış, dövlətin nəzarəti ilə proqramları yenilənmiş və dini mətnlərin yanında sosial elmlər də tədris olunmağa başlanmışdır.

Müasir dövrdə isə Türkiyədə din təhsilinə daha kompleks yanaşma sərgilənir. Dəyanət İşləri Başqanlığı və ali təhsil müəssisələrinin ilahiyyat fakültələri 1982-ci ildən sonra bu sahədə aparıcı qurumlar olmuşdur. İlahiyyat fakültələrində din, fəlsəfə, psixologiya, dinlər tarixi, sosiologiya və pedaqogika kimi sahələr tədris olunaraq, din təhsilinin interdisiplinar

xarakter almasına şərait yaradılmışdır. Qeyd edək ki, 1997-ci ildən sonra həyata keçirilən 8 illik məcburi təhsil islahatı çərçivəsində imam xətib məktəblərinin orta pillələri bağlanmışdır ki, bu da din təhsilində dönüş nöqtəsi hesab olunur. Bu məhdudiyyətlər 2012-ci ildə həyata keçirilən “4+4+4” sistemi ilə qismən aradan qaldırılmışdır.

Türkiyədə din təhsilinin üzləşdiyi çağdaş problemlər də mövcuddur. Bu problemlər arasında dövlətin ideoloji müdaxiləsi, proqramların tərəfsizliyi, dini təhsilin plüralist dəyərlərlə uzlaşa bilməməsi və tədrisin keyfiyyətindəki bölgələrarası fərqlər göstərilə bilər. Eləcə də qloballaşma və texnologiyanın inkişafı fonunda gənc nəslin dinə yanaşması dəyişmiş və bu yeni ehtiyaclara uyğun təhsil modellərinə ehtiyac yaranmışdır. Akademik dairələrdə aparılan tədqiqatlara görə, din təhsilində daha çox mədəniyyətlərarası dialoq, dinlərarası anlaşma və demokratik tədris metodlarının tətbiqi zəruri hesab olunur.

Qeyd edilənlər göstərir ki, Türkiyədə din təhsili tarixi ənənəvi və müasir mərhələlərdən keçərək bugünkü çoxşaxəli formasını almışdır. Bu sahədə gələcək islahatların daha inklüziv, demokratik və elmi əsaslarla aparılması vacibdir. Təklif edilən yanaşmalara uyğun olaraq, din təhsili fərqli dünyagörüşlərini,

inanc sistemlərini və dəyərləri bir arada təhlil etməyi bacaran, düşünən və tolerant nəsillərin formalaşmasına töhfə verə bilər.

***Açar sözlər:*** *Türkiyə, İslam, din təhsili, imam xətib, təhsil siyasəti.*

# Azerbaycan ve Türkiye'de Yükseköğretim Müfredatının Mukayesesi: İslam Hukuku Dersleri Örneği

***Doç., Dr. Adem Yıldırım***
Kırıkkale Üniversitesi
İslami İlimler Fakültesi
Kırıkkale, Türkiye
ademyildirim10@gmail.com
https://orcid.org/0000-0002-7020-8099

İslam hukuku (fıkıh), İslam medeniyetinin temel dinamiklerinden biri olarak, yalnızca dinî hayatı değil, aynı zamanda sosyal, kültürel ve hukuki yapıyı da şekillendiren kapsamlı bir ilim sahasıdır. Müslüman toplumların tarihsel gelişim süreçlerinde İslam hukuku eğitimi, farklı bağlamlarda değişim ve dönüşüm geçirmiştir. Türkiye ve Azerbaycan, farklı tarihî ve siyasi deneyimlere sahip iki kardeş ülke olarak, İslam hukuku eğitiminde de kendilerine özgü dinamikler geliştirmişlerdir. Türkiye'de Osmanlı tecrübesi ve Cumhuriyet dönemi laikleşme süreci, İslam hukukunu yükseköğretim kurumlarında daha çok akademik ve kültürel bir inceleme alanına dönüştürmüştür. Azerbaycan'da ise

Sovyet dönemi baskıcı sekülerleşme politikalarının ardından bağımsızlık sonrası dönemde İslamî ilimlerin yeniden inşa süreci yaşanmış; bu süreç İslam hukuku eğitiminin içeriğine ve yaklaşımına da doğrudan yansımıştır.

Bu çalışma, Azerbaycan ve Türkiye'de yükseköğretim düzeyinde İslam hukuku derslerinin müfredat yapılarını karşılaştırmalı olarak incelemektedir. Çalışmanın temel amacı, her iki ülkede İslam hukuku eğitiminin tarihsel arka planını, müfredat içeriklerini, temel kaynaklarını ve öğretim yaklaşımlarını mukayeseli biçimde analiz ederek benzerlik ve farklılıkları ortaya koymaktır. Ayrıca, bu analiz yoluyla iki ülke arasında yükseköğretim iş birliği imkanlarının geliştirilmesine yönelik katkılar sunmak hedeflenmektedir.

Çalışma kapsamında Türkiye'de başta Ankara Üniversitesi, Marmara Üniversitesi, İstanbul Üniversitesi ve bazı vakıf üniversitelerinin ilahiyat ve hukuk fakültelerindeki İslam hukuku ders içerikleri detaylı olarak incelenmiştir. Azerbaycan'da ise Bakı Dövlət Universiteti İlahiyat Fakültesi ve Azərbaycan İlahiyyat İnstitutu'nun programları analiz edilmiştir. Karşılaştırma yapılırken ders içerikleri, okutulan temel eserler, öğretim yöntemleri, akademik yaklaşım biçimleri ve güncel

hukuk sistemleri ile kurulan ilişkiler göz önünde bulundurulmuştur.

Araştırma sonucunda, her iki ülkede İslam hukuku eğitiminin ortak bir geleneksel bilgi temelinden (Kur'an, hadis, fıkıh usûlü, klasik fıkıh metinleri) beslendiği görülmüştür. Bununla birlikte, Türkiye'de İslam hukuku eğitimi daha çok hukuk felsefesi, modern hukuk sistemleri ile entegrasyon, mezhepler arası metodolojik çeşitlilik ve çağdaş hukuki meselelerle ilişkilendirilmiş bir yapıya sahiptir. Türkiye'de İslam hukuku derslerinde İslam aile hukuku, miras hukuku, ticaret hukuku, sözleşmeler hukuku gibi konulara ağırlık verilirken, günümüzün laik hukuk sistemiyle karşılaştırmalı analizler de önemli yer tutmaktadır. Ayrıca, Türkiye'de akademik yaklaşımda araştırma odaklı ve disiplinler arası bir eğilim gözlemlenmektedir.

Azerbaycan'da ise İslam hukuku eğitimi, Sovyet sonrası dönemdeki yeniden yapılanmanın etkisiyle teolojik ve kültürel boyutları daha belirgin bir şekilde vurgulamaktadır. Hanefi fıkhı temel alınmakla birlikte, Şii fıkhının ve Kafkasya İslamî mirasının da etkileri müfredata yansımaktadır. Eğitim içeriğinde İslam hukukunun tarihsel ve teolojik temellerine daha fazla odaklanılırken, çağdaş hukukla entegrasyon ve karşılaştırmalı hukuk analizleri Türkiye'ye kıyasla daha sınırlı

kalmaktadır. Bununla birlikte, Azerbaycan'da son yıllarda İslam hukuku eğitiminin modernize edilmesi yönünde çeşitli girişimler dikkat çekmektedir. Uluslararası akademik iş birlikleri, ders materyallerinin güncellenmesi ve çağdaş pedagojik yöntemlerin kullanımı bu sürecin önemli unsurlarındandır.

Sonuç olarak, Türkiye ve Azerbaycan'da yükseköğretim düzeyindeki İslam hukuku dersleri, her iki ülkenin tarihî, kültürel ve siyasi arka planlarının etkisini açıkça yansıtan farklı müfredat yapılarına sahiptir. Türkiye'de daha akademik ve hukuk temelli, disiplinler arası bir yaklaşım benimsenirken; Azerbaycan'da teolojik ve kültürel mirasın korunmasına yönelik daha geleneksel bir eğilim ağır basmaktadır. Bu farklılıklar, iki ülkenin yükseköğretim politikaları ve toplumlarının din-hukuk ilişkisine bakışları açısından anlamlı ipuçları sunmaktadır.

Bu mukayeseli analiz, iki ülke arasında yükseköğretim iş birliği ve karşılıklı akademik etkileşim fırsatlarının geliştirilmesi açısından da önemli bir zemin oluşturabilir. Ortak projeler, öğrenci ve öğretim üyesi değişim programları ve müfredat geliştirme çalışmaları aracılığıyla, İslam hukuku eğitiminin daha zengin ve kapsayıcı bir çerçevede ele alınması mümkündür.

Böylelikle, her iki ülkenin tecrübelerinden karşılıklı olarak faydalanılarak İslam hukuku eğitimine uluslararası düzeyde yeni perspektifler kazandırılabilir.

***Anahtar Kavramlar:*** *İslam Hukuku, Yükseköğretim, Müfredat, Azerbaycan, Türkiye, Mukayeseli Eğitim, Hukuk Eğitimi*

## Dövlət–din münasibətləri Ümummilli Lider Heydər Əliyev siyasətinin bir hissəsi kimi

***t.f.d., dos. Afaq Piriyeva***
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Tarix və coğrafiya fakültəsi, Ümumi
tarix və TTT kafedrası
Bakı, Azərbaycan
afaq.piriyeva@bk.ru
https://orcid.org/0009-0005-0103-9948

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin fəaliyyətində xüsusi prioritet sahələrdən ən başlıcası milli-mənəvi dəyərlər sistemi idi.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının dini-mənəvi dəyərlərinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasət müasir mərhələdə onun layiqli davamçısı, möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Azərbaycan Respublikası Konstitusiyasının (1995-ci il) qəbul edilməsi ölkəmizin dövlət–din münasibətləri modelinin dünyəvilik prinsipi əsasında formalaşması üçün hüquqi təminat yaratdı. Azərbaycan dövləti öz vətəndaşları üçün Konstitusiyada təsbit

olunmuş bütün azadlıqların, o cümlədən vicdan azadlığının təmin edilməsini öz siyasətinin əsas tərkib hissəsi hesab edir. Azərbaycanda formalaşmış dövlət–din münasibətləri beynəlxalq aləmdə bu sahədə səmərəli və əlverişli model kimi qəbul edilir.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizin vətəndaşları dini baxışlarından asılı olmayaraq, azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşdilər. Onlar milli həmrəyliyin möhkəmlənməsində, müstəqil dövlət quruculuğu proseslərində fəal iştirak etməyə başladılar. Azərbaycanda yaşayan dini-etnik qruplar özlərinin dini-mədəni dəyərlərini və etnoqrafik ənənələrini qoruyub-saxladılar.

Azərbaycanın dövlət–din münasibətləri modelinin möhkəmləndirilməsi məqsədilə dövlət maraqlarının müdafiəsi, vicdan və dini etiqad azadlığına dair konstitusion normaların təmin olunması, dövlət orqanları ilə dini qurumlar arasında münasibətlərin hüquqi tənzimlənməsi, dövlət orqanları və dini qurumlar arasında münasibətlərin hüquqi tənzimlənməsi xüsusi diqqət mərkəzində saxlanıldı.

Dini konfessiyalar arasında qarşılıqlı etimad mühitinin yaradılması, dini radikalizmə, fanatizmə və ekstremizmə qarşı mübarizədə dini maarifləndirmə işinin təşkili, dini müxtəlifliyin qorunması və dinlərarası

dialoqun inkişaf etdirilməsi, dini fəaliyyət sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və digər istiqamətlər üzrə məqsədyönlü siyasət aparılmağa başlandı.

Bu sahədə əldə olunan uğurlar Azərbaycana dünya birliyində multikulturalizmin və tolerantlığın inkişaf etdiyi dünyəvi dövlət kimi böyük nüfuz qazandırdı. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməklə, dünyəvi dövlət–din münasibətlərinə dair qanunvericilik sistemi təkmilləşdirildi. Ölkəmizdə dövlət orqanları ilə dini qurumlar arasında münasibətlərin demokratik normalar çərçivəsində tənzimlənməsinə başlanıldı.

Ölkəmizdəki dini dözümlülük mühiti dini konfessiyalar arasında həmrəyliyi təmin etdi. Azərbaycanda dini müxtəlifliyin və dinlərarası dialoqun möhkəmlənməsi üçün mühüm addımlar atıldı. Dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi, müxtəlif dini etiqadları təmsil edən dini qurumlar arasında qarşılıqlı hörmət, anlaşma və dözümlülük mühitinin möhkəmlənməsi, dini zəmində qarşıdurma və ayrıseçkilik hallarının qarşısının alınması məqsədilə Azərbaycan Prezidenti Heydər Əliyevin 2001-ci il 21 iyun tarixli fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Vicdan və dini etiqad azadlığının, dini təhlükəsizliyin təmin edilməsi və dünyəvi dövlət–din münasibətləri modelinin möhkəmlənməsi istiqamətində Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanda dini sabitlik möhkəmləndi.

Dinlərarası dialoq müxtəlif dinlərin nümayəndələri arasında dini həmrəylik yaradan vacib amillərdən biridir. Azərbaycan dünyada dinlərarası dialoqun inkişaf etdiyi məkan kimi tanınır. Heydər Əliyevin dinlərarası dialoqla bağlı apardığı siyasətə görə, müxtəlif dini ənənələrə bir-birindən təcrid olunmuş şəkildə baxıla bilməz. Bəşəriyyəti narahat edən qlobal problemlərin aradan qaldırılması üçün dinlərarası dialoqun genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu dialoqun möhkəmlənməsində ölkəmizin maddi-mədəni potensialı, əlverişli coğrafi mövqeyi və dini-etnik mühiti vacib rol oynayır. Prezident İlham Əliyevin siyasətində qloballaşma ilə milli-dini kimlik arasında qarşılıqlı təsirə mühüm diqqət yetirilir.

***Açar sözlər:*** *Ümummilli Lider, dinlərarası dialoq, multikulturalizm, qloballaşma, tolerantlıq.*

## Dini və dünyəvi təhsilin vəhdəti: imam xətib liseyləri nümunəsi

***i.f.d., dos. Aslan Həbibov***
Azərbaycan Milli Elmlər Akademiyası
Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,
aparıcı elmi işçi
Bakı, Azərbaycan
aslanhabibov@ait.edu.az
https://orcid.org/0000-0002-3016-3324

İmam xətib liseyləri Türkiyədə dini, eləcə də dünyəvi biliklərin tədris olunduğu xüsusi orta təhsil müəssisələridir. Bu məktəblər din xadimlərinin yetişdirilməsi, ali təhsil müəssisələrinə qəbul üçün tələb olunan akademik biliklərin verilməsi baxımından mühüm rol oynayır.

İlk imam xətib məktəbləri 1924-cü ildə Atatürkün təşəbbüsü və “Tövhidi-tədrisat” Qanununun qəbulundan sonra açılmışdır. Bu məktəblərin sayı qısa müddətdə azalmış, 1930-cu ilədək fəaliyyətləri tamamilə dayandırılmışdır.

Ölkədə din xadimi çatışmazlığını aradan qaldırmaq məqsədilə 1948-ci ildən etibarən imam xətib kursları təşkil olunmuşdur. Bu kurslar daha sonra

imam xətib məktəbləri formasında yenidən təşkilatlanmışdır.

İmam xətib liseylərinin inkişafı Türkiyədə siyasi dəyişikliklərlə sıx bağlı olmuşdur. Tək partiyanın hakim olduğu dövrdə ölkənin hər yerində və təhsilin hər bir mərhələsində din təlimi və tərbiyəsi qadağan edilmiş, yeni mütəxəssislər yetişdirilmədiyi və mədrəsədən məzun olanların təzyiqə məruz qalması səbəbindən din xidmətlərində ciddi problemlər yaranmışdır. Vətəndaşlar ölü yuyacaq adam tapa bilmirdilər.

İmam xətib məktəblərinin bağlanmasından 18 il sonra – 1948-ci ildə 10 rayon mərkəzində imam xətib kursları fəaliyyətə başladı. Onaylıq müddət ərzində öyrətmək ilə açılan bu kurslardan 1949-cu ilin sonuna qədər, ancaq 50 nəfərə diplom verilmişdir. Daha sonra bu kursların müddəti iki ilə qədər çatdırılmış və peşə məktəbindən məzun olanların da kurslara getməsinə imkan verilmişdir. Bütün bunlar ölkədə din xadimi ehtiyacını qarşılaya bilməmişdir.

Demokrat Partiyasının hakimiyyəti dövründə ilk mərhələsi 4, ikinci mərhələsi üçillik olmaqla, yeddiillik imam xətib məktəbləri açılmışdır.

Türkiyədə 12 mart 1971-ci il hərbi xəbərdarlığından (hərbi muhtıra) sonra, imam xətib liseylərinin orta hissəsi bağlanmışdır.

Türkiyə Təhsil Nazirliyinin 1973-cü ildə qüvvəyə minən Əsas Qanunu ilə imam xətib məktəblərinin adı "İmam xətib liseyi" kimi dəyişdirilmiş və həmin qanunun 32-ci maddəsi ilə bu məktəblər imamlıq, xətiblik və Quran kursu müəllimliyi kimi dini xidmətləri yerinə yetirmək üçün mütəxəssislər yetişdirmək məqsədilə həm peşə, həm də ali məktəbə hazırlayıcı proqramları tətbiq edən təhsil qurumları kimi xarakterizə olunmuşdur.

Daha sonra 1974-cü ildə qurulan CXP–Milli Salamat Partiyası koalisiyası dövründə imam xətiblərin orta hissəsi yenidən açılmış və sayı artmışdır.

1980-ci il hərbi çevrilişindən sonra bu sahədə yenidən durğunluq yaşanmış, 1990-cı illərdən etibarən isə bu liseylər ictimai və elmi uğurları ilə diqqət mərkəzinə düşmüşdür.

1997-ci ildə qəbul edilmiş qanunla təhsil sistemi dəyişdirilmiş, səkkizillik tam təhsil tətbiq edilmiş və imam xətib liseylərinin orta bölmələri bağlanmışdır. Eyni zamanda, bu məktəb məzunlarının digər fakültələrə daxil olması çətinləşdirilmişdir ki, bu da tələbata mənfi təsir göstərmişdir.

İmam xətib liseylərində tədris iki əsas istiqamət üzrə aparılır: dünyəvi və dəqiq fənlər (məsələn, riyaziyyat, fizika, kimya, tarix, ədəbiyyat və xarici dillər) və

dini fənlər (Quran, təfsir, fiqh, hədis, İslam tarixi, əqaid və s.). Bu struktur şagirdlərə dini dəyərlərlə yetişmək, ali təhsil imkanları qazanmaq baxımından geniş imkanlar yaradır.

Mühafizəkar ailələrin təhsil seçimində mühüm yer tutan imam xətib liseyləri, xüsusilə qızların təhsilə cəlb olunmaları baxımından da əhəmiyyətlidir. 1976-cı ildə ilk dəfə bir valideynin hüquq mübarizəsi nəticəsində qız şagirdlərin də bu məktəblərə qəbuluna başlanılmışdır.

Nəticə etibarilə, imam xətib liseyləri dini və dünyəvi təhsilin vəhdətini təmin edən, müxtəlif sosial təbəqələrdən olan ailələrin övladları üçün alternativ təhsil modeli təklif edən mühüm təhsil müəssisələridir.

***Açar sözlər****: Türkiyə Cümhuriyəti, imam xətib liseyləri, dini təhsil, dünyəvi təhsil, din xadimləri.*

# Din təhsilinə gender yanaşması

***p.f.d., dos. Günay Məmmədova***
Azərbaycan Dillər Universiteti
Regionşünaslıq kafedrası
Bakı, Azərbaycan
ms.gunayfrench@mail.ru
https://orcid.org/0000-0002-1782-1740

Müasir dünyada dini təhsil cəmiyyətin multikultural mühitdə həyata hazırlanmasında, tolerantlığın, mədəniyyətlərin və dinlərin müxtəlifliyinə hörmətin təbliğində mühüm rol oynayır. O, təkcə dini ənənələr haqqında biliklər vermir, həmçinin tənqidi düşüncəni təşviq edir, etik problemlərin və fəlsəfi problemlərin müzakirəsini stimullaşdırır. Din təhsili gender kateqoriyasını da metodoloji və analitik resursları ilə əhəmiyyətli dərəcədə zənginləşdirir: birincisi, dinin öyrənilməsi, artıq yalnız kişilər tərəfindən həyata keçirilmir; ikincisi, dini mənzərədə qadınların özləri tədqiqatçıların yaxından diqqət obyektinə çevrilirlər.

Tarixboyu qadınlar çox zaman dini təhsildən kənarda saxlanılmış və ya yalnız çox məhdud çərçivədə iştirak etmişlər. Son dövrlərdəki dəyər (individuallıq, peşəkarlıq, özünüreallaşdırma, qadınların

azadlığı, gender inqilabı və s.) və sosial dəyişikliklər (urbanizasiya, hərəkətliliyin artması, dini icmadan kənar fəaliyyət imkanlarının genişlənməsi, internet kommunikasiyasının artması, vizual mədəniyyətin əhəmiyyətinin yüksəlməsi) təsiri altında qadınlar, ənənəvi olaraq, “kişi sahələri” hesab olunan yeni istiqamətlərə yiyələnməyə başlamışlar – bu, din təhsilinə də aiddir.

Müasir dövrümüzdə qadınlar bir çox ölkələrdə rəsmi din təhsili ala bilsələr də, yenə də tədris imkanlarında bərabərsizlik bu və ya digər dərəcədə qalmaqdadır. Müasir dindar qadın yalnız dini və sosial planda özünümövqeləndirməli deyil, həm də konfessiyalarsonrası (postkonfessional) və müxtəlif modernləşmə meyillərinə açıq olan bir mədəniyyət şəraitində mövcud olmağa məcburdur. Bu, artıq gender mənsubiyyətindən asılı deyil, daha çox cəmiyyətin modernləşmə səviyyəsi ilə xarakterizə olunur. Bu istiqamətdə dini təhsilin rolu danılmazdır.

Bu gün artan sayda feminist inanc fəalları dini təlimlərin və qanunların yenidən araşdırılmasında və qadınların dini doktrinaların təfsirində haqlı iştirakının tərəfdarı kimi çıxış edirlər. Onlar tam bərabərliyə nail olmaqda din və imanın rolundan istifadə etməyin faydalı olacağını qəbul edirlər.

Din və gender bərabərliyi arasındakı əlaqə mürəkkəbdir. Din dünyanın bir çox yerlərində mədəni, sosial, iqtisadi və siyasi normaların formalaşmasında mühüm rol oynayır. Eynilə gender rolları, qadınların və kişilərin cəmiyyətdəki statusu, dini mətnlərin əsrlərboyu nüfuzlu vəzifələri, əsasən, kişilərin tutduğu vəzifələr kimi şərhedilmə tərzi ilə dərindən bağlıdır. Bununla belə, dini icmalarda qərar qəbuletmənin ən yüksək səviyyələrində onların nəzərəçarpacaq dərəcədə olmamasından kəskin fərqlənərək, qadınlar dini həyatda mühüm rol oynayırlar. Onlar ailə və icma daxilində dini təlim və ənənələri həyata keçirir, təcəssüm etdirir və gələcək nəsillərə ötürürlər.

Din təhsili müəssisələri uzun illərdir, gender bərabərliyi işinin müxtəlif aspektləri ilə məşğul olurlar. Genderəsaslı zorakılıq sahəsində onlar bu cür zorakılığın miqyası və geniş təsirləri haqqında məlumatlılığı artırmaq üçün çalışmışlar; onlar zorakılığın qarşısının alınması üzərində işləmiş və sağ qalanlara məsləhət, sığınacaq və hüquqi yardım kimi xidmətlər göstərmişlər. Həmçinin qadın sünnəti və uşaq evliliyi də daxil olmaqla, zərərli təcrübələri aradan qaldırmaq səylərində münasibət və davranışlara təsir göstərmək, qızların və qadınların sağlamlığı və təhlükəsizliyini

müdafiə etmək üçün institusional və icmaəsaslı dini liderlərlə işləmişlər.

Kişilərin və qadınların fərqli təbiəti onların sosial fəaliyyətinin müxtəlif təzahür formalarını əvvəlcədən müəyyən edir.

Din insan həyatının dünyəvi, təbii tərəflərinin əhəmiyyətini azaltmadan, onun bioloji mahiyyətini, sosial və mənəvi cəhətlərini vəhdətdə hesab edir – bu fikrin müasir cəmiyyət tərəfindən düzgün anlaşılması üçün din təhsilinin inkişafının, dini kitabların qadın hüquqlarını məhdudlaşdırmaması ideyası çərçivəsində təlimlərin keçirilməsinin böyük əhəmiyyəti vardır.

***Açar sözlər:*** *din təhsili, gender bərabərliyi, qadın hüquqları, dini bərabərlik, şəriət qanunları.*

## İrəvanda ilk qəza məktəbi

***f.f.d., dos. Rübabə Şirinova***
Azəbaycan Milli Elmlər Akademiyası
Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin
aparıcı elmi işçisi
Bakı, Azərbaycan
rubaba.sirinova@mail.ru
https://orcid.org/0009-0003-9470-5860

Qərbi Azərbaycan (indiki Ermənistan ərazisi) əsrlərboyu Azərbaycan xalqının zəngin elmi və mədəni irsini yaşatdığı bir məkan olub. Burada alimlər, şairlər, sənətkarlar yetişmiş, elm və mədəniyyət ocaqları fəaliyyət göstərmişdir. Zaman keçdikcə siyasi hadisələr nəticəsində bu irs təhlükə altına düşmüş, məhv edilməyə çalışılmışdır. Bu bölgədə çoxsaylı mədrəsələr, kitabxanalar və dini-elmi mərkəzlər mövcud olmuşdur. Elm və təhsil ocaqları – mədrəsələr və dini tədris mərkəzləri uzun illər boyu burada fəaliyyət göstərmişdir.

Məşhur Göy məscid (İrəvan) ətrafında fəaliyyət göstərən mədrəsə XIX əsrdə Azərbaycan türklərinin

əsas təhsil mərkəzlərindən biri idi. Burada dini və dünyəvi elmlər öyrədilir, şagirdlər klassik Azərbaycan ədəbiyyatı, tarix və fəlsəfə ilə tanış olurdular.

Azərbaycanın elm və mədəniyyət tarixinə "İrəvani" təxəllüsü ilə daxil olmuş və öz önəmli töhfələrini vermiş xeyli alimə, ədəbiyyat, mədəniyyət və incəsənət xadiminə rast gəlmək mümkündür. Mirzə Qədim İrəvani, Fazil İrəvani, Mirzə Məhəmməd İrəvani, Balağa İrəvani, Mirzə Müslüm İrəvani, Aşub İrəvani, Dəlil İrəvani, Ləli İrəvani, Əbülqasim İrəvani, Mirzə Ağası İrəvani və başqa görkəmli şəxsiyyətlərin yaradıcılığı bir daha bunu təsdiq edir. İslam alimləri arasında bu alimlərin, eləcə də adlarını çəkmədiyimiz digərlərinin isimləri hər zaman ön sırada çəkilir. Bu gün dünyanın müxtəlif ölkələrində Muğanlinski, İrəvani, İrəvanski, Makinski, Qəmərlinski, Qədimbəyov, Sultan Hüseynbəyov, Sultanov, İsmixanov, Fərəcbəyov, Mirbağırbəyov, Qazıyev, Məmmədzadə, Uluxanlı, Qazızadə, Mirbabayev və onlarca bu qəbil soyadların görkəmli nümayəndələrinin, elm, mədəniyyət, ictimai xadimlərin fəaliyyətini, yaradıcılığını araşdırmağa tam müyəssər ola bilsək, yüzcildlərlə kitab yarana bilər.

Görkəmli alim, pedaqoq, XIX əsrin sonlarında İrəvan kişi gimnaziyasında dərs demiş, böyük ədəbiyyatşünas Firidun bəy Köçərli çox haqlı olaraq İrəvanı "mərkəzi-üləma, füzəla və şüəra" şəhəri, yəni "üləmalar, fazillər və şairlər şəhəri" adlandırmışdır.

Məlumdur ki, XIX əsrin əvvəllərində Cənubi Qafqaz, o cümlədən Azərbayan xanlıqları Rusiya tərəfindən işğal olunduqdan sonra, həyatın bütün sahələri onun tərəfindən idarə olunmağa başladı. Rusiya Maarif Nazirliyi 2 avqust 1829-cu ildə "Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" qərar qəbul etdi. Həmin qərarda Zaqafqaziyada qəza məktəblərinin yaranması və ümumi təhsil sistemi ilə idarə edilməsi öz əksini tapmışdır. Həmin qərara əsasən, 1830-cu ilin dekabr ayında Şuşa Qəza Məktəbi açılmış və həmin ildə İrəvanda 100, Naxçıvanda 50, Ordubadda 50, Kulpda 50 şagirdlik qəza məktəbinin açılması da nəzərdə tutulmuşdur. Bir sıra səbəblərə görə həmin ildə adlarını qeyd etdiyimiz regionlarda qəza məktəblərinin açılması mümkün olmamışdır. İrəvanda ilk qəza məktəbinin açılması 14 yanvar 1832-ci ildə gerçəkləşmişdir.

İrəvan Qəza Məktəbinin azərbaycanlı sinfi – qrupu 1836-cı ildə fəaliyyətə başlamışdır. Həmin ildə

İrəvan Qəza Məktəbində ilk dəfə Azərbaycan dili və şəriət dərslərini əslən Dərəçiçəkdən olan Mirzə Molla Tağı Mahmud oğlu tədris etmişdir.

***Açar sözlər:*** *ərazi, əsr, xalq, elm, mədrəsə.*

# أسباب الجهل الديني من وجهة نظر علماء الإسلام وأساتذة التربية الإسلامية في الجامعات الأردنية

***محمد عيد محمد حسين قرعان***
أستاذ مساعد
جامعة العين – الأمارات العربية المتحدة
الزرقاء، الأردن
kingteacher@live.vom
https://orcid.org/0009-0002-2588-8707

***طه علي حسين حسين***
الأستاذ الدكتور
جامعة دجلة الأهلية
بغداد، العراق
kingteacher@live.vom
https://orcid.org/0009-0003-7639-5213

ستهدف الدراسة إلى معرفة أسباب الجهل الديني من وجهة نظر علماء الدين الإسلامي وأساتذة التربية الإسلامية في الأردن، وسيستخدم المنهج الوصفي المسحي، وعينة الدراسة مكونة من علماء الدين الإسلامي العاملين في وزارة الشؤون والمقدسات الإسلامية الأردنية، واساتذة من جامعة العلوم الإسلامية العالمية في الأردن، وجامعة الزرقاء الخاصة، وجامعة آل البيت والجامعة الأردنية، عام 2025، وسيستخدم المنهج الوصفي المسحي، وسوف تطبق أداة الدراسة وهي استبانة تقيس درجة أسباب الجهل الديني، بعد التأكد

من صدقها وثباتها، وسيتم عرض النتائج والتوصيات والمقترحات بعد مناقشة النتائج.

**خلفية الدراسة ومشكلتها**

إن أسباب الجهل بالدين وبغيره كثيرة ومتداخلة؛ فمن عدم تعلم القراءة والكتابة، إلى انعدام الرغبة في اكتساب المعرفة يدخل الجهل إلى عقول الناس، فتنغلق هذه العقول، ويتبنى حاملوها أفكارًا ومعتقدات غير صحيحة، وقد تكون هدامة وتخريبية. ويتأتي الجهل الديني من مخالفة القيم والمعارف والمبادئ الدينية.

إن العلم هو أساس منح الإنسان المعارف والقيم التي تساعده على تحقيق تقدمه الاجتماعي والاقتصادي، وتحرير عقله من الخرافات والبدع، واكسابه القدرة على التمييز بين الحقيقة والوهم. وعكس العلم الجبل الذي هو أصل كل الشرور، إذ يدخل الشخص في دوامة من الحيرة والعبء النفسي والذهني فيقبل بما لا ينبغي القبول به.

وإن من أسباب الجهل الديني النفاق الاجتماعي، وتفضيل الدين بحسب المكانة الاجتماعية، وشيوع الفتاوى والمسوغات المخالفة للدين، وظهور الجهل المغلف بالعالم والانبهار، وانتشار وسائل الإعلام المزيفة والتواصل الاجتماعي غير الموجه، والإيمان الأعمى.

**مشكلة البحث**

تأتي مشكلة البحث من انتشار الجهل بأمور الدين الإسلامي الحنيف وتعاليمه. فقد لاحظ الباحثان في أثناء تدريسهم مساقات أساليب تدريس التربية الإسلامية وجود بعض الأفكار المتشددة في قضايا الدين، وعدم تقبل الأفكار المخالفة للمذهب أو الرأي الذي يحمله، وأن رأيه صحيح لا يحتمل النقد، والرأي المخالف له خطأ، وينتج عن ذلك النزاع والكراهية، ولهذا الجهل أسباب كثيرة سيجري تناولها بإسهاب.

**أسئلة البحث**

ستجيب الدراسة عن السؤالين الآتيين:

1- ما أسباب الجهل الديني من وجهة نظر علماء الدين الإسلامي؟

2- ما أسباب الجهل الديني من وجهة نظر أساتذة التربية الإسلامية؟

**أهداف البحث**

ستهدف الدراسة الحالية إلى تعرف أسباب الجهل الديني من وجهة نظر علماء الدين الإسلامي وأساتذة التربية الإسلامية في الأردن.

**أهمية البحث**

للبحث أهمية نظرية تتجلى في تناوله الخلفية الفلسفية للجهل الديني، وله أيضًا أهمية تطبيقية، إذ ستفيد نتائجه مؤلفي مناهج التربية الإسلامية ومعلمي ومدرسي وأساتذة التربية الإسلامية، فضلًا عن افادة باحثين آخرين لإجراء دراسات أخرى في هذا الميدان.

**مصطلحات البحث وتعريفاتها الإجرائية**

يشمل تعريف المصطلحات تعريفًا نظريًا وإجرائيًا وهي: الجهل الديني، علماء الدين الإسلامي، أساتذة التربية الإسلامية.

**حدود البحث ومحدداتها**

سيكون هنالك حدود زمانية وبشرية ومكانية، ومحددات تتعلق بالنتائج وتعميمها في ضوء مدى صدق الأداة وثباتها.

**الفصل الثاني : الدراسات السابقة**

سيجري في هذا الجانب تناول الدراسات التي تناولت أسباب الجهل الديني أو غيره.

***الكلمات المفتاحية:*** *الجهل الديني، علماء المسلمين، وجهة النظر، أساتذة التربية الإسلامية .*

# New Paradigm of Islamic Higher Education in Indonesia

***Assoc. Prof. Jarot Wahyudi***
Faculty of Adab and Cultural Studies and
Director of the Center for Higher Education
Management (CHEM),
UIN Sunan Kalijaga,
Yogyakarta, Indonesia
jarot.wahyudi@uin-suka.ac.id
https://orcid.org/0000-0002-0022-0754

The present paper explores the evolution of Islamic Higher Education Institutions (HEIs) in Indonesia as they navigate between traditional religious values and modern educational demands. It examines their historical development, contemporary challenges, governance structures, quality assurance mechanisms, and emerging paradigms. The analysis covers how these institutions are transforming through institutional upgrades, curriculum integration, and innovative approaches to balance their Islamic identity with the needs of Indonesia's national development.

Islamic higher education in Indonesia emerged in the post-independence 1950s, initially developing separately from the mainstream national education system. While conventional universities followed Western models, Islamic institutions maintained traditional religious pedagogical approaches. Law #2/1989 marked a watershed moment, providing formal recognition and beginning their integration into the national system. Despite Indonesia having the world's largest Muslim population, Islamic HEIs face significant enrollment challenges compared to regional competitors. Many operate as institutes or colleges rather than full universities, resulting in constrained program offerings and limited ability to attract diverse students.

Islamic HEIs must maintain fidelity to their religious mandate while preparing graduates for contemporary workplaces and societal needs. Additionally, many Islamic HEIs face resource constraints limiting their ability to invest in infrastructure, technology, faculty development, and research capacity, particularly private institutions serving communities with limited economic resources. A transformative trend reshaping Indonesia's Islamic

higher education landscape is the strategic upgrading of institutes and colleges to full university status. This evolution broadens their academic scope beyond traditional religious studies to diverse programs across multiple disciplines, exemplified by the conversion of State Islamic Institutes (IAIN) to State Islamic Universities (UIN).

Indonesia has established a comprehensive quality assurance framework operating at both national and institutional levels. The National Accreditation Agency for Higher Education (BAN-PT) conducts standardized assessments, while Islamic HEIs have developed internal quality systems addressing both universal academic standards and their distinctive religious mission. Islamic HEIs are undergoing significant curriculum transformations to enhance graduate employability while maintaining core Islamic values. STEM and professional subject areas are gaining prominence, with faculties of medicine, engineering, and business now established at leading Islamic universities. This reflects a deeper intellectual project: reconceptualizing Islamic studies for broader societal impact by producing professionals

whose technical expertise is enhanced by values-based perspectives.

Islamic HEIs rely primarily on government allocations and student fees, with scholarship programs like “Bidik Misi” and the “Indonesian Endowment Fund for Education” (LPDP) expanding but still limited relative to need. Financial reform initiatives include revenue diversification through commercial enterprises, intellectual property monetization, and revitalizing traditional Islamic financial instruments like waqf (endowments). Islamic HEIs operate under a distinctive mandate to advance scientific knowledge while maintaining alignment with Islamic principles. This integration manifests through multidisciplinary programs like Islamic economics, architecture, and psychology, which synthesize religious understanding with modern disciplines. Research increasingly addresses contemporary challenges through approaches informed by both scientific methodologies and Islamic perspectives.

The future of Islamic higher education in Indonesia depends on demonstrating relevance to students seeking meaningful education, communities looking for ethical leadership, employers requiring

skilled graduates, and a nation pursuing both economic advancement and cultural authenticity.

***Keywords:*** *New Paradigm, Islamic Higher Education, Modern, Institutional Development, Transformation.*

## Dinin rəqəmsal aləmə transformasiyası barədə

***i.f.d. Mehman İsmayılov***
Bakı İlahiyyat Kollecinin direktoru
Bakı, Azərbaycan
mehman_78@hotmail.com
https://orcid.org/0000-0003-1622-3594

Kompüter şəbəkələri ilə dini təlimlərin qovuşması 1970-ci illərin sonlarına təsadüf edir. Kristensen və Randi Sues tərəfindən 1978-ci ildə həyata keçirilən "CommuniTree" adlı forumun bir hissəsi hesab edilən "Bulletin Board System" (BBS) virtual platformalarda dini fikirlərin müzakirəyə çıxarıldığı ilk mühit olmuşdur. Onlayn diniyönümlü ilk fəaliyyət kimi qəbul edə biləcəyimiz BBS müzakirə sahələrindən biri olan "Create your own religion / Öz dinini yarat", istifadəçilərin öz dinlərini digər istifadəçilərə təqdim etdikləri, dini mövzuları müzakirə etdikləri əhəmiyyətli bir platforma olan "ORIGINS", müxtəlif din mənsublarının heç bir məhdudiyyət olmadan dini mövzularda fikirlərini sərbəst şəkildə yaza bilmələrini təmin etmişdir. Müsəlmanlar da bu məsələdən kənar qalmamışlar. İlk dəfə Amerikada yaşayan müsəlman tələbələr "İsna" adlanan qurum yaratmışlar.

Yeni medianın müxtəlif şəkillərdəki təzahürləri, rəqəmsal texnologiyalardakı yeniliklər nəticəsində din ilə qarşılıqlı əlaqələr daha da artmış və nəticədə, yeni qavramlar ortaya çıxmışdır. Bunların başında gələnlərdən biri "rəqəmsal din" ifadəsidir. Rəqəmsal din "virtual din" və "online religion/religion online" ifadələrini də öz əhatəsi dairəsinə alaraq, rəqəmsal media vasitəsilə ortaya çıxan dini ifadə edir.

Rabitə texnologiyalarının inkişafı dini inancların, dini tədrisin və dini ritualların bu texnologiyalar vasitəsilə yayılmasına geniş şərait yaradıb. Bu prosesə təsir edən əsas iki amildir: birincisi, rabitə texnologiyalarının inkişafı və rəqəmsallaşma nəticəsində dinin praktiki yönünün bunlar vasitəsilə getdikcə yayılmasıdır. Meqakilsələr, digər meqaibadətxanalar, onlayn moizələr bunun əyani təzahürüdür. İkincisi isə sekulyar mediada "ibadət, ritual, inanc, camaat" kimi dini terminlərin istifadəsinin çoxalmasıdır.

Dinin rəqəmsal aləmə transformasiyası həm müsbət, həm də mənfi nəticələrə gətirib-çıxarmışdır. Hər şeydən əvvəl rəqəmsal mühit əvvəl dini maariflənməyə geniş imkanlar və əlçatanlılıq yaradır. İstənilən vaxt, istənilən yerdən dini təhsilə çıxış imkanı

əldə edirik. Bundan başqa, rəqəmsal media dini təbliğat və tədrisdə yeni cəlbedici metodların tətbiqinə imkan verir.

Rəqəmsal aləmdəki interaktiv mühit din mövzularının daha interaktiv şəkildə izahına və müzakirəsinə fürsət yaradır. Din sahəsindəki nüfuzlu alimlərə daha asan şəkildə çıxış əldə etmək də rəqəmsal mühitin üstünlüklərindən hesab olunur.

Bütün bunlarla yanaşı, dinin rəqəmsal aləmə transformasiyası ilə bağlı tənqidlər də çoxdur. Tənqidlərdən biri belədir ki, rəqəmsal dövrdə din, bir inanc olaraq, dini praktikalarla yaşanmaq əvəzinə, nümayişkaranə şəkildə istehlak olunmağa başlamşdır. Dini məsələlər mediaya uyğunlaşdırılaraq bir qəlibə salınmış və təhrif edilmiş, nəticədə isə süni din görüntüsü ortaya çıxmışdır.

Bu mövzuda səslənən digər tənqid isə belədir: ənənəvi yanaşmada doğru dini bilik əldə etməyin yolu bu sahədə mütəxəssis hesab edilən və əməli bütövlüyə sahib olan alimlərə müraciət etməkdir (fətva). Məlumatların sərbəst şəkildə yayıldığı, kimliklərin avatarlarla əvəz olunduğu virtual mühitdə isə hər kəs öz-özünün alimidir.

Belə ki, dini məlumatların bu qədər əlçatan olması dini qurumların nüfuzunu zəiflətmişdir. Ənənəvi

dini diskurs, adətən, hamının dini sahədə nüfuzlu hesab etdiyi şəxslər tərəfindən formalaşdırıldığı halda, onlayn spontan dini diskursa çox vaxt bu sahədə heç bir təhsili olmayan istifadəçilər töhfə verirlər.

Din dəyərlərə hörmət, müqəddəslərə sayğının azalması da rəqəmsal dini mühitə olan tənqidlərin siyahısına daxildir. Məsələn, ənənəvi dini diskursda Qurani-Kərim oxuyarkən dəstəmazlı olmaq, uzanaraq oxumamaq kimi ədəb qaydaları mövcuddur. Virtual mühitdə Qurani-Kərim oxuyarkən bu qaydalara riayət olunmasına dair zərurət hiss edilmir və s.

Bu mövzuda əsas tənqidlərdən biri də vaizlərlə bağlıdır. Hər hansı bir ənənənin, teologiyanın və mənəvi mühitin olmadığı, ancaq dini görüntü verən dini proqramlarda, bəzən, vaizlər izləyici sayını artırmaq üçün moizələrin məzmununu uyğunlaşdırmağa çalışırlar. Sosial medianın belə bir qızıl qaydası mövcuddur: izləyici sayını artırmaq yalnız onların görmək istədiklərini təqdim etməklə mümkündür.

Dinin rəqəmsal mühitə transformasiyası məsələsinin müsbət və mənfi cəhətlərini daha da çoxaltmaq olar. Bir məsələni unutmamalıyıq ki, “rəqəmsal din” reallığını istəsək də, istəməsək də qəbul etməliyik. Təbii ki, bu sahənin tənzimlənməsi

vacibdir və düşünürəm, gələcəkdə yuxarıda sadalanan və sadalanmayan problemləri də əhatə edəcək mühüm addımlar atılacaqdır. Ənənəvi metodları qoruyub-saxlamaq artıq mümkün deyildir. Onları günümüzün tələbləri istiqamətində yeniləmək mümkündür.

***Açar sözlər:*** *rabitə texnologiyaları, rəqəmsal din, ənənəvi din, virtual camaat, dini mənbələr.*

# Cümhuriyyətin quruluşundan günümüzədək Türkiyədə din təhsili təcrübəsi

***f.f.d. Şahin Xancanov***
Şəki İslam Kollecinin
direktor müavini
Şəki, Azərbaycan
sahin_xancanov@hotmail.com
https://orcid.org/0000-0001-7858-928X

Dünyada müxtəlif din təhsili modellərinin formalaşması tarixi, ictimai və hüquqi şəraitin təsiri ilə fərqli istiqamətlərdə inkişaf etmişdir. Bu modellərin öyrənilməsi, xüsusilə də din təhsilinin ictimai sabitlik, dini müxtəlifliklə vəhdət kontekstində yaşama mədəniyyətinin təşviqi və radikalizmin qarşısının alınması kimi aktual problemlərlə birbaşa əlaqəsinin götürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Müxtəlif ölkələrin təcrübələrinin müqayisəli şəkildə təhlili ölkəmizdə din təhsili sahəsində aparılan müzakirələr və qarşıya çıxan problemlərin daha dərindən anlaşılması və onlara uyğun effektiv həll yollarının hazırlanması üçün zəngin təcrübə qaynağı rolunu oynaya bilər.

Bu kontekstdə, xüsusilə Türkiyə Cümhuriyyətinin din təhsili sahəsindəki tarixi inkişafı və müasir təcrübəsi diqqətəlayiqdir. Türkiyə ilə Azərbaycan arasında mövcud olan ortaq tarixi-mədəni irs, dini dünyagörüşü və strateji əməkdaşlıq Türkiyənin din təhsili sahəsindəki modelini ölkəmiz üçün daha aktual və nümunəvi hala gətirir. Türkiyənin din təhsili təcrübəsi yalnız müasir Cümhuriyyət dövrü ilə məhdudlaşmır, eyni zamanda, Osmanlı İmperiyası və ondanəvvəlki türk–İslam dövlətlərinin köklü din təhsili ənənələrini də özündə ehtiva edir. Bu baxımdan, Türkiyənin həm ənənəvi din təhsili irsi, həm də müasir dövrdə dövlət və cəmiyyət arasında din təhsilinin idarə olunması sahəsində ortaya qoyduğu modellər din–dövlət münasibətlərinin tənzimlənməsi baxımından olduqca maraqlıdır.

Bu məqalədə Türkiyə Cümhuriyyətinin quruluşundan etibarən, günümüzəqədərki dövrdə din təhsilinin keçdiyi mərhələlər, bu sahədə fəaliyyət göstərən dövlət və qeyri-dövlət qurumları, tətbiq olunan tədris proqramları və bu sənədlərin əsas istiqamətləri ətraflı şəkildə təhlil ediləcəkdir. Məqalə rəsmi dövlət sisteminə daxil olan din təhsili qurumlarını (məsələn, ilahiy-

yat fakültələri, imam xətib liseyləri və dövlət məktəblərində tədris edilən din dərsləri), qeyri-formal din təhsili formalarını (xüsusilə Dəyanət İşləri Başqanlığının nəzdində fəaliyyət göstərən Quran kursları və digər dini maarifləndirmə fəaliyyətlərini) əhatə edəcəkdir. Hər bir qurum və proqram müstəqil bölmələrdə təhlil olunacaq, onların tarixi fonu, hüquqi statusu, tədris proqramlarının məzmunu və cəmiyyət tərəfindən qəbul forması dəyərləndiriləcəkdir.

Məqalədə, eyni zamanda, Türkiyənin din təhsili sisteminin qarşılaşdığı problemlər, bu məsələlərə qarşı tətbiq olunan siyasətlər və əldə olunan nəticələr də təhlil ediləcəkdir. Xüsusilə müasir dövrdə dünyəvi dövlət prinsipləri ilə din təhsilinin uzlaşdırılması yönündə atılan addımlar və həmin proseslərin cəmiyyətə təsirləri ayrıca dəyərləndiriləcəkdir.

Məqalənin nəticə hissəsində isə Türkiyənin din təhsili ümumilikdə, qiymətləndirilərək, Azərbaycan kontekstində bu təcrübənin hansı aspektlərinin uyğunlaşdırıla biləcəyi, hansı sahələrdə faydalı ola biləcəyi, ölkəmizdəki din təhsilinin inkişafına necə töhfə verə biləcəyi ilə bağlı konkret təkliflər irəli sürüləcəkdir.

Beləliklə, tədqiqat nəzəri, praktik baxımdan Türkiyə nümunəsi üzərindən Azərbaycan üçün din təhsili

sahəsində faydalı ola biləcək yeni baxış bucaqları təqdim etməyi hədəfləyir.

***Açar sözlər:*** *din təhsili, Azərbaycan, Türkiyə, din təhsili modelləri, Türkiyədə din təhsili.*

# Din təhsilində süni intellektin tətbiqi: pedaqoji və etik yanaşmalar

***f.f.d. Faiq Əhmədzadə***
Bakı İlahiyyat Kollecinin direktor müavini,
Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq
kafedrasının müəllimi
Bakı, Azərbaycan
faig1071@gmail.com
https://orcid.org/0000-0003-4921-2517

Müasir dövrdə texnologiyanın sürətli inkişafı təhsil sahəsində olduğu kimi, din təhsili üzərində də dərin izlər buraxır. Bu dəyişikliyin əsas hərəkətverici qüvvələrindən biri olan süni intellekt öyrənmə proseslərini yenidən formalaşdıraraq, ənənəvi tədris metodları üzərində bir daha düşünməyə vadar edir. Dəyərlərə əsaslanan və mədəni kökləri dərin olan din təhsilinin süni intellektlə inteqrasiyası həm pedaqoji, həm də etik baxımdan diqqətlə araşdırılmalıdır. Bu nöqteyi-nəzərdən süni intellektin din təhsilində istifadəsi pedaqoji imkanlar və etik risklər çərçivəsində təhlil edilməlidir.

Süni intellektin dinə və onun tədrisindəki roluna, əsasən, üç anlayış yönü ilə yanaşmaq daha məqsədəuyğundur:

– əqidənin intellektual və elmi yanaşmalarla açıqlanması;
– əxlaqi və mənəvi dəyərlərin dini harmoniya müstəvisində mənimsənilməsi;
– süni intellektin dini açıqlamalarının cəmiyyətin ənənəsi və konyukturasına uyğunluğu.

Hər üç məsələ din təhsilində süni intellektin tətbiqi mövzusunda mübahisə doğurmuşdur.

Pedaqoji baxımdan süni intellekt din təhsilinə yeni imkanlar gətirir. Tələbələrin fərdi öyrənmə tərzinə uyğunlaşdırılmış məzmunlar təqdim edən sistemlər abstrakt dini anlayışların daha asan qavranılmasına kömək edə bilər. Süni intellekt əsaslı virtual müəllimlər və çatbotlar tələbələrin dini mövzulardakı suallara tez və sistemli cavab verərək, öyrənmə prosesini dəstəkləyə bilər. Bu, materialların hədsiz çoxluğundan və hər mövzuya sirayətetmənin daha asan şəkildə əlçatan olmasından irəli gəlir. Müqəddəs hesab edilən dini mətnlərin rəqəmsal şəkildə müqayisəsi, təhlili tələbələrin bu mətnlərin tarixi və məzmun kontekstini daha dərindən anlamasına şərait yaradır. Həmçinin tələbənin bu mətnləri təhlil etmək qabiliyyətinin

inkişafına köməklik göstərir. Bundan başqa, məsafədən təhsil imkanlarının inkişafı dini biliklərin daha geniş auditoriyaya çatdırılmasını asanlaşdırır.

Qeyd edilən bu müsbət tərəflərlə yanaşı, süni intellektin din təhsilinə inteqrasiyası ciddi etik sualları gündəmə gətirir. Dini bilik, sadəcə, məlumatdan ibarət deyil, həm də müqəddəs, izah tələb edən və cəmiyyətin kontekstində formalaşan bir dəyərdir. Belə olduğu halda, süni intellektin dini suallara verdiyi cavabların hansı mənbəyə əsaslandığı, kimlərin fikrini əks etdirdiyi və nə qədər etibarlı olduğu məsələsi vacibdir. Üstəlik, din təhsili yalnız məlumat ötürmək deyil, həm də əxlaqi tərbiyə, dəyərformalaşdırma və mənəviyönəltmə kimi funksiyaları da özündə birləşdirir. Məsələn, ədalət, mərhəmət və dürüstlük kimi dini əxlaqi prinsiplər haqqında qərarların müxtəlifliyi xeyli mübahisə doğura bilər. Eyni zamanda, dini və milli ənənənin bir-biri ilə bağlantılı şəkildə dəyərləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Süni intellektin bu kimi mənəvi komponentlərə necə yanaşacağı hələ də qeyri-müəyyəndir. Həmçinin müəllim–tələbə münasibətinin alqoritmlərlə əvəz olunması din təhsilindəki sosial bağları zəiflədə bilər; müqəddəs mətnlərin mexaniki şəkildə təfsir olunması isə onların mənasının təhrif edilməsinə səbəb ola

bilər. Bununla yanaşı, dini inanc və təlimlərin ticarиləşmə riski də ortaya çıxır. Bu səbəbdən, süni intellekt din təhsilində məqsəd kimi deyil, vasitə kimi istifadə edilməlidir.

Nəticə etibarilə, süni intellekt din təhsilinə pedaqoji baxımdan rəngarənglik və əlçatanlılıq qazandırsa da, onun istifadəsi məsuliyyətli və etik çərçivədə aparılmalıdır. Bu texnologiyanın sağlam şəkildə tədrisə inteqrasiyası üçün həm din alimlərinin, həm də texnoloji mütəxəssislərin əməkdaşlığı zəruridir. Dini dəyərlərin qorunması ilə yanaşı, keyfiyyətli öyrənməni təmin edən etik və şəffaf texnologiyadan istifadə gələcəyin təhsil modelinin əsasını təşkil edə bilər.

***Açar sözlər:*** *süni intellekt, ənənəvi din təhsili, etik risklər, rəqəmsal müqəddəs mətnlər, alqoritmik tədris, din təhsili.*

# İnformal dini maarifləndirmənin əhəmiyyəti

***s.f.d. Elnur Əzimli***
Azərbaycan İlahiyyat İnstitutu
Dinşünaslıq kafedrasının müəllimi
Qala məscidinin imamı
Bakı, Azərbaycan
elnurazimli@ait.edu.az
https://orcid.org/0000-0002-9447-2900

Din cəmiyyətdə hər zaman var olan fərdi və ictimai funksiyalar həyata keçirən bir fenomendir. Din həyatın bir çox sahəsinə təsir etməklə yanaşı, sosial nəzarət funksiyasını da yerinə yetirir, insanlara cəmiyyət, mədəniyyət və dünya haqqında təsəvvürlər və dünyagörüşü aşılayır. Bu səbəbdən, bütün cəmiyyət və dövlətlərdə idarəetmə ilə din arasında sıx əlaqələr mövcud olmuşdur.

Modern dövrdə dövlətlərin əksəriyyəti sekulyar olsa da, dövlətlər vətəndaşlarını, yad və təhlükəli təsirlərdə qalmasınlar deyə, dini baxımdan maarifləndirmə işini öz öhdəsinə götürür, beləcə, vətəndaşlarına ənənəvi üsullara əsaslanan və xalqın mədəniyyəti ilə çulğalaşmış formada din təhsili verməyə çalışır. Eyni zamanda, dövlət ibadət yerlərinə

din adamları təyin edir və onların fəaliyyətinə göz qoyur. Dövlət tərəfindən təyin olunmuş din nümayəndələrini “rəsmi din adamları” da adlandıra bilərik.

Din xadimləri fərdin və cəmiyyətin həyatına təsir etməyə çalışması, onlara, bir növ, mənəvi liderlik etməsi səbəbindən, xalq arasında müəyyən qədər iqtidara sahib olmalıdır. Maks Veberin ifadəsi ilə desək, din adamları cəmiyyətdə xarizmatik iqtidara malik olmalıdır. Rəsmi din xadimləri dövlət tərəfindən təyin olunduğu üçün daha çox rasional-leqal iqtidara malikdirlər. Bu da onların bir dövlət məmuru kimi davranmasına və qəbul edilməsinə səbəb olur. Belə vəziyyət bir çox hallarda onların mənəvi bağ yaratmalı olan xarizmatik iqtidarının azalmasına və ya tamamilə ortadan qalxmasına səbəb olur.

Dindar insanlar informal din adamları timsalında xarizmatik liderlərə yönəlirlər. Xarizmatik liderlik, dini baxımdan, ən güclü və təsirli iqtidar növü hesab olunur. İnformal dini qruplar heç bir dünyəvi gücə bağlı deyillər, siyasi məqsədləri yoxdur və tək vəzifələri dini mətnləri ən doğru şəkildə izah etməkdir ki, bunu da insanlara aşılayırlar. Bu səbəbdən də onlar dini maarifləndirmə sahəsində önəmli yer tuturlar.

Müasir dövrümüzdə bir çox ölkələrdə informal din adamlarının və ya dini qrupların dindarlar arasında

şöhrətinin, güvənirliliyinin daha çox olduğunu müşahidə edirik. Dini maarifləndirmə sahəsində önəmli yer tutan informal dini qrup və şəxslər cəmiyyətin sabitliyi baxımından təhlükə mənbəyi ola bilərlər. Eyni zamanda, informal din adamları yetişdikləri dövlətə və ya onları hazırlayan dini qrupa daha çox bağlı olurlar. Bu vəziyyət sosial nəzarət baxımından ciddi problemlər ortaya çıxarır. Xüsusən radikaldüşüncəli qrupların dini maarifləndirmə işində aktiv olmaları və özlərinə tərəfdarlar toplamalarının dövlətin və cəmiyyətin təhlükəsizliyi baxımından riskli bir vəziyyət yaradacağını söyləyə bilərik.

Dövlətlər belə informal dini qrupların fəaliyyətinə nəzarət etməyə və onların dini maarifləndirmə işinin qarşısını almağa çalışırlar. Bu qadağalar hər zaman effektiv olmur. İnformal dini qruplar mümkün sayılan hər cür vasitələrdən istifadə edir, yeni tərəfdarlar qazanmaq üçün dini maarifləndirmə işi ilə məşğul olurlar. Dövlətin məmurtipli rəsmi din xadimləri informal din xadimlərinin planlı və sistemli fəaliyyəti qarşısında çox zəif görünür. Digər tərəfdən, dövlətin inzibati tədbirlərlə ideoloji bir hərəkatın qarşısını alması, onun potensial təhlükələrini minimuma endirməsi müasir dövrümüzdə, demək olar ki, qeyri-mümkündür. Bu problemə qarşı ideoloji mübarizə aparmaqdan ötrü dövlət

özü ənənəvi dini düşüncəyə bağlı, xarizmatik liderlik xüsusiyyəti olan informal din adamları yetişdirmək üçün səy göstərməlidir. Bu, əhəmiyyətli bir məsələdir. Bununla yanaşı, dövlət cəmiyyətin ənənəvi dini düşüncəsinə bağlı olan elmli din adamlarını qeyri-rəsmi şəkildə təşkilatlandırıb maarifləndirmə işinə cəlb etməli, cəmiyyət üçün təhlükəli hesab olunan qeyri-ənənəvi qruplara qarşı ideoloji mübarizə aparmalıdır.

Araşdırma çərçivəsində müasir dövrdə informal dini maarifləndirmənin effektivliyi və bu sahədə dövlət nəzarətinin əhəmiyyəti tədqiq olunacaqdır.

***Açar sözlər**: dini maarifləndirmə, din xadimləri, xarizmatik iqtidar, informal din adamları, dövlət nəzarəti.*

## Din təhsilində mənəvi rəhbərlik: mürşid və mürid modeli

***f.f.d. Qadir Səfərov***
Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Din və ictimai fikir şöbəsinin aparıcı elmi işçisi
Bakı, Azərbaycan
qadirseferov0707@gmail.com
https://orcid.org/0000-0002-8976-1986

İslamın əxlaqda gözəllik, dözümlülük, mərhəmət və kamil şəxsiyyətə sahib olmaq kimi əsas xüsusiyyətlərini ön plana çıxaran təsəvvüfün din təhsili xidmətlərində istifadə olunması müsəlmanların daha effektiv və səmərəli şəkildə tərbiyə olunmalarına kömək edəcək, qeyri-müsəlmanların İslama olan münasibətini müsbət istiqamətdə dəyişdirəcəkdir.

Bu baxımdan, dini ənənənin nəsildən-nəslə ötürülməsində təsvvüfün təlim-tərbiyyə metodunun öyrənilməsi hər zaman aktualdır. Ümumilikdə, dini-mənəvi təlim baxımından təsəvvüf öz-özlüyündə bir metoddur. Onun məqsədi seyri-süluk (mənəvi səyahət) metodu vasitəsilə insanın mənəvi təkamülünü tamamlamaqdır.

Daxili aləmi ziddiyyətlərlə mövcud olan insan təhsil və təlim yolu ilə kamala çatarsa, kamil insan, əgər nəfsinin ardınca gedərsə, azğın insan ola bilər. Belə ki, Qurani-Kərimdə buyurulur: “And olsun nəfsə və onu yaradana (ona biçim verənə). Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır (Quran, 91/7-10)”.

Təsəvvüfdəki mənəvi təlim və ya din təhsili insanın fərdi və mənəvi inkişafını təmin etmək məqsədi daşıyır. Ona görə də bu iki sahənin mövzusu, bütövlükdə, insan və onun tərbiyəsidir.

Bu mənəvi tərbiyə metodunun əsas struktural komponentlərindən birini də mürid–mürşid əlaqələri təşkil edir. Təsəvvüfi tərbiyə prosesinə daxil olan müridin bu yolda inkişaf etməsi üçün zəruri şəkildə kamil bir mürşidə tabe olması tələb edilir. Bu prosesdə mürşidsiz, fərdi şəkildə mənəvi mərhələləri keçərək kamilliyə çatmaq qeyri-mümkün sayılır. Necə ki, bir müəllimin rəhbərliyi olmadan məktəbi bitirib diplom almaq mümkün deyilsə, eləcə də kamil bir mürşidin rəhbərliyi olmadan təsəvvüfi tərbiyə prosesinin tamamlanması mümkün deyildir.

Təsəvvüfi düşüncədə Həzrət Məhəmmədlə səhabələri arasındakı mənəvi rabitə mürşid–mürid münasibətlərinin ideal modeli kimi təqdim olunur. Bu çərçivədə mürşid dini və sufi prinsipləri yaşayaraq və yaşadaraq müridlərinə mənəvi rəhbərlik edən şəxsdir. Mürşid müridlərinə, bir tərəfdən, şifahi yolla, digər tərəfdən, əməli nümunələrlə əsas prinsiplərin həyatda necə tətbiq olunacağını öyrədir və göstərir. Mürid isə bu yolda müəyyən qaydalara və ədəb çərçivəsinə əməl etmək öhdəliyi daşıyır.

Bu səbəbdən, klassik təsəvvüf mənbələrində həm mürşiddə olması zəruri hesab edilən xüsusiyyətlər, həm də müridin mürşidinə qarşı göstərməli olduğu davranış qaydaları geniş şəkildə göstərilmiş, bununla da möhkəm bir mürşid–mürid münasibətlərinin əsasları qoyulmuşdur.

Məqalədə din təhsili təsəvvüfi təlim prosesində mürid ilə mürşid arasındakı münasibətlər zəminində təhlil edilmişdir. Bu kontekstdə, aşağıdakı məsələlərə diqqət yetiriləcəkdir: mürşiddə olması vacib sayılan xüsusiyyətlər; müridin mürşidi ilə münasibətində riayət etməli olduğu ədəb qaydaları; mürşid–mürid münasibətlərində mənəvi bağın mahiyyəti, mürşidlə görüşmək, söhbət etmək və s.

Nəticə etibarilə, mürid–mürşid münasibətləri təsəvvüfi təlim ənənəsindəki funksional və nəzəri əhəmiyyəti baxımından konkret və sistemli yanaşma ilə ortaya qoyulmuşdur.

***Açar sözlər:*** *din, təsəvvüf, din təhsili, təlim, tərbiyə, mürid, mürşid.*

## Dini tolerantlıq və multikulturalizmin təməlində Heydər Əliyev siyasəti

***fil.f.d. Elnurə Babayeva***
Azərbaycan Milli Elmlər Akademiyası
Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutu Multidissiplinar əlyazmaların
tədqiqi şöbəsinin müdiri
Bakı, Azərbaycan
elnure1430@gmail.com
https://orcid.org/0009-0004-3231-4116

Azərbaycan tarixən dini tolerantlıq və multikulturalizm prinsiplərinə əsaslanan bir cəmiyyət olmuşdur. Bu ənənənin müasir mərhələdə qorunub-saxlanılması və inkişaf etdirilməsi Ulu Öndər Heydər Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti ilə birbaşa bağlıdır. Heydər Əliyev bu istiqamətdə Azərbaycan Respublikasının müasir tarixində dövlətçilik, ictimai harmoniya və milli birliyin əsas memarlarından biri kimi çıxış etmişdir. Ulu Öndərin hakimiyyəti dövründə əsası qoyulan tolerantlıq və multikulturalizm siyasəti Azərbaycan cəmiyyətinin dayanıqlılıq və birlik rəmzlərindən biridir. O, xalqın mədəni fərqliliyini və dini müxtəlifliyini dövlətin güc mənbəyi kimi

dəyərləndirmiş və bu dəyərlərin qorunması üçün siyasi, hüquqi və mədəni zəmin yaratmışdır.

Heydər Əliyevin tolerantlıq siyasətinin əsas prinsipləri bundan idarətdir ki, o, Azərbaycanda yaşayan müxtəlif dini və etnik qrupların hüquqlarını qorumağı, onların cəmiyyətə inteqrasiyasını və mədəni fərqliliyi təşviq etməsini dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Təsadüfü deyil ki, o, daim vurğulayırdı:

“Azərbaycan xalqı hər zaman müxtəlif millətlərin nümayəndələrinə hörmətlə yanaşıb və bu bizim ən böyük sərvətlərimizdən biridir”. Məhz bu prinsipə uyğun olaraq Heydər Əliyev dini azadlıqları konstitusion əsasda təsbit edir, məscidlərin, kilsələrin və sinaqoqların fəaliyyətinə şərait yaradır, din xadimləri və dini icmalarla mütəmadi görüşlər keçirərək dialoqa önəm verirdi. Dinlər arasında nifaqa deyil, dialoqa ehtiyac olduğunu hər zaman prinsip kimi irəli sürən Ulu Öndər, Azərbaycanda bütün dini konfessiyalara bərabər münasibətin təmin edilməsini dövlət siyasətinə çevirmişdir.

Heydər Əliyev siyasətində milli və dini azlıqlara qarşı ayrı-seçkiliyin olmaması, hər işdə onların hüquqlarının qorunmasını təmin edən bir siyasi mühit

yaratması, multikulturalizmin dövlət siyasətinə çevrilməsi ilə nəticələnmişdir. Heydər Əliyevin rəhbərliyi ilə müxtəlif xalqların və etnik qrupların mədəni irsinə hörmət, onların adət-ənənələrinin qorunması isə dövlətin əsas vəzifələrindən biri kimi müəyyən edilmişdir. Həmçinin mədəni fərqlilik cəmiyyətin inkişafı üçün zənginlik kimi qəbul olunmuşdur.

Ulu Öndərin təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsi ilə əməkdaşlıq gücləndirilmiş, Rus pravoslav kilsəsi, Dağ yəhudiləri sinaqoqu kimi dini mərkəzlərin fəaliyyəti bərpa olunmuşdur. Etnik və dini müxtəlifliyi əks etdirən tədbirlərə dövlət dəstəyi verilmiş, 1990-cı illərdə qəbul edilmiş konstitusiya və qanunlarda dini azlıqların təminatı, dini icmaların fəaliyyəti üçün hüquqi baza yaradılmışdır. Məhz bu siyasət nəticəsində, Azərbaycanda xristian, yəhudi, alban-udi və digər dini konfessiyaların nümayəndələri sülh və qarşılıqlı hörmət şəraitində yaşamaqdadır. Heydər Əliyevin uzaqgörən siyasəti Azərbaycanda dini zəmində qarşıdurmaların qarşısını almış və harmonik birgəyaşayış təmin olunmuşdur.

Heydər Əliyevin tolerantlıq və multikulturalizm siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun ideyaları əsasında 2016-cı il “Multikultu-

ralizm ili" elan edilmiş və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Başqa sözlə desək, Heydər Əliyevin qurucusu olduğu tolerantlıq və multikulturalizm modeli Azərbaycan Respublikasının dövlət siyasətində öz əksini tapır. Ulu Öndərin müəyyən etdiyi strateji xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan bu sahədə dünya miqyasında nümunəvi ölkə kimi tanınır.

Bir sözlə, Heydər Əliyevin siyasəti ölkə daxilində sabitlik, vətəndaş həmrəyliyi və beynəlxalq nüfuzun artmasında mühüm rol oynamışdır.

***Açar sözlər:*** *Heydər Əliyev siyasəti, dini tolerantlıq, multikulturalizm, milli birlik, ölkədaxili sabitlik, vətəndaş həmrəyliyi.*

## Azərbaycanda dövlət–din münasibətlərinin tənzimlənməsi: Ulu Öndər Heydər Əliyevin rolu

***sən.f.d. Aynur İsrafilova***
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi,
baş məsləhətçi
Bakı, Azərbaycan
aynurisr@gmail.com
https://orcid.org/0009-0001-4093-0494

Azərbaycan xalqı tarixən zəngin mədəniyyətə, dərin mənəviyyata və müxtəlif dini inanclara sahib olmuşdur. Bu mənəvi zənginlik xalqın kimliyini və mədəni özünüdərkinin formalaşmasında mühüm rol oynamışdır. Milli-mənəvi dəyərlər əsrlərboyu Azərbaycan xalqının birliyinin, dözümlülüyünün və həmrəyliyinin təməl sütunlarından olmuşdur.

Müstəqillik əldə edildikdən sonra, ölkədə din sahəsində bir sıra yeni çağırışlar meydana çıxdı. Xüsusilə 1990-cı illərin əvvəllərində dini sahədə hüquqi tənzimlənmələrin olmaması müxtəlif xarici dini ideologiyaların təsir imkanlarını artırdı. Bu dövrdə dövlət-din münasibətlərinin düzgün şəkildə tənzimlənməsi üçün möhkəm hüquqi və institusional əsasların yaradılmasına böyük ehtiyac yarandı.

aktif katılım sağlayabilmektedir. Diğer taraftan dijital dönüşüm dikkat edilmesi gereken birçok sakıncayı da beraberinde getirmektedir. İçeriklerin güvenirliği, yaş gruplarına uygunluğu, ekran bağımlılığı, dikkat dağınıklığı, öğrenmenin yüzeyselleşmesi, teknolojik altyapı eksiklikleri, velilerin bilinç düzeyleri uygulanacak eğitimin sonuçlarına etki edecek faktörlerdendir.

Sonuç olarak bu araştırmada; Cumhuriyet döneminden günümüze çocuklara yönelik yaygın din eğitimi faaliyetlerinde uygulanan geleneksel ve dijital yöntemler karşılaştırılmalı olarak değerlendirilmektedir. Çalışma sonucunda, geleneksel metotlar ve dijital platformların öğrenme sürecine katkılarından hareketle hibrit (karma) bir modelin uygulanabilirliği, sağladığı avantajları veya muhtemel tehditleri ele alınmıştır. Bu çerçevede her iki ülke din eğitimine öneriler sunulacaktır.

***Anahtar Kelimeler:*** *Din Eğitimi, Yaygın Din Eğitimi, Diyanet İşleri Başkanlığı, Dijitalleşme, Yapay Zeka.*

## Norveçdə medianın transformasiyası kontekstində din və din təhsili

***t.f.d. Bəyim Abdulla***
Azərbaycan Dillər Universiteti
Qərb ölkələri üzrə regionşünaslıq
kafedrasının baş müəllimi
Bakı, Azərbaycan
bayim.abdulla@gmail.com
https://orcid.org/0000-0001-5694-0358

İnformasiya-kommunikasiya texnologiyalarında XXI əsrin əvvəllərindən etibarən baş verən sürətli dəyişikliklər dinin ictimai məkanda ifadə formalarını və dindarların öz inanclarını paylaşma yollarını köklü şəkildə dəyişdirdi. Xüsusilə sosial medianın yüksəlişi, dini təcrübələrin yalnız məscid, kilsə və ya sinaqoqlarda məhdudlaşmamasına, əksinə, virtual platformalarda yeni bir "dini ictimaiyyət"in formalaşmasına zəmin yaratdı.

Sosial media – "Facebook", "YouTube", "Instagram", "TikTok" və "X" (əvvəlki "Twitter") qəbil platformalar – fərdlərə və dini təşkilatlara inanclarını ifadə etmək, ictimai debatlara qatılmaq, təbliğat aparmaq və dini təhsil vermək üçün geniş imkanlar yaradır. Bu

platformalar ənənəvi dini liderlərin, eləcə də qeyri-rəsmi dini influenserlərin meydana çıxmasına şərait yaradır.

Eyni zamanda, sosial medianın dinlə əlaqəsində müəyyən paradokslar mövcuddur: bir tərəfdən, bu platformalar dini plüralizmi və ifadə azadlığını gücləndirir, digər tərəfdən, dezinformasiyanın, dini qütbləşmənin və radikallaşmanın yayılmasına səbəb olur.

Norveç kimi yüksək texnologiyalaşmış, sekulyar cəmiyyətlərdə isə bu dinamiklik xüsusi maraq doğurur. Belə ölkələrdə sosial media gənc nəslin dini mövzularla ilk və bəzən, yeganə qarşılaşma məkanı kimi çıxış edir. Bununla yanaşı, dini azlıqlar üçün də sosial media öz mədəni və dini identikliyini qorumaq, paylaşmaq və geniş ictimaiyyətə tanıtmaq üçün mühüm vasitəyə çevrilib.

Norveçdə din təhsili istər dövlət məktəblərində formal olaraq, istərsə də ictimai mediada qeyri-formal yollarla təqdim olunur. Ənənəvi media vasitələri – xüsusilə NRK (Norveçin dövlət yayım şirkəti) – dinlə bağlı maarifləndirici verilişlər və xristian dini mərasimlərinin canlı yayımları ilə hələ də ictimai rolunu qoruyur. Məsələn, NRK P1 radiosunda hər bazar günü kilsə ayini yayımlanır. Eyni zamanda, xristianyönümlü

qəzet olan “Vårt Land” müxtəlif dinlərə dair müasir sosial debatlara geniş yer ayırır.

Dövlət məktəblərində isə KRLE fənni vasitəsilə şagirdlər Xristianlıqla yanaşı, İslam, Buddizm, Yəhudilik və digər dinlər haqqında da obyektiv və plüralist şəkildə məlumat alırlar. Bu fənnin onlayn dəstəkləyici resursları, məsələn, salaby.no və ndla.no interaktiv dərslər və videolarla təhsili müasirləşdirir.

Yeni media platformaları gənclərin dinlə təmasında daha təsirlidir. Məsələn, “YouTube” kanalında norveçli müsəlman gənc Hassan Ali İslam haqqında Norveç dilində qısa izahlar verir. Həmçinin “Instagram” və “TikTok” kimi platformalarda gənc xristian və müsəlmanlar dualar, dini geyimlər və gündəlik dini həyatla bağlı paylaşımlar edirlər. Bu, gənclərin dini kimliklərini formalaşdırmasına şərait yaradır.

Beləliklə, Norveçdə din təhsili ənənəvi, həmçinin yeni media vasitəsilə cəmiyyətin fərqli təbəqələrinə müxtəlif formalarda çatdırılır. Hər iki format birlikdə işlədikdə, təhsil daha əhatəli, demokratik və gənc nəsil üçün əlçatan olur.

***Açar sözlər:*** *Norveç Krallığı,* ənənəvi media, yeni media, sosial platformalar, monotesit dinlər, din təhsili.

## Milli kimlik və dini maarifçilik: İrəvan xanlığında din təhsili mərkəzlərinin ictimai-siyasi proseslərə təsiri

***f.f.d. Dürdanə Cəfərli***
Azərbaycan Milli Elmlər Akademiyası
akad. Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutu Din və ictimai fikir şöbəsinin
böyük elmi işçisi
Bakı, Azərbaycan
jafarli.d.sh@gmail.com
https://orcid.org/0009-0005-4930-6953

Tarix boyu din təhsili mərkəzləri yalnız dini biliklərin tədrisi ilə kifayətlənməmiş, eyni zamanda, mənəvi dəyərlərin aşılanması, ictimai şüurun formalaşması və cəmiyyətin siyasi-mədəni inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynamışdır. Bu baxımdan, İrəvan xanlığı ərazisində fəaliyyət göstərən din təhsili ocaqları da xalqın milli-mədəni irsinin, tarixi keçmişinin və milli kimliyinin qorunması, yad təsirlərə qarşı müqavimət hissinin təşəkkülündə əhəmiyyətli mövqeyə malik olmuşdur. Bu məqalədə İrəvan xanlığında din təhsili mərkəzləri-

nin fəaliyyətinin əsas istiqamətləri, onların milli düşüncəyə, cəmiyyətin maariflənməsinə və ictimai-siyasi proseslərə təsiri araşdırılır.

Qədim Azərbaycan torpağı olan İrəvan bölgəsində dini maarif ocaqları müxtəlif formalarda fəaliyyət göstərib. Bunlar arasında ən mühüm olan məscidləri, mədrəsələri, ocaqları və şəxsi evləri misal çəkmək mümkündür. Həm şəhər, həm də kəndlərdə çoxlu sayda olan məscidlər yalnız ibadət yerləri kimi deyil, eyni zamanda, elm və təhsil mərkəzləri kimi fəaliyyət göstərirdi. Bu mərkəzlər, adətən, ibtidai təhsil verməklə məşğul olurdu. Həmin dövrdə Azərbaycanın digər bölgələrində də geniş yayılmış məscid-mədrəsə kompleksləri isə daha fundamental və ali təhsil verirdi. Bu mədrəsələr təkcə dini deyil, həm də dünyəvi təhsilin əsas aparıcı qurumları kimi çıxış edirdi. Burada Quran, təfsir, hədis, fiqh (İslam hüququ) və ərəb dili ilə yanaşı, riyaziyyat, məntiq, fəlsəfə, astronomiya kimi dünyəvi elmlər də tədris olunurdu. Bunlar arasında Göy məscid mədrəsə-kompleksinin əvəzsiz mövqeyi vardır. Ümumilikdə, dörd eyvanı olan, qərb və şərq eyvanlarının şimal hissəsində yeddi hücrə yerləşən, hər iki eyvanın cənub hissəsində isə ayrılıqda altı hücrəyə malik, bütövlükdə, iyirmi altı hücrəli bu monumental

memarlıq abidəsinin öz dövrünün böyük tədris ocağı sayıldığı heç bir şübhə doğurmur.

Bu mərkəzlərdə təhsil alan ziyalılar cəmiyyətin sosial-mədəni həyatına təsir göstərir, yalnız dini biliklərin deyil, eyni zamanda, milli ideologiyanın daşıyıcısı və ötürücüsü kimi çıxış edirdilər. Belə bir mühitdə yetişən ruhani ziyalılar məscidlər və mədrəsələrlə yanaşı, geniş ictimai mühitdə də maarifçilik ideyalarını, milli oyanış düşüncəsini təbliğ edir, dini maarifçiliklə milli kimliyin sintezini yaradaraq yad təsirlərə qarşı müqavimət aşılayırdılar. Tarixi faktlar göstərir ki, həmin dövrdə dini maarifcilik mərkəzləri birləşdirici, dirçəldici funksya həyata keçirir, xalqın mənəvi müqavimətinin və işğalçılara qarşı mübarizənin əsas hərəkətverici qüvvəsi rolunu oynayırdılar.

İrəvan şəhərinin Rusiya İmperiyası qoşunları tərəfindən işğalı zamanı məzhəbindən aslı olmayaraq, yerli müsəlman əhalinin dini simvollar, xüsusilə azan vasitəsilə milli müqavimət göstərməsi faktı buna bariz nümunədir. Həmin dövrdə işğala qarşı etiraz əlaməti olaraq, şəhərin qərb hissəsində yerləşən Cümə məscidində başlayan kütləvi azan səsləri əhalinin ruh yüksəkliyi ilə işğalçılara qarşı səfərbərliyinə səbəb olmuşdur. Tarixi mənbələrə əsasən, bu müqavimət nəticəsində Rusiya qoşunları ciddi itkilər verib

geri çəkilməyə məcbur olmuş və rus əsgərləri məscidlərə sığınaraq aman istəmişlər. Məqalədə bu kimi faktlara istinad edilərək göstərilir ki, dini maarif mərkəzləri və simvolları işğala qarşı milli iradənin ifadəsi və dirənişin rəmzi kimi çıxış etmişdir.

Nəticə etibarilə, din təhsili mərkəzləri təkcə maarifçilik deyil, həm də milli şüurun əsas ideoloji dayaq nöqtəsi və milli mübarizə kontekstində böyük əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *İrəvan xanlığı, din təhsili, İslam maarifçiliyi, milli kimlik, məscidlər.*

# Çokkültürlü Bir Bağlamda Yeni Bir Din Eğitimi Yaklaşımı: Diyalogsal Yaklaşım (Fırsatlar, Tehditler)

*Dr. Öğr. Üyesi Vahdeddin Şimşek*
Kırıkkale Üniversitesi, İslami İlimler Fakültesi,
Felsefe ve Din Bilimleri, Din Eğitimi Anabilim Dalı
Kırıkkale, Türkiye
v.simsek@kku.edu.tr
https://orcid.org/0000-0002-3973-850X

Din eğitimi, öğrencilerin yaşam, anlam ve ilişkilerle ilgili en derin ve en temel sorularla karşılaşmaları ve bunlarla ilgilenmeleri için özel bir alan sağlar. Öğrencileri düşünmeye, sorgulamaya, eleştirmeye, yorumlamaya, hayal etmeye ve yaşamları için içgörü bulmaya teşvik etmektedir. Bunun yanında din eğitimi, sorumlu karar alma süreçlerine yön veren inanç ve değerlerin çeşitliliği, farklı yaşam tarzları üzerine diyalog ve düşünmeyi kolaylaştırmayı amaçlamaktadır. Söz konusu amaçtan hareketle din eğitimi hemen bütün bireylerin sahip olduğu / inandığı din fenomeni üzerinden iletişim, etkileşim veya diyalogun oluştuğu bir ortam oluşturması öngörülmektedir. Bu çerçevede yeni

bir yaklaşım olan diyalogsal yaklaşım işe koşulmaktadır.

Din eğitiminde diyalogsal yaklaşım, öğrencilerin inanç ve değerlerini anlamalarına yardımcı olmayı amaçlayan bir pedagojik yöntemdir. Bu yaklaşımla, öğrencilerin sadece dini bilgileri edinmelerini değil, aynı zamanda bu bilgilerin nasıl üretildiğini ve hangi yöntemlerle incelendiğini anlamalarını da hedeflemektedir. Bu bağlamda, öğrenciler öğretmenlerle birlikte araştırmacı olarak yer alarak, farklı din çalışmaları yöntemlerinin etkinliğini sorgulama fırsatı bulurlar. Eğitimde kullanılan çeşitli pedagojiler, dinin doğası ve incelenme biçimleri hakkında açık bir tartışma ortamı yaratılması sağlanmaktadır. Din dersi öğretmenlerin belirli teorik veya disiplinlerarası varsayımları sınıfa taşımak yerine, bu varsayımların eleştirel bir değerlendirmeye tabi tutulmasına imkan verecek bir ortam oluşturması öngörülmektedir. Böylece, din eğitimi, öğrencilerin sadece bilgi aktarmakla kalmayıp, bu bilgilerin kökenlerini ve yöntemlerini sorgulamalarını teşvik eden bir diyalog alanı haline gelmektedir. Bu şekilde, din eğitimi, daha kapsayıcı ve eleştirel bir öğrenme süreci sunarak, öğrencileri akademik pratik topluluklara dahil olmasının önü açılmaktadır.

Castelli'ye göre, diyalog becerilerini öğretmeyi önererek, öğrencilerin farklı inanç sistemleri ile etkileşim kurmalarını ve kendi inançlarını ifade etmelerini sağlamayı hedeflemektedir. Bu doğrultuda Bloom'un taksonomisi temel alınarak, öğrencilerin edinmesi gereken sınıf içi diyalog becerileri geliştirilmiştir. Diyalog becerileri; hayal gücü, ifade etme, ciddiyet, alçakgönüllülük ve tereddüt gibi beş ana yetkinlikten oluşmaktadır. Bu becerilerin öğretilmesi, öğrencilerin diğer inançları anlamalarına ve kendi inançlarını daha açık bir şekilde ifade etmelerine yardımcı olmaktadır.

Bu araştırmada din eğitiminde diyalogsal yaklaşımın tarihçesi, yaklaşımın temel ilkeler, kazandırmak istediği beceriler ele alınmıştır. Yine sınıf içi uygulamalara da çalışmada yer verilmiştir. Benzer şekilde bir eylem araştırması olarak gerçekleştirilmiş ve Güney Londra'daki bir okulda uygulanan model dahil olmak üzere çeşitli faaliyetlerde öğrencilerin bu diyalog becerilerini nasıl kullandıkları daha ağırlıkta Avrupa örnekliğinde yapılan yabancı dildeki kaynakları değerlendirme üzerinden doküman analizi çerçevesinde incelenmiştir. Öğrencilerin, dini yerlerin anlamı üzerine düşündükleri ve bu bağlamda kendi deneyimlerini ifade ettikleri çalışmada analiz edilecek olup ayrıca,

öğretmenin bu süreçteki rehberliği, öğrencilerin diyalog yoluyla nasıl bir anlayış ve hoşgörü geliştirmelerine katkıda bulunduğu ele alınmıştır.

Sonuç olarak, din eğitiminde diyalogsal yaklaşım, öğrencilerin kendi inançlarını anlamalarına ve başkalarının inançlarına saygı duymalarına olanak tanıyarak, daha kapsayıcı bir öğrenme ortamı oluşturmaktadır. Bu yaklaşım, eğitimcilerin din eğitiminde daha etkili ve anlamlı bir yaklaşım benimsemelerini teşvik etmektedir. Söz konusu yaklaşımla birlikte din eğitiminin sadece akademik bilgi vermekle kalmayıp, aynı zamanda öğrencilerin kişisel gelişimlerini destekleyerek sosyal uyum sağlamalarına yardımcı olabileceğini öne sürülmektedir. Diyalogsal yaklaşım, öğrencilerin farklı inançlara sahip bireylerle etkili bir iletişim kurmalarını sağlarken, aynı zamanda toplumsal çatışmaları önleyici bir rol üstlenmektedir. Söz konusu avantajlardan hareketle çalışmanın son kısmında Türk din eğitimi veya Azeri din tedrisatında nasıl uygulanabilirliğine dair öneriler de bulunulmuştur.

***Anahtar Kelimeler:*** *Din Eğitimi, Diyologsal Yaklaşım, Türk Din Eğitimi, İletişim, Casttelli.*

# Models of Islamic Education in the 21st Century

*(How to have a better religious education in the Muslim societies today?)*

***Ermal Bega***
Master of Sciences in Islamic Philosophy,
Albanian Center for Oriental
Studies (Acfos Albania)
Executive director
Tirana, Albania
albanian_orientalist@yahoo.com
https://orcid.org/0009-0005-3071-6776

With the abolition of the last Islamic Caliphate (the Ottoman Sultanate) from power, 3rd of March 1924 (H 1340), the entire Islamic world suffered continuously a great decline and weakness in many aspects. One of these weaknesses it was experienced in Islamic religious education, where the different Muslim communities in the Islamic world were already suffering from different problems in finding the best models for educating Muslim generations in their countries.

They faced various wars, with different rules and colonization, relying on the examples of those who ruled them and on the model of Islamic religious education suggested by them.

Throughout the 20th century, all the Muslim countries, especially those who were part of the Ottoman Islamic caliphate were separated and divided into small countries, which were then occupied by Western colonizing countries, mainly Great Britain and France, making it impossible for those countries to decide to find the best model of religious-Islamic education for their people in the new historical era.

From the Muslim countries of Far Asia, to the Middle East and to North Africa, in the 20th century they experienced the colonization of their countries and thus the Muslim societies there experienced weakness in many aspects of life, but especially in their Islamic education, where religious communities, now also culturally separated from the Islamic caliphate, encountered difficulties in compiling Islamic education curricula in their country.

They were already struggling and trying to create or find new and progressive models of Islamic religious education for their people. Thus, all Muslim societies in the $20^{th}$ century faced many difficulties in this regard.

Knowing the importance that Islam, the Quran, and Muslims give to knowledge and education, the colonizing states, mainly during the $20^{th}$ century, devoured much of the important Oriental and Islamic literature belonging to Muslim societies and sent it to many famous libraries in Europe and the West. In this regard, they tried to reduce the heritage models of Islamic education in Muslim societies.

During the same century, many Muslims emigrated for a better life from their own countries and went to Europe and the West in general. In this way, Muslim societies of different ethnicities in Europe had a great need for the education of their own children and society living in European countries, making it difficult again to find a good model for Islamic education.

But what are the models of Islamic education in the $21^{st}$ century for Muslims and how can their level of knowledge and education be improved?

In this paper we will explain the reasons why Islamic education has changed in Muslim societies and how this issue can be resolved for the benefit of all Muslims.

***Keywords:*** *Islamic Education, Islamic Caliphate, Muslim Societies, Educational models, 21st century*

# Bəktaşilikdə din təhsilinin əsas komponenti olaraq əxlaqi dəyərlər

***Emin Orucov***
Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı
Bakı, Azərbaycan
eminorucov@ait.edu.az
https://orcid.org/0000-0002-0583-5053

Bəktaşilik XIII əsrdə Hacı Bəktaş Vəlinin düşüncələri və təlimləri əsasında formalaşan, təsəvvüf yönümlü bir təriqətdir. Bu təriqət yalnız ibadət və dini inanclarla deyil, eyni zamanda, əxlaqi dəyərlərin təbliği ilə də seçilir. Bəktaşi təlimində əxlaq insanın kamilliyə çatma yolunda əsas meyar kimi qəbul edilir. Bəktaşilik görüşündə əxlaqi dəyərlər, sadəcə, nəzəri prinsiplər deyil, gündəlik həyatın və ibadətin ayrılmaz hissəsidir. Əxlaqi prinsiplər Bəktaşi təlimində fərdi və ictimai kamilliyin əsası sayılır.

Bəktaşi təlimi Qurani-Kərim, əhli-beyt kəlamlarına, həmçinin əski türk ənənələrinə əsaslanmaqla yanaşı, Hacı Bəktaş Vəlinin “Məqalət” əsərindəki əxlaqi göstərişlərlə də zənginləşdirilmişdir. Əxlaq burada yalnız fərdi davranışlar sistemi deyil, ilahi bir varlığın

təcəllası kimi izah olunur. "Əlinə, belinə, dilinə sahib ol" prinsipi Bəktaşi əxlaqının əsası sayılır.

Bəktaşilik dini təhsilində fərdi kamilləşməyə, vicdan azadlığına və daxili islahata önəm verir. Bu təriqətdə müəllim–şagird (mürşid–mürid) münasibətləri sırf elmi və dini məlumat ötürülməsindən ibarət deyildir, həmçinin müəyyən əxlaqi nümunəvi model kimi qurulur.

Bəktaşilikdə dini təhsil zahiri biliklərdən çox, batini mənəvi inkişafı hədəfləyir. Bu səbəbdən, mürşidlər yalnız dini informasiyanı ötürmək deyil, həm də əxlaqi davranışları təcrübə ilə nümayiş etdirmək məsuliyyəti daşıyırlar. Mürid–mürşid münasibətləri bu əxlaqi öyrənmənin əsas mexanizmini təşkil edir.

Əxlaqi dəyərlərin Bəktaşi təlimində bu qədər ön planda olması təriqətin sosial inteqrasiyada və fərdlərin mənəvi tərbiyəsində mühüm rol oynamasına şərait yaradıb. Xüsusilə Balkan yarımadasında bəktaşilik dini tolerantlıq, multikulturalizm və sülh dəyərləri ilə tanınır. Bu kontekstdə Bəktaşi təlimi vasitəsilə formalaşan əxlaq yalnız dini həyatla məhdudlaşmır, ictimai münasibətlərdə də öz əksini tapır.

Bundan əlavə, Bəktaşi məclislərində (cəm evlərində) kollektiv şəkildə icra olunan mərasimlər vasitəsilə həm fərdi, həm də ictimai əxlaq gücləndirilir.

Bu mərasimlərdə doğru danışmaq, əmanətə riayət, böyüyə hörmət və kiçiklərə mərhəmət kimi dəyərlər təkrar-təkrar vurğulanır. Bütün bunlar Bəktaşi təliminin mahiyyətində əxlaqi dəyərlərin əsas komponent olduğunu açıq şəkildə göstərir.

Bəktaşilik təkcə fərdi kamilliklə kifayətlənmir, eyni zamanda, cəmiyyət daxilində dözümlülük, ədalət və sülhün bərqərar olması üçün əxlaqi dəyərləri önə çəkir. Balkan yarımadasında yaşayan Bəktaşi cəmiyyətlərində dinlərarası dialoq və qarşılıqlı hörmət kimi dəyərlər bu mənəvi təlimin nəticəsi kimi ortaya çıxmışdır.

Bəktaşilikdə əxlaqi tərbiyə, sadəcə, bir təhsil modulu deyil, eləcə də dini həyatın və insanın mənəvi varlığının mərkəzinə yerləşdirilmiş əsas sütundur. Bu dəyərlər vasitəsilə təkcə fərdlər deyil, cəmiyyətlər də daha tolerant, ədalətli və insani dəyərlərlə zəngin bir quruluşa sahib olur.

Nəticə olaraq qeyd edə bilərik ki, Bəktaşi təlimində əxlaqi dəyərlər din təhsilinin ayrılmaz və mərkəzi hissəsini təşkil edir. Bu dəyərlər fərdin mənəvi kamilliyi ilə yanaşı, cəmiyyətin mədəni və sosial harmoniyasına da töhfə verir. Əxlaqi tərbiyənin praktik, simvolik və ritual komponentlər vasitəsilə nəsildən-

nəslə ötürülməsi təriqətin davamlılığını təmin edən əsas amillərdəndir.

***Açar sözlər:*** *bəktaşilik, Hacı Bəktaş Vəli, əxlaqi dəyərlər, din təhsili, təsəvvüf*.

# Mötədillik prinsipinin təlim-tərbiyədəki rolu (“Ənvar ət-tənzil və əsrar ət-təvil” təfsiri kontekstində)

***Ənvər Mustafayev***
Azərbaycan İlahiyyat İnstitutu
Dillər və ictimai fənlər kafedrasının
baş müəllimi
Bakı, Azərbaycan
anvarmustafayev@ait.edu.az
https://orcid.org/0000-0001-8196-1337

İslamın əsas mənbə və sütunlarından olan Quran və sünnə insanın dünya və axirət xoşbəxtliynə nail olması üçün ona müəyyən yollar göstərmiş və tövsiyələr vermşdir. Bu baxımdan, Quran Allah nəzdində iman, ibadət və əxlaq kimi insanın səciyyəvi cəhətlərini diqqətə alır, şəxsin iman yönünü ağıl, ibadət yönünü müəyyən hərəkət və davranışlarla, eləcə də əxlaq və duyğu tərəflərini isə qəlb cəhətindən dəyərləndirir. Bu məsələlərdə əsas ünsür mötədillik olmuşdur. Həmçinin hədislərdə orta yola, mötədilliyə təşviq edilmişdir. Belə ki, başda ibadətlər olmaqla, yemə-içmə, geyim və digər hər növdən olan ehtiyaclarda ölçülü olmağa əhəmiyyət verilmişdir. Bu, din və

ibadət adına olsa da, həddən artıq dünya işlərindən uzaqlaşdıracaq radikallığın, eləcə də dünya işlərinə meyilliliyin qarşısını almağı hədəfləmişdir. Bu baxımdan, təbliğ və təşviqdə, ibadətlərin icra edilməsində mötədillik, yaxud orta yol metodunun ən bariz nümunəsi asanlaşdırmaqdır. Necə ki, Məhəmməd peyğəmbər səhabələrdən Muaz ibn Cəbəl və Musa əl-Əşərini Yəmənə təbliğə göndərdiyi zaman "*Asanlaşdırın, çətinləşdirməyin, müjdələyin, nifrət etdirməyin*" hədisi bu mənada ən gözəl nümunələrdən hesab edilir.

Bu nöqteyi-nəzərdən mötədil, yaxud orta yol tətbiqi Quran və sünnənin əsaslarından hesab edilir. Şübhə yoxdur ki, mötədillik (etidal) anlayışı olmayan yerlərdə ya radikal dindarlıq, ya da dinsizlik cərəyanları güclü olmuşdur. Dini və sosial həyatda mötədil yol izləmək hər bir müsəlmanın özünütərbiyə, eləcə də dini təbliğ və təşviq işində mühüm rol oynayır.

Məqalədə Nasirəddin əl-Beyzavinin (v. 685/ 1286) "Ənvar ət-tənzil əsrar ət-təvil" təfsir əsəri işığında dini və sosial həyatda mötədillik metodunun tətbiqi ilə bağlı ayələrə toxunulur. Yeri gəldikcə, kəlmə və ifadələrin izahında müfəssirin fikirlərinə müraciət edilir.

Qurani-Kərimdə “mötədil” (مُعْتَدِلٌ) sözü qeyd edilmədiyi üçün bu ifadəyə yaxın mənanı ifadə edən “adl” (العَدْلُ), “vasat” (الوَسَطُ), “mizənu” (المِيزَانُ), “qısdu” (القِسطُ), “qasdu”, (القَصْدُ), “iqtisadu” (الإقْتِصَادُ) kimi kəlmələr istifadə edilir. Beyzavi qələmə aldığı təfsirində mötədilliklə əlaqədar fikirlərini açıqlayarkən öz perspektivindən bu kimi ifadələri dəyərləndirmişdir.

Müfəssir “Bəqərə” surəsinin 143-cü ayəsində “orta ümmət” ifadəsini “vəsət” (الوَسَطُ) – bir şeyin tam ortası; ifrat və təfrit – həddi son dərəcə aşmaq; əskik olan nöqsanlar arasındakı orta yol; xəsisliklə israfçılıq arasındakı comərdlik; yersiz cəsarət və qorxaqlıq arasındakı şücaət kimi izahlarla təfsir etmişdir. Beləliklə, müfəssir “orta ümmət” ifadəsi ilə ifrat və təfrit kimi artıq və əskik nöqsanlardan uzaq olan, comərd və şücaətliliyi ilə seçilən, orta yol izləyən müsəlman ümmətini təsvir etmişdir.

“Furqan” surəsinin 67-ci ayəsində isə bir müsəlmanın həddən artıq əliaçıq, yaxud xəsislikdən uzaq olması, orta yolu izləməsi əmr olunur. Bununla yanaşı, ibadətlə bağlı “İsra” surəsinin 110-cu ayəsini nümunə gətirmək olar:

“(*Ey Peyğəmbərim!) Namaz qılarkən səsini nə çox qaldır, nə də çox alçalt”* ayəsinin (وَابْتَغِ بَيْنَ ذَٰلِكَ سَبِيلًا) *“Bunun (bu ikisinin) arasında orta bir yol tut”* hissəsini

izah edərkən müfəssir gündüz namazlarını gizli, gecə namazlarını isə səsli şəkildə oxumaq kimi təfsir etmişdir. Həmçinin hər bir müsəlman düşmənçilik edərkən, yaxud qisas alarkən də diqqətli olmalıdır. Belə ki, "Bəqərə" surəsinin 178-ci və "Nəhl" surəsinin 126-cı ayələri qisas alarkən, yaxud cəzalandırarkən həddi aşmağı qadağan edir.

Nəticə etibarilə mötədil, yaxud orta yol tətbiqi ilə hər bir müsəlman radikallıqdan, həddi aşmaqdan uzaqlaşar, dinini təbliğetmə, təşviqetmə işində müvəffəqiyyət qazanar.

Qeyd edilən ayələrdən də aydın olur ki, müsəlman dini və sosial həyatında orta yolu izləməli, eləcə də dost, ya da düşmən fərqi qoymadan ədalətli davranmalıdır.

***Açar sözlər:*** *Beyzavi, "Ənvar ət-Tənzil", Qurani-Kərim, təfsir, mötədillik.*

# Qərbi Azərbaycan bölgəsində elmi-dini maarif ənənələri

*Hilal Ağamoğlanov*
Azərbaycan Milli Elmlər Akademiyası
akad. Z.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun elmi işçisi
Bakı, Azərbaycan
hilal_ali@mail.ru
https://orcid.org/0009-0005-7317-3206

Təhsil bir xalqın keçmişi, müasir dövrü və həm də gələcəyidir. Müəyyən bir xalqın hər hansısa ərazidəki məskunlaşması, təhsil və tədris ənənələri, elm və maarifə verdiyi əhəmiyyət onun dünyabaxışından, inkişaf dərəcəsindən, hədəf və məqsədlərindən xəbər verir.

Vətənimizin tarixi və əzəli torpaqları olan Qərbi Azərbaycan bölgəsi hər bir dövrdə görkəmli elm, maarif, mədəniyyət və incəsənət xadimləri ilə xalqımızın inkişaf və rifahının xidmətində dayanmışdır. Ta qədimdən bəri – həm Alban Xristianlığı dövründə, həm də İslamdan sonra yaşadıqları ərazilərdə kilsələr, monastırlar, məscid və mədrəsələr inşa edən, onları elm və maarif ocaqlarına çevirən, məktəb, seminariya

və gimnaziyalar quran qərbi azərbaycanlı həm-vətənlərimiz zəmanənin dəyişim və tələbləri ilə ayaqlaşmışlar.

Təsadüfü deyil ki, Qaraqoyunlu və Səfəvi dövlətlərinin tərkibində olan Çuxursəd bəylərbəyliyinin mərkəzi İrəvan şəhəri özünün alim, arif və ədibləri ilə formalaşdığı ilk çağlardan tanınmaqda idi. Həmin dövrlərin əlyazma kataloqları üzərində apardığımız araşdırmalarda İrəvani, Zəngəzuri, Göyçəvi nisbələri ilə bir çox katib, şair, müəlliflərin əsərləri haqqında qeydlərə rast gəlirik. Bu qeydlərlərin bəzilərinin tarixləri 1600-cü illərə aiddir. Bu isə o ərazidəki azərbaycanlıların elm, maarif və mədəniyyətə verdikləri əhəmiyyətin, elmi-mədəni inkişaf üçün lazım olan infrastruktrun mövcudluğunun bariz göstəricisidir.

XVII–XVIII əsrlər Qərbi Azərbaycan bölgəsinin İslam alimlərinin həyat və fəaliyyətlərinə nəzər saldıqda, bu tendensiyanın daha da inkişaf etdiyini, bölgənin hüdudlarını aşaraq böyük bir coğrafiya və mədəniyyətlərə yayıldığını müşahidə edə bilirik. İrəvan ərazisində doğulub boya-başa çatmış hər bir alim və ya ədibin ilk müəlliminin öz atası olması, ilkin ibtidai dini təhsilini yaşadığı məntəqənin məscid və ya mədrəsəsində alması elmi-dini maarifçilik hərəkatinin kütləvi xarakter daşıdığının, əhalinin elm və təhsilə

verdiyi əhəmiyyətinin göstəricisidir. Bu bölgəni təmsil edən “İrəvani” nisbəli alim və ədiblərin bölgədəki şöhrət və nüfuzları da ərazisinin kiçikliyinə rəğmən, insanda həmin şəhərin böyük bir elm məbədi olduğu təəssüratını yaradır. Əslən İrəvan şəhərindən olan görkəmli İslam alimləri, məşhur təqlid mərcəsi Fazil İrəvani, həmçinin “Mollabaşı” ləqəbli Əbdülkərim İrəvani kimi görkəmli alimlərin soy-kökünə nəzər saldıqda, həm ata, həm də baba tərəfdən alim və ziyalı nəslinin mənsubları olduğunu görürük. Bunlar irəvanilərin yalnız iki nümunəsidir. Həmin bölgənin digər alimləri də belə soy-köklərə sahibdirlər.

Fazil İrəvaninin məzhəb başçısı dərəcəsinədək ucalması, mərcəliyi müddətində digər fəqihlərin onun elm və fəzilətinə olan ehtiramlarına görə fətva verməkdən çəkinmələri də həmin bölgə insanlarının belə ali məqama yetişdirmək imkanına malik bir təhsil ənənələrinə sahib olduğunu göstərir. Onun Nəcəfdə təsis etdiyi İrəvani mədrəsəsi bölgənin sərhədlərindən kənarda da müəssisənin elm və təhsillə nə qədər məşhur olduğunu bir daha sübuta yetirir.

Digər tərəfdən, Qərbi Azərbaycanın Çar Rusiyası tərəfindən ilhaqı, eləcə də dünyada baş verən siyasi-iqtisadi dəyişimlər fonunda İrəvan bölgəsi yeni çağırışlara ilk uyğunlaşan regionlardan biri idi.

İrəvanda təsis edilən qəza məktəbi, progimnaziya, gimnaziya və seminariyalar dünyəvi təhsillə dini təhsilin bir məktəbdə tətbiqinin lik modellərindən idi. Dövrün tələblərindən çıxış edən, müsəlman cəmiyyəti üçün dini təhsillə bərabər, dünyəvi təhsilin də vacibliyini anlayan Molla Tağı Mahmud oğlu, Mirzə Molla Ələkbər Elxanov, Firidun bəy Köçərli və Hacı Axund Məhəmmədbağır Qazızadə və bir çox digər görkəmli alimlər bu təhsil ocaqlarında İslam şəriəti dərsləri ilə yanaşı, Ana dilindən və digər fənlərdən də dərs deyirdilər. Məhz belə bir təhsil nəticəsində sözügedən müəssisələr XIX əsrin sonları və XX əsrə öz fəaliyyətləri ilə damğa vurmuş Mustafa bəy Topçubaşov, Əkbər ağa Şeyxülislamov, Əziz Əliyev, Əhməd Rəcəbli və Miryusif Mirbabayev kimi ziyalılar bəxş etmişlər.

***Açar sözlər:*** *dinşünaslıq, Qərbi Azərbaycan, İrəvan bölgəsi, dini maarif, dini-ictimai fəaliyyət, İslam alimləri.*

## Müstəqil Azərbaycanda dövlət–din münasibətlərinin qurulması prosesində Ulu Öndər Heydər Əliyevin rolu

***Lamiyə Əliyeva***
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
İbtidai təhsilin pedaqogikası kafedrasının müəllimi
Bakı, Azərbaycan
lamiye.eliyeva83@mail.ru
https://orcid.org/0009-0008-5433-4539

Din cəmiyyətin simasını, onun əxlaqi durumunu, hüquqi düşüncəsini və mədəniyyətini formalaşdıran əsas ünsürlərdən biridir. Sosioloji araşdırmalar göstərir ki, bəşəriyyətin əksər hissəsi dini amili mədəni və ictimai həyatın əvəzolunmaz tərkib hissəsi kimi qəbul edir. Din faktorunun beynəlxalq münasibətlər kontekstində oynadığı rol da nəzərəçarpandır. Bu səbəbdən, dini məsələlərə münasibətdə qarşılıqlı anlayış və tolerantlıq nümayiş etdirmək digər sahələrdə də konsensusa gəlməyi asanlaşdırır. Eyni və ya fərqli dinlərə mənsub şəxslərin dini dünyagörüşləri və dəyər sistemləri müxtəlif sosial problemlərin daha effektiv həllini mümkün edir.

Qloballaşan dünyamızda baş verən ictimai-siyasi proseslər dövlət–din münasibətlərinə yeni baxış bucağı formalaşdırmışdır. Din aclıq, xüsusi təhlükəli xəstəliklərlə mübarizə, ekologiya, ətraf mühitin qorunması və demoqrafiya kimi qlobal problemlərin həllində müxtəlif fərd və qurumların ətrafında birləşdiyi mənəvi və ideoloji mərkəz funksiyasını daşıyır. Siyasətçilər isə bu problemlərin həllində maraqlı olduqları üçün bəzən, dinin ictimai nüfuzundan faydalanmağa çalışırlar.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, qarşıda duran əsas vəzifələrdən biri dövlət–din münasibətlərinin düzgün və sistemli şəkildə tənzimlənməsi olmuşdur. Bu sahədə həyata keçirilən tarixi və strateji əhəmiyyətə malik islahatlar və təşəbbüslər Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində Azərbaycan həm dini tolerantlıq baxımından nümunəvi bir dövlətə çevrilmiş, həm də dinin cəmiyyət həyatında müsbət rol alması təmin edilmişdir.

Ulu Öndər Heydər Əliyev xalqın milli-mənəvi dəyərlərinə xüsusi önəm vermiş, dinin cəmiyyətdəki rolunu düzgün qiymətləndirmişdir. O, dini radikalizm və fanatizmlə mübarizədə balanslaşdırılmış və

düşünülmüş siyasət yürütmüşdür. Onun hakimiyyəti dövründə din azadlığı təmin olunmuş, dini icmaların fəaliyyəti hüquqi çərçivəyə salınmış və dövlət–din münasibətləri qarşılıqlı hörmət və əməkdaşlıq prinsipi üzərində qurulmuşdur.

1992-ci ildə yaradılmış Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də məhz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə gücləndirilmiş və bu komitə vasitəsilə din sahəsində fəaliyyətlər dövlət nəzarəti altına alınmışdır. Bununla yanaşı, dini təhsilin inkişafına xüsusi diqqət ayrılmış, dinin elmi və maarifləndirici aspektlərinin önə çəkilməsi və əhalinin dini savadlılığının artırılması vacib vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir. Bu istiqamətdə bir sıra maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə ölkənin qədim dini abidələri, o cümlədən məscidlər, kilsələr və sinaqoqlar bərpa olunmuş və qorunmuşdur. Bu təşəbbüs Azərbaycanda mövcud olan dini dözümlülüyün və multikultural dəyərlərin dəstəklənməsinin bariz nümunəsidir. Onun dövründə din və dövlət arasında qarşılıqlı hörmət və əməkdaşlığa əsaslanan münasibətlər sistemi formalaşmışdır.

Ulu Öndər Heydər Əliyev dəfələrlə çıxışlarında vurğulamışdır ki, din xalqın mənəvi dəyərlər sisteminin əsas sütunlarından biridir. Onun bu sahədəki uzaqgörən siyasəti nəticəsində Azərbaycan həm İslam həmrəyliyinə töhfə verən, həm də dünyəvi və tolerant dəyərləri qoruyan bir dövlətə çevrilmişdir. Bu gün də dövlət–din münasibətlərində onun müəyyən etdiyi prinsiplər uğurla davam etdirilir.

***Açar sözlər:*** *dövlət–din münasibətləri, tolerantlıq, dini maarifləndirmə, multikultural dəyərlər, dini dözümlülük.*

## Pedaqoq, maarifçi Şeyxülislam

***Sevinc Rəhnulla***
Azərbaycan Milli Elmlər Akademiyası
Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun
böyük elmi işçisi
Bakı, Azərbaycan
sevindj.rahnulla@mail.ru
https://orcid.org/0000-0002-4395-5806

Rusiyanın hakim dairələri müsəlmanların dünyəvi təhsil almalarına həmişə mane olmuş, mollaxanalarda, müsəlman ruhani seminariyalarında ümumi təhsil fənlərinin keçirilməsini qadağan etmiş, onları daim dövlət nəzarəti altında saxlamışlar. Bu dövrdə tədris məqsədilə bir sıra kitablar nəşr olunmağa başlanmışdır. Zaqafqaziyanın dövlət məktəblərində təhsil alan müsəlman gənclərin bu dərsliklərə ehtiyacı çox böyük idi. Tərtib olunmuş belə dərslik və dərs vəsaitlərinin müəlliflərindən biri də Əbdüssalam Axundzadə olmuşdur. Ə.Axundzadənin tədris məqsədilə qələmə aldığı Müqəddəs peyğəmbərlər tarixi, Xətti-təliq və nəstəliq, Zübdətul-əhkam, Umtətül-əhkam belə kitablardandır. O, həm müxtəlif mədrəsələr

və seminariyada tədrislə məşğul olur, həm də şeyxülislam kimi fəaliyyət göstərirdi. Şeyxülislam kimi fəaliyyət göstərdiyi vaxtlarda elmi-pedaqoji, dini-etik əsərlər yazib nəşr etdirmişdir.

1876-cı ildə Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası fəaliyyətə başlayanda şəriət və Ana dilini tədris etmək üçün Ə.Axundzadə dəvət olunur. Bu da onun dövrünün savadlı, mütərəqqibaxışlı pedaqoq və maarifçi olduğunu göstərir. N.Nərimanov Qori Seminariyasının fəaliyyətinə həsr olunmuş “Mühüm bir məsələ” seriya məqalələrinin birində orada təhsil aldığı illəri xatırlayır, Axundzadəni dəyərli bir pedaqoq kimi qiymətləndirir.

Qafqazda öz zamanlarına uyğun dərin bilik verməyə qadir mədrəsələr olmuşdur. Vaxt keçdikcə bu mədrəsələr dövrün tələblərinə cavab verməmədiyindən, nüfuzlarını itirmişdir. Ali ruhani təhsil almaq istəyənlər İrana, Türkiyəyə, Misirə getməyə məcbur olmuşlar. İmperiya qanunlarına əsasən, xaricdə təhsil alanlara Rusiya hüdudlarında vəzifə almaq qadağan idi. Axundzadəni bu məsələ çox narahat edirdi. Məmləkətdə ali təhsil verən mədrəsə, xaricdə oxuyub gələnlərə isə iş yox idi. Ali ruhaniləri, mədrəsədə dərs demək üçün müəllimləri necə yetişdirməli? Bu çətinlikləri həll etməkdən ötrü bir ali ruhani mədrəsəsinin

tikilməsi dövrün ən aktual problemi idi. İcazə almaq üçün hökumətə edilən çoxsaylı müraciətlər səmərə vermirdi. Mədrəsənin inşası üçün lazım olan xərcləri əhali, hətta öz üzərinə götürmək istədiyini söyləyirdi. Buna baxmayaraq, Çar üsul-idarəsinin razılığını almaq mümkün olmurdu.

1904-cü ilin 12 avqust tarixində Çar II Nikolayın oğlu dünyaya gəlir. Axundzadə ali mədrəsənin təsis olunması istiqamətində yenidən xahiş etmək üçün bundan yaxşı məqam olmayacağını başa düşür. O, Qafqazın baş valisi, general Frazeyə vəliəhdin dünyaya gəlişi münasibətilə gözaydınlığı verir. Onu təbrik edir, sonra isə bu böyük hadisənin təcəssümü kimi, vəqf pulları, müsəlmanların öz aralarında topladıqları xeyriyyə və ianə pulları ilə ali ruhani mədrəsəsinin tikilməsinə icazə istəyir. Həmçinin bəyan edir ki, mədrəsə böyük knyaz Aleksey Nikolayeviçin anadanolma gününün yadigarı kimi, "Alekseyevsk Ali Ruhani Mədrəsəsi" adlandırılacaqdır. Vaxtında edilmiş bu təşəbbüs nəticəsiz qalmır. Şeyxülislam və müfti Bakıya gəlir, şəhərin imkanlı müsəlman şəxsləri ilə görüşüb, mədrəsə haqqında ümumi məlumatı təqdim edirlər. H.Z.Tağıyevin yaxından iştirakı ilə xeyriyyə işi üçün ianə qəbulu başlayıb, mədrəsə inşa olunur.

Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və maddi yardımı ilə fəaliyyətə başlayan Qızlar Məktəbinin açılışı zamanı Axundzadənin "Kaspi" qəzetində Hacı ilə həmrəyliyini əks etdirən yazıları, qızların təhsilinin vacibliyinə dair Tağıyevin ibrətamiz məktubları kitab şəklində çap olunur.

Axundzadə maarifçi insanlara, sərvət sahibi olan kəslərə üz tutub rica edirdi ki, əvvəlincilər öz fikir və qələmləri, ikincilər isə öz mal və mülkləri ilə savadsız qardaşlarını cəhalət odundan dartıb-çıxarmağa vasitələr tapsınlar. O, sərvət sahiblərini mallarının zəkatını bu yolda sərf etməyə səsləyirdi.

***Açar sözlər:*** *şeyxülislam, pedaqoq, Qori Seminariyası, təhsil, dərsliklər.*

## Развитие теологического образования в Болгарской исламской академии: традиции, инновации и перспективы

***Фарида Исмагилова***
Казанский (Приволжский) федеральный университет, аспирант, Болгарская исламская академия,
Казань, Россия
gfgismagilova@mail.ru
https://orcid.org/0009-0007-6643-7351

В последние десятилетия в России наблюдается значительное возрождение исламского теологического образования, что связано с общим религиозным оживлением после распада Советского Союза и необходимостью формирования квалифицированных кадров для мусульманских общин. Одним из ключевых центров подготовки теологов и развития исламской мысли в России является Болгарская исламская академия (БИА). Эта академия стала важной площадкой для систематического изучения исламской теологии, истории и культуры в российском контексте, способствуя

формированию уникальной отечественной исламской интеллектуальной традиции.

Роль Болгарской исламской академии в развитии исламской теологии БИА занимает ключевое место в системе исламского образования России, являясь центром подготовки теологов, способных сочетать глубокое знание классических исламских источников с пониманием современного российского и мирового контекста. Академия предлагает комплексные программы, охватывающие историю исламской мысли, философию, богословие, а также современные вызовы, стоящие перед мусульманской уммой России.

Особенностью обучения в БИА является акцент на изучении оригинальных арабских текстов и их переводов, что позволяет студентам проникнуть в суть исламской интеллектуальной традиции и понять ключевые богословские дискуссии, которые велись на протяжении столетий. Это способствует формированию у выпускников академии способности анализировать разнообразие исламской мысли, сохраняя при этом единство её основополагающих принципов.

Методологический подход и содержание обучения

Программа обучения в Болгарской исламской академии строится на междисциплинарном подходе, который объединяет традиционные методы исламского богословия с современными научными исследованиями. Студенты изучают:

Историю исламской теологии и философии, включая основные школы и направления, а также их развитие в российском контексте.

Классические коранические и хадисные источники, с акцентом на критический анализ и интерпретацию.

Современные социальные и этические вопросы, включая роль ислама в многонациональном и многоконфессиональном российском обществе.

Вопросы межрелигиозного диалога и взаимодействия с государственными институтами.

Такой комплексный подход формирует у студентов не только теоретическую базу, но и практические навыки, необходимые для профессиональной деятельности в религиозных и образовательных учреждениях, а также в сфере общественной и культурной жизни мусульман России.

Вклад Болгарской исламской академии в исламское возрождение в России.

БИА играет важную роль в реализации государственной стратегии развития ислама и мусульманских организаций в России до 2035 года, направленной на укрепление традиционных исламских ценностей, духовно-нравственное воспитание и формирование позитивного образа ислама в обществе. Академия способствует подготовке квалифицированных теологов, способных противостоять деструктивным идеологиям и радикализму, укреплять межконфессиональное согласие и содействовать социальной адаптации мусульман в российском обществе.

Развитие теологической мысли в России неразрывно связано с процессом формирования системного исламского образования, в котором Болгарская исламская академия занимает одно из ведущих мест. Благодаря сочетанию традиционных исламских знаний и современных методологических подходов, академия формирует новое поколение теологов, способных эффективно работать в условиях многонационального и многоконфессионального российского общества. Это способствует не только сохранению и развитию ис-

ламской интеллектуальной традиции, но и укреплению межрелигиозного диалога, социальной стабильности и духовной безопасности в стране.

***Ключевые слова:*** *исламское образование, Болгарская исламская академия, Россия, богословие.*

# Rəqəmsal platformalarda dini məzmunun gənclərin kimlik və dəyər yönümlərinə psixososial təsiri

***Xalidə Xəlilova***
Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Sosiologiya İnstitutunun
elmi işçisi
Bakı, Azərbaycan
xalida-83@rambler.ru
https://orcid.org/0000-0002-3174-0621

Müasir dövrdə gənclər rəqəmsal platformalar vasitəsilə dini kimliklərini ifadə edir, dini məzmunlara çıxış əldə edir və bu məzmunlardan fərdi, sosial və mənəvi həyatlarında yararlanırlar. Burada əsas məqsəd rəqəmsal platformalarda yayılan dini məzmunların gənclərin dini kimlik formalaşdırmasına və dəyər yönümlərinə psixososial təsirini təhlil etməkdir. Gənclər üçün bu məzmunlar informasiya mənbəyi olmaqla yanaşı, mənlik axtarışında, dini və mədəni kodların mənimsənilməsində, sosial rol və münasibətlərin qurulmasında mühüm əhəmiyyət daşıyır.

Eriksonun psixososial inkişaf nəzəriyyəsinə əsasən, gənclik dövrü kimliyin formalaşdığı əsas mərhələdir. Bu mərhələdə fərdlər sosial təsirlərə, xüsusən də mediadan gələn dini informasiyalara qarşı daha həssas olurlar. Dini məzmunlar gənclərin kimlik qavrayışına, mənəvi dəyərlərinə və sosial adaptasiya proseslərinə təsir göstərir. Rəqəmsal platformalar vasitəsilə yayılan dini simvollar və mesajlar bu təsiri daha da gücləndirə bilir.

Araşdırmalar göstərir ki, sosial şəbəkələrdə təqdim olunan dini məzmunlar müxtəlif formatlarda – videomühazirələr, dini sitatlar, ibadət görüntüləri və şəxsi təcrübə paylaşımları şəklində olur. Bu məzmunlar bəzi hallarda gənclərin dini biliklərini və mənəvi dünyagörüşünü zənginləşdirir, tolerantlıq və multikultural dəyərlərin formalaşmasına dəstək verir. Bəzi hallarda isə dini məzmunlar radikal və yönləndirici xarakter daşıdıqda, bu gənclərin psixoloji tarazlığını poza, onları dini fanatizmə və cəmiyyətdən uzaqlaşmağa sövq edə bilər.

Rəqəmsal dini məzmunun təsiri yalnız fərdi psixoloji sferada deyil, eyni zamanda qrup kimliyi və sosial münasibətlər səviyyəsində də müşahidə olunur. Gənclər sosial mediada dini davranışlarını göstərərkən bəzən sosial təsdiqə daha çox əhəmiyyət verir və

bu, həqiqi dini təcrübənin önəmini azaldır. Həmçinin ailə və məktəb kimi ənənəvi qurumlarla müqayisədə internet və sosial medianın artan rolu gənclərin dini biliklərini daha fərdi, parçalana bilən və bəzən ziddiyyətli məlumatlar əsasında formalaşdırmasına səbəb olur ki, bu da onların dini kimliklərini və mənəvi baxışlarını müxtəlif istiqamətlərdən təsir altına salır.

Araşdırma nəticələri göstərir ki, bu sahədə preventiv və inklüziv yanaşmalara ehtiyac var. Media savadlılığının artırılması, balanslı və etibarlı dini kontentin təşviqi, gənclərin mənəvi və psixososial ehtiyaclarını anlayan elmiəsaslı yanaşmaların tətbiqi vacibdir. Bu, həm gənclərin sağlam kimlik inkişafına dəstək verə bilər, həm də radikallaşma və sosial parçalanma risklərini azalda bilər.

Ənənəvi qurumların (ailə, məktəb) təsirinin azalması ilə gənclər dini həqiqətləri fərdi şəkildə seçməyə meyillidir. Bu, ziddiyyətli məlumatlar, virtual cəmiyyətlərdə sosial təsdiq axtarışı ilə birlikdə kimlik böhranını dərinləşdirir. Sosial mediada dini performansların (məsələn, ibadət paylaşımları) əsas hədəfi “bəyənilmək” olduğundan, dini təcrübənin mənəvi dərinliyi əvəz oluna bilər. Təhlükəli təsirlərin qarşısını almaq üçün media savadlılığının gücləndiril-

məsi (məsələn, mənbə tənqidi, manipulyasiya texnikalarının açıqlanması), psixoloji dəstək xidmətləri və rəqəmsal dini kontentin mütəxəssislərlə birgə yaradılması vacibdir. Bu yanaşmalar gənclərin tənqidi düşüncəsini inkişaf etdirərək, sağlam kimlik formalaşdırmasını dəstəkləyə bilər.

***Açar sözlər:*** *rəqəmsal platformalar, dini məzmun, gənclər, kimlik, psixososial təsir.*

# XIX–XX əsrin əvvəllərində Şəkidə din təhsili

***Elşən Abdurahmanov***
Azərbaycan Milli Elmlər Akademiyası
Şəki Regional Elmi Mərkəzi
Tarix, arxeologiya və epiqrafika şöbəsinin elmi işçisi
Şəki, Azərbaycan
abdurahmanov.elshen40@gmail.com
https://orcid.org/0000-0001-7786-8391

***Habil Xəlilov***
Şəki Xan məscidinin imam naibi
Şəki, Azərbaycan
habil.xelilov777@mail.ru
https://orcid.org/0009-0004-6688-7457

Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğalından sonra, təhsil sahəsində siyasət əhalini kütləvi şəkildə savadlanmaqdan uzaq tutmağa, milli ucqarlarda maarifin və elmi fikrin yayılmasını məhdudlaşdırmağa, xalqları müstəmləkə əsarətində saxlamağa xidmət edirdi. Çar hökuməti təhsilə lazımi qədər vəsait ayırmır, müstəmləkə maraqlarına xidmət edən təhsil müəssisələrinin yaradılmasına səy göstərirdi. Bununla belə, hökumət üçün vəzifəli şəxslər, sədaqətli

məmurlar və din xadimləri hazırlamaq, digər ölkələrlə müqayisədə geriliyi aradan qaldırmaq, Avropa ilə rəqabətə davam gətirmək, kapitalizmin inkişafı üçün ölkədə baş verən dəyişiklikləri nəzarətdə saxlamaq və digər mühüm amillər çarizmi təhsil sahəsində də müəyyən dəyişikliklər aparmağa vadar edirdi.

Çar Rusiyasının işğalçı və xristian dövləti olması səbəbindən, yerli müsəlman əhali dövlətin açdığı məktəblərə birmənalı münasibət bəsləmir və bu tip müəssisələrdə təhsil almağa o qədər də səy göstərmirdi. Məsələn, 1831-ci ildə Nuxada açılan qəza məktəbində həmin ildə 28, 1842-ci ildə 60, 1846-cı ildə 67 və 1850-ci ildə 72 şagird var idi. Qeyd edilən şagird sayının heç də hamısı yerli əhalidən ibarət deyildi. Hökumətin 1850-ci ildə açdığı müsəlman məktəbi isə 1854-cü ildə maddi çətinliklər və müəllim çatışmazlığı səbəbindən bağlanmışdı. Qeyd edilənləri əsas gətirən çar məmurları yerli əhalini təhsilə maraq göstərməməkdə, savadsızlıqda ittiham edir, müsəlmanlar arasında cəhalətin hökm sürdüyünü vurğulayırdı.

Çarizmin maarif sahəsində yeritdiyi yarıtmaz siyasət ucbatından yaranan boşluğu doldurmaq, əhalinin təhsilə olan ehtiyacını ödəmək, milli düşüncə sa-

hibi olan ziyalılar yetişdirmək məqsədilə Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi, Şəkidə də bəzi din xadimləri, xeyriyyəçi şəxslər, vətənpərvər və mütərəqqifikirli ziyalılar milli məktəblər sayılan məktəblər açırdılar. Əhalinin bu cür məktəblərə marağı çox idi. Məsələn, 1863-cü ildə Nuxada dövlət məktəblərində cəmi 56 nəfər təhsil alırdısa, həmin ildə müsəlman dini məktəblərində tələbə sayı 1 830 nəfər təşkil edirdi.

Dövrün sənədlərinə, arxiv materiallarına, din xadimlərinin şəxsi həyatı və fəaliyyətini əks etdirən mənbələrə nəzər salarkən şeyxülislam və müftilər daxil olmaqla, digər vəzifələrdə çalışan din xadimləri arasında yaxşı təhsil almış, dövrünün dini və dünyəvi biliklərinə mükəmməl şəkildə yiyələnmiş şəxslərin olduğuna, Nuxa şəhərinin timsalında bütün Şimali Azərbaycanda XIX, XX əsrin əvvəllərində öz elmi-irfani fəaliyyəti ilə təhsilin inkişafına, maarif şəbəkəsinin genişlənməsinə, milli düşüncənin formalaşmasına töhfələr vermiş din xadimlərinin, tədris üsulları və müfrədatı ilə fərqlənən dini məktəblərin mövcudluğunun şahidi oluruq.

Çarizm dövründə din xadimi kimi fəaliyyət göstərmək üçün müraciət edən şəxslərdən Qurani-Kərim, onun təfsiri, peyğəmbərlər tarixi, ərəb, fars,

türk dilləri, dini ayin və rituallar, ritorika-bəlağət elmi, məntiq, hesab, ilahiyyat, müsəlman fiqhi, nikah-talaq, müxtəlif vərəsəlik, vəqflər və digər sahələrdə imtahandan müvəffəq olmaları tələb edilirdi. Məhz imtahandan keçən şəxslər rəsmi surətdə qazı, axund kimi fəaliyyət göstərə, müdərrisliklə məşğul ola bilərdilər. Təbii ki, bu cür imtahanlardan keçə bilən, qonşu ölkələrdə, Yaxın və Orta Şərqdə ali təhsilni tamamlayan belə şəxslərin açdıqları təhsil ocaqlarındakı dərsin keyfiyyəti də qənaətbəxş olmalı idi.

Nuxada XIX–XX əsrin əvvəllərində açılan məktəblərdə və mədrəsələrdə Qurani-Kərim, əqaid, xitabət, hüsnxət, hikmət kimi dini sahəyə aid olan fənlərlə yanaşı, ərəb, fars, türk, fransız dilləri, ümumi tarix, riyazi coğrafiya, siyasi coğrafiya, hesab, həndəsə, heyvanat, astronomiya, ədəbiyyat, ziraət, rəsm və digər dünyəvi biliklər aşılayan fənlər də tədris olunurdu. Qeyd edilənlər milli məktəblərin fəaliyyətinə tamamilə kölgə salmaq niyyətinə, onların verdikləri təhsilin əhəmiyyətsiz, yararsız və natamam olması haqqında söylənilən fikirlərə qarşı əks arqumentlərlə çıxış etməyə əsas verir.

Milli məktəblər hesab olunan bu təhsil ocaqlarının, məscid və mədrəsələrin fəaliyyətinə nəzər saldıqda belə fikri qətiyyətlə söyləmək olar ki, əgər

mütərəqqifikirli ziyalılar, müsəlman ruhaniləri çarizm dövründə dövlətin açdığı məktəblərlə kifayətlənərək yeni məktəblər təsis etməsəydilər, onların elm, irfan və təhsil sahəsində fəaliyyətləri olmasaydı, XIX əsrin son rübü, XX əsrin əvvəllərində Çar Rusiyasının tərkibində yaşayan türk və müsəlman xalqlarının ölkədə baş verən ictimai-siyasi proseslərdən, mədəni-maarif sahəsindəki uğurlardan kənarda qalması mütləq idi. Həmçinin XX əsrin əvvəllərinə təsadüf edən ümum-Rusiya müsəlman hərəkatında, eləcə də Şimali Azərbaycandakı milli-azadlıq xarakterli fəaliyyətdə əhalinin daha geniş təbəqəsinin iştirakını təmin etmək çətinləşərdi.

***Açar sözlər:*** *XIX–XX əsrlər, Şimali Azərbaycan, Nuxa, din təhsili, məscid və mədrəsələr.*

## İspaniyada İslam dini: müsəlman icmaları və inteqrasiya problemləri

***Lalə İbadova***
Azərbaycan Dillər Universiteti
Tərcümə fakültəsi Roman
dillərinin tərcümə nəzəriyyəsi və praktikası
kafedrasının baş müəllimi
Bakı, Azərbaycan
lalaibadova773@gmail.com
https://orcid.org/0009-0007-0707-2030

Cəmiyyətlərin XXI əsrdə qarşılaşdığı ən böyük böhranlardan biri mənəvi boşluğun artması və dəyərlər sistemindəki dəyişikliklərdir. Qloballaşna, sekulyarlaşma və miqrasiya kimi amillər dinin Avropada ictimai həyatda oynadığı rolu yenidən elmi və ictimai diskussiyalar mərkəzinə gətirmişdir. Bu prosesdə təhsil, xüsusilə də din təhsili səciyyəvi əhəmiyyət daşıyır. İspaniya bu baxımdan, maraqlı və kompleks bir nümunədir. Tarixən güclü katolik ənənələrə sahib olan ölkə müxtəlif dini icmaların birgə yaşadığı və dinlərarası dialoqu təşviq edən cəmiyyətə çevrilmişdir.

Məqalədə İspaniyada müasir din təhsili modellərinin inkişaf mərhələləri, onların mənəvi dəyərlərinin qorunması və qlobal çağırışlara cavabvermə potensialı ətraflı şəkildə araşdırılır.

İspaniyada din və təhsil arasındakı əlaqələr tarixi baxımdan dərin köklərə malikdir. İspaniyada 1939–1975-ci illərdə hakimiyyətdə olmuş, avtoritar rejimlə idarə edən general Fransisko Franko (Francisco Franco) zamanında katolik kilsə dövlətin ideoloji dayağı olmuş və din təhsili bütün məktəblərdə icbari tətbiq edilmişdir. Bununla belə, 1978-ci ildə qəbul edilən demokratik konstitusiya ilə din azadlığı təsbit edilmiş və dövlətin dünyəviliyi prinsipi qüvvəyə minmişdir. Katolik kilsə ilə dövlət arasında 1979-cu ildə imzalanmış müqavilə nəticəsində katolik din təhsili dövlət məktəblərində könüllü olaraq saxlanılmışdır.

İspaniyada 1980-ci illərdən etibarən, təhsil islahatları çərçivəsində din təhsili modelləri müxtəlif hökumətlərin ideoloji mövqeyinə görə dəyişikliklərə məruz qalmışdır. Mühafizəkar hökumətlər din təhsilini gücləndirməyə çalışdıqları halda, sol mərkəzli hökümətlər daha çox alternativ etik dəyərlərin tədrisə daxil edilməsinə yönəlmişlər.

1. Mövcud din təhsili modeli

1.1. *Təhsil sistemində qanunvericilik və idarəetmə mexanizmləri*

İspaniyada din təhsili dövlət məktəblərində könüllü xarakter daşıyır. Təhsil Nazirliyi tərəfindən hazırlanmış proqram çərçivəsində valideynlər və ya şagirdlər katolik dini, digər tanınmış dinlər və ya etik dərsi seçmək hüququna malikdirlər. İspaniyada hazırda dövlət tərəfindən tanınan dinlər – Xristianlığın katolik, protestant qolları, Yəhudilik və İslamdır. Bu icmalarla dövlət arasında imzalanmış əməkdaşlıq razılaşmaları din təhsili üçün hüquqi baza yaradır.

1.2. Katolik din təhsili

Katoliklik hələ də ölkədə ən geniş yayılmış cərəyan olaraq qalır. Dövlət məktəblərində katoliklik din dərsləri dövlət tərəfindən maliyyələşdirilir və müəllimlər katolik kilsənin təsdiqi ilə işə qəbul olunurlar. Bu, bəzən din və dövlətin ayrılığı prinsipi ilə bağlı müzakirələrə də səbəb olur.

1.3. İslam din təhsili

İslam din təhsili daha yeni və məhdud şəkildə tətbiq olunur. İspaniya müsəlman komissiyası ilə dövlət arasında 1992-ci ildə imzalanmış razılaşma əsasında bəzi bölgələrdə müsəlman şagirdlərə İslam dini tədris olunur. Müəllim çatışmazlığı, bürokratik maneələr və

bəzi yerlərdə ictimai müqavimət bu prosesin yayılmasını məhdudlaşdırır.

2. Qlobal çağırışlar və din təhsilinin transformasiyası

2.1. Multikultural cəmiyyət və inklüzivlik

Miqrasiya nəticəsində İspaniyada müsəlman, yəhudi, hindu, bütpərəst və digər dinlərə mənsub icmaların sayı artmışdır. Bu isə din təhsili sistemində daha inklüziv və plüralist yanaşmalara ehtiyac yaradır. Tək bir dinin dominantlığı, artıq cəmiyyətin reallığı ilə uyğun gəlmir.

2.2. Qlobal problemlər və etik yanaşma

İqlim böhranı, texnologiyanın etik dilemmləri, sülh və zorakılığın qarşısının alınması kimi məsələlər müasir din təhsilində əhəmiyyətli yer tutmağa başlamışdır. Bəzi ispan məktəblərində din təhsili bu kimi mövzuları dini dəyərlərlə əlaqələndirərək tədris edir.

***Açar sözlər:*** *İspaniya, din təhsili, mənəvi dəyərlər, katolik kilsəsi, İslam təhsili, təhsil islahatları, dini plüralizm, dünyəvilik, multikulturalizm, etik təhsil, qlobal çağırışlar, dövlət və din münasibətləri, məktəblərdə din dərsi.*

# Azərbaycanda dövlət–din münasibətlərində və milli özünüdərk məsələlərində Heydər Əliyev fenomeninin rolu

***Zeynəb Həcəmova***
AMEA Rəyasət Heyəti aparatı
Humanitar elmlər bölməsi vitse-prezidentinin
xidmətində baş mütəxəssis;
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı
Bakı, Azərbaycan
zeynebhecemova1990@gmail.com
https://orcid.org/0000-0001-5886-0984

Azərbaycan xalqının yüksək mədəniyyətə, zəngin mənəviyyata və çoxəsrlik dövlətçilik ənənələrinə yiyələnməsində İslam dininin təməl prinsiplərinin mühüm rolu olmuşdur. Belə ki, hələ VII əsrdə İslam dininin yayılmasının Azərbaycan xalqının həyatında köklü dəyişikliklərə səbəb olmasına və ümumilikdə, yeni təhsil sisteminin meydana gəlməsinə dair maraqlı faktlar mövcuddur. Dinimizin şüarı *“hər iki dünyada rifah və xoşbəxtlik”* ifadəsinə əsaslanır. Tolerant-fəlsəfi ideyaları ehtiva edən İslam dini insanı fiziki-mənəvi inkişafa təşviq etməklə bərabər, saleh əməllər daşıyıcısı olmağa da çağırır. İslam dininin Müqəddəs

Kitabı olan Qurani-Kərimdə “hər iki dünyada rifah və xoşbəxtlik” məfhumunun mükəmməl düsturu əməli-saleh insanların sosial-psixoloji portretinin *“İman edənlər və yaxşı işlər görənlər”*dir şəklində təsvirinə əsaslanır. Allaha inanmaq və Allah yolunda xeyirxah əməllər görmək xüsusiyyəti yalnız yüksək mənəvi keyfiyyətlərə malik olan insanlara məxsusdur.

Azərbaycanın inkişafını tərənnüm edən və onu illərin sınaqlarına sinə gərərək qalib olmağa sövq edən özünəməxsus dəyərlər məcmusu, adət-ənənəsi və başlıca güc mənbəyi Vətənə bağlılıq və xalq birliyidir.

Məlumdur ki, ölkəmizdə ümumxalq səviyyəsində qəbul edilən ən mühüm dəyər “milli kimlik” məsələsidir. İnsanın öz milli kimliyini dərk etməsi “milli özünüdərk” anlayışının perspektiv məcmusunu təşkil edir. “Milli özünüdərk” anlayışı müxtəlif yüksək məziyyətləri ehtiva edir, insanın mövcudluğuna əxlaqi dəyər aşılayır. Daha sistemli desək, əxlaqi dəyərlər ən üstün mənəvi keyfiyyət kimi, bir xalqın keçmişini qürurlandırır, bugününə inam qazandırır, gələcəyinə dair təminat verir. Əxlaqi dəyərlər cəmiyyətə yüksək mənəvi irs və güc qazandırır.

İdeoloji baxımdan əxlaqi dəyərlərə söykənən İslam dinində təlim və tərbiyənin əsas vəzifəsi insanı

mükəmməlliyə və aliliyə çatdıraraq kamilləşdirməkdən ibarətdir.

Danılmaz həqiqətdir ki, öz milli kimliyinə və köklərinə dərindən bağlı olan insanlar qəbul etdikləri qərarlarla rəhbərlik etdikləri xalqı ali inkişaf strukturunun tərkib hissəsinə çevirməyi bacarırlar. Vətəninə bağlı olan fədakar insanlar bütün daxili-xarici imkanlardan xalqın rifahı naminə istifadə edir, fəaliyyətləri ilə tarix yazırlar. Böyük qürur hissilə deyə bilərik ki, Azərbaycanda əxlaqi dəyərlərin vahid sistem altında birləşdirilməsi kimi mürəkkəb vəzifə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur. Azərbaycanda dövlət–din münasibətləri modelinin möhkəmləndirilməsi, dini maarifləndirmə işinin təşkili və müstəqil dövlət quruculuğu istiqamətində mühüm şərt olan dini etiqad və dini-mədəni müxtəlifliyin təmin edilməsi məsələləri Heydər Əliyevin apardığı uğurlu siyasətin ayrılmaz hissəsi olmuşdur. Unutmaq olmaz ki, Azərbaycanın tutduğu demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu millətin öz milli kimliyini dərindən dərk etməsini labüd edir. Bu baxımdan qeyd edə bilərik ki, *“Azərbaycanda dövlət–din münasibətlərinin tənzimlənməsində Ulu Öndər Heydər Əliyevin rolu”* mövzusuna müraciət edərək, cəmiyyətimizin mənəvi-əxlaqi əsaslarının möhkəmləndirilməsi,

milli mədəniyyətimizin humanist potensialının, çoxəsrlik adət-ənənələrinin qorunub-saxlanması və inkişaf etdirilməsi sahəsində də Heydər Əliyevin zəngin irsini tədqiq etmək son dərəcə aktual və şərəflidir.

***Açar sözlər:*** *elm-təhsil, milli özünüdərk, dini substansiya, Heydər Əliyev fenomeni, dövlət quruculuğu.*

## Azərbaycanda ailə daxilində din təlimi və onun uşaqlarda dini dəyərlərin qavranılmasına təsiri

***Fəridə Şükürlü***
Azərbaycan Milli Elmlər Akademiya
Fəlsəfə və Sosiologiya İnstitutu
Sosial psixologiya şöbəsinin kiçik elmi işçisi
Bakı, Azərbaycan
sh.farida92@yahoo.com
https://orcid.org/0009-0007-5351-6544

Din təhsili insanın mənəvi-əxlaqi inkişafında mühüm rol oynayan bir prosesdir. Bu təhsilin əsasını isə erkən yaş dövründə ailədə formalaşan dini tərbiyə təşkil edir. Azərbaycanda ailə ənənəvi olaraq dini-mənəvi dəyərlərin ötürülməsində əsas vasitəçi olmuşdur. Məhz bu səbəbdən, uşaqlara verilən dini təlimin ailədə başlaması və həmin mühitdə davam etməsi olduqca vacibdir.

Azərbaycan cəmiyyəti uzun illərdir, dini-mənəvi dəyərlərlə yoğrulmuş ailə modellərinə əsaslanır. Tarixən İslam dini, xüsusilə də onun əxlaqi prinsipləri azərbaycanlı ailələrin tərbiyə sistemində mərkəzi yer tutmuşdur. Ailənin mənəvi-mədəni strukturunda din

yalnız ibadət forması deyil, eyni zamanda, əxlaq, nizam-intizam, hörmət, paylaşma və məsuliyyət kimi dəyərləri də aşılayan bir vasitə olmuşdur.

Müasir dövrdə informasiya texnologiyalarının sürətlə inkişaf etməsi, qloballaşma və dünyəvilik prosesləri cəmiyyətin bir çox dəyərlərinə təsir etdiyi kimi, dini tərbiyəyə və onun ötürülmə formalarına da təsirsiz ötüşməmişdir. Bu kontekstdə Azərbaycanda ailə daxilində din təliminin necə həyata keçirildiyi, istifadə olunan mənbə və üsullar, valideynlərin münasibəti və uşaqların bu təlimdən təsirlənmə dərəcəsi mühüm tədqiqat mövzusudur. Din təliminin effektivliyi və onun uşaqların dini dəyərləri mənimsəməsinə təsiri, əsasən, valideynlərin dini bilik və münasibətindən, ailədaxili münasibətlərdən, təlimin forma və məzmunundan asılıdır. Bir çox hallarda dini tərbiyə yalnız ibadətlərin öyrədilməsi ilə məhdudlaşır, halbuki uşaqlara dini dəyərlərin mənəvi və sosial aspektlərinin də aşılanması vacibdir.

Bu kontekstdə Azərbaycanda ailələr arasında dini təlimin səviyyəsi, istifadə olunan yanaşma üsulları, eləcə də şəhər və kənd mühitində mövcud fərqlər tədqiqata ehtiyac duyulan aktual məsələlər sırasındadır.

Dini tərbiyənin forması və məzmunu sosial-iqtisadi vəziyyətə, mədəni mühitə və valideynlərin dini bilik səviyyəsinə görə dəyişə bilər ki, bu da uşaqların dini dəyərləri necə mənimsəməsinə birbaşa təsir göstərir. Bu tədqiqat qarışıq (mixed) metodologiyaya əsaslanır, nəzəri, empirik yanaşmanı özündə birləşdirir. Tədqiqatın əsas məqsədi ailə daxilində verilən din təliminin uşaqların dini dəyərləri qavraması və mənəvi inkişafına təsirini araşdırmaq, eyni zamanda, fərqli sosial-iqtisadi və coğrafi mühitlərdə, xüsusilə şəhər və kənd ailələrində bu prosesin necə həyata keçirildiyini müqayisəli şəkildə təhlil etməkdir. Nəzəri hissədə dinin ailə strukturundakı funksiyası, dini dəyərlərin formalaşma prosesi, uşaqlarda dini kimlik və mənəvi inkişaf anlayışları mövcud elmi ədəbiyyat əsasında araşdırılmışdır. Araşdırma ailəvi dini təlimin uşaqlarda dini kimliyin formalaşmasındakı rolunu müəyyənləşdirmək və bu sahədə gələcək elmi əsaslar təqdim etməyi hədəfləyir.

Azərbaycanda valideynlərin dini təlim metodları və bunun uşaqların dini kimliyi və dəyərlərinə təsirini qiymətləndirməyə yönələn əsas tədqiqat sualları aşağıdakılardır:

- Valideynlər din təliminə necə yanaşır və hansı üsullardan istifadə edirlər?

- Ailədə verilən dini tərbiyə uşaqların dini dəyərləri mənimsəməsində necə rol oynayır?
- Şəhər və kənd ailələri arasında fərqlər varmı?

Bu tezis Azərbaycanda ailə daxilində din təliminin uşaqların dini və əxlaqi inkişafına təsirini araşdırır, effektiv yanaşmaların formalaşmasına töhfə verməyi hədəfləyir.

***Açar sözlər:*** *din təhsili, ailə tərbiyəsi, dini dəyərlər, uşaq inkişafı, dini kimlik.*

# Milli-mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin rolu

***Cəfər Cəfərov***
Azərbaycan İlahiyyat İnstitutunun magistrantı,
Şah Abbas məscidinin imam müavini
Bakı, Azərbaycan
cefer_ceferi@mail.ru
https://orcid.org/0009-0002-9861-2461

Milli-mənəvi dəyərlər hər bir xalqın kimliyini, tarixini, mənəvi bütövlüyünü qoruyub-saxlayan əsas sütunlardan biridir. Azərbaycanda bu dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi prosesində Ümummilli Lider Heydər Əliyevin xüsusi rolu olmuşdur. Onun rəhbərliyi dövründə milli irsə göstərilən diqqət və həyata keçirilən mədəniyyət siyasəti milli kimliyin möhkəmlənməsinə ciddi töhfələr vermişdir.

Ulu Öndərin həm milli mədəniyyətin, həm də dini-mənəvi dəyərlərin qorunmasına verdiyi xüsusi önəm dövlət siyasətinin istiqamətlərindən biri olmuşdur. Bu məqsədlə atılan addımlar siyahısına dini irsin bərpası, ibadət evlərinin yenidənqurulması, xüsusilə sovet

dövründə bağlanan məscidlərin bərpası və dini tolerantlığın möhkəmləndirilməsi kimi prioritet məqamlar daxil edilmişdir.

Heydər Əliyev milli-mənəvi dəyərlərin dövlət səviyyəsində qorunmasını prioritet istiqamət kimi müəyyən etmiş, milli, dini, mədəni irs nümunələrinin bərpası və təbliğinə şərait yaratmışdır.

Onun təşəbbüsü ilə xalq ədəbiyyatı, musiqisi, adət-ənənələri, tarixi abidələr və dini-mədəni irs sistemli şəkildə qorunmuş və inkişaf etdirilmişdir.

Dini etiqad azadlığının təmin olunması istiqamətində ciddi hüquqi və strukturlaşdırılmış islahatlar aparılmış, ibadət evlərinin – məscidlərin, kilsələrin və sinaqoqların bərpası və yenidənqurulması üçün dövlət dəstəyi göstərilmişdir. Bu çərçivədə Bibiheybət məscid ziyarətgahı – 1997-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə orijinal üslubda bərpa edilməyə başlayıb. Ziyarətgahın 12 iyul 1998-ci ildə açılış mərasimi keçirilib və bu, respublikada dini irsin bərpasında dönüş tarixi sayılır.

Heydər Əliyevin sağlığında – 24 mart 2003-cü ildə bərpa işləri tamamlanan pravoslav kilsə (Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralı) yenidən fəaliyyətə başlayıb. Açılış mərasimində Heydər Əliyev və mötəbər dini şəxslər – Hacı Allahşükür Paşazadə

və Rusiya patriarxının nümayəndəsi iştirak edib. Bu tədbir dövlət–din münasibətlərində tolerantlıq siyasətinin simvoluna çevrilib.

Heydər Əliyev 1993–2003-cü illərdə müxtəlif dinlərə mənsub icmalarla, din xadimləri ilə hökumət səviyyəsində təmas yaratmış, dini bayramlarda təbrik məktubları göndərmiş, azad ibadət üçün hüquqi şərait formalaşdırmışdır. Heydər Əliyevin Naxçıvanda Həzrət Məhəmmədin Mövlud mərasimində iştirak edərək təbrik nitqi söyləməsi və Bakıda keçirilən Aşura mərasimində İmam Hüseynin xatirəsini ehtiramla yad edərək müsəlmanlara başsağlığı verməsi Ulu Öndərin müsəlmanlara həm şad, həm də kədərli anlarında onlarla həmrəylik nümayiş etdirdiyini göstərir. Heydər Əliyevin bu tədbirlərdəki iştirakı dini dəyərlərə hörmət və milli-mənəvi birliyin möhkəmləndirilməsi istiqamətində dövlət siyasətinin ayrılmaz hissəsi kimi qiymətləndirilə bilər. Bu yanaşma onun dini müxtəlifliyə hörmət və sosial harmoniyanın qorunması prinsiplərinə sadiq qaldığının açıq nümunəsidir.

Heydər Əliyev dövründə müxtəlif dinlərə mənsub dindarların rahat ibadəti və fəaliyyət imkanları təmin olunmuş, ölkədə dini tolerantlıq mühiti möhkəmləndirilmişdir.

Ulu Öndər Azərbaycan cəmiyyətində milli birlik və dini harmoniyanın əsasını qoymuş, İslam həmrəyliyi ideyasını dəstəkləməklə yanaşı, digər dinlərə də dözümlülük prinsipini dövlət siyasətinə çevirmişdir.

Heydər Əliyevin milli və dini-mənəvi dəyərlərin qorunması sahəsində həyata keçirdiyi siyasət Azərbaycan cəmiyyətində milli özünüdərkin, multikultural harmoniyanın möhkəmlənməsinə xidmət etmişdir. Onun bu sahədəki fəaliyyətləri ölkədə sabitlik, tolerantlıq və mədəni davamlılığın əsasını qoymuşdur.

Bu tədbirlər yalnız ibadət yerlərinin bərpası və istifadəsi ilə məhdudlaşmayıb, eyni zamanda, dini tolerantlığın, multikulturalizmin və dövlətçilik ideyasının bünövrəsini təşkil etmişdir.

***Açar sözlər:*** *Heydər Əliyev, milli-mənəvi dəyərlər, dini tolerantlıq, məscidlər, dövlət siyasəti.*

# Məktəblərdə sosial xidmət sahəsi olaraq mənəvi konsultasiya

***Ayaz Həşimov***
Azərbaycan İlahiyyat İnstitunun magistrantı,
"Xanım Fatimeyi-Zəhra" məscidinin imam müavini
Bakı, Azərbaycan
ayazhasimov@gmail.com
https://orcid.org/0009-0003-8055-2322

Müasir dövrdə maddi rifahın, texnologiyanın və müxtəlif imkanların asanlıqla əlçatan olması insanları mənəvi həyatdan müəyyən dərəcədə uzaqlaşdırmışdır. Mənəvi dəyərlərdən uzaqlaşma isə eyni zamanda, insani keyfiyyətlərin zəifləməsinə səbəb olur. Bu neqativ tendensiyanın qarşısını almaq üçün insan şəxsiyyətinin formalaşdığı erkən mərhələlərdən etibarən, sistemli şəkildə iş aparılması zəruridir. Məhz bu məqsədlə bir çox ölkələrdə məktəb mühitində dini-mənəvi konsultasiya xidmətlərinin təşkili üçün müvafiq şərait yaradılmışdır. Bu xidmətlərin əsas məqsədi şagirdlərin mənəvi və psixososial problemlərinin həllinə dəstək olmaqla yanaşı, onları dini-əxlaqi dəyərlər baxımından istiqamətləndirmək, həyata baxış bucaqlarını formalaşdırmaq və gələcək həyat mərhələlərində

sağlam seçimlər etmələrinə şərait yaratmaqdan ibarətdir.

Dini-mənəvi konsultasiya sosial xidmət olaraq, geniş bir sahəni əhatə edir. Mənəvi-əxlaqi inkişaf, vətəndaşlıq təhsili, dini təhsil, zorakılıq, stress və qayğı, narkotik maddələrlə bağlı təhsil, insan əlaqələri təlimi, düşüncə bacarıqları təlimi, meditasiya və ölüm təhsili kimi sahələr mənəvi danışmanlıq xidmətinin daxilində olan sahələrdir. Bu xidmətlərdən məktəblərdə istifadə edilməsi ilə xüsusən son dövrlərdə məktəblərdə artan zorakılıq halları, narkotik asılılıq, intihar, şagirdlərin bir-birləri ilə düzgün rəftar etməmələri və hətta qətl kimi halların qarşısının alınmasında əhəmiyyətli rolu ola bilər.

Mövcud tədqiqatlar və praktik təcrübələr göstərir ki, bir çox ölkələrdə həyata keçirilən dini-mənəvi konsultasiya xidmətləri gənc nəslin şəxsiyyət inkişafına mühüm töhfələr vermişdir. Xüsusilə Sinqapur modeli bu baxımdan diqqətəlayiqdir. Belə ki, Sinqapur məktəblərində dini-mənəvi konsultasiya xidmətinin təşkili məqsədilə müxtəlif ölkələrdən mütəxəssislər dəvət edilmiş və bu istiqamətdə sistemli fəaliyyətə başlanılmışdır. Nəticə etibarilə, tətbiq olunan model şagirdlərin koqnitiv, emosional və sosial inkişafına

müsbət təsir göstərmiş, onların fərdi potensiallarını üzə çıxarmalarında əhəmiyyətli rol oynamışdır.

Məktəblərdə dini-mənəvi konsultasiya xidməti vasitəsilə şagirdlərə düzgün həyat tərzi bacarıqlarının aşılanması, şəxsiyyətin sağlam formalaşması, gələcək karyera seçimində məqsədyönlü istiqamətləndirilmə və psixoloji durumun yaxşılaşdırılması istiqamətində əhəmiyyətli dəstək göstərmək mümkündür. Bunun üçün ilk öncə dini-mənəvi konsultant sahəsində peşəkar mütəxəssislər formalaşmalıdır. Dini-mənəvi konsultant öz vəzifəsini layiqincə yerinə yetirə bilmək üçün yalnız bir sahə ilə kifayətlənməməlidir. O, din, psixologiya və sosial elmlər sahəsində dərin biliklərə sahib olmalıdır. Əgər bu biliklər yetərli səviyyədə olmasa, konsultantın fəaliyyətində ciddi problemlər yarana bilər.

Türkiyədə bəzi qurumların psixologiya təhsili alanlara dini savad, ilahiyyat təhsili alanlara isə psixologiya bilikləri verməsi təqdirəlayiq bir təcrübədir. Bu cür inteqrasiya olunmuş təhsil proqramları gələcək dini-mənəvi konsultantların daha hərtərəfli və effektiv xidmət göstərməsinə imkan yaradır. Bu yanaşma fərdlərin mənəvi-psixoloji və sosial sağlamlığı arasında möhkəm körpü qurmağa kömək edir.

Ümumilikdə, dini-mənəvi konsultasiya sahəsində fəaliyyət göstərən mütəxəssislərin kompleks biliklərə malik olması cəmiyyətin mənəvi-psixoloji rifahı üçün böyük əhəmiyyət daşıyır. Mənəvi boşluqların düzgün doldurulmaması fərdin maddi baxımdan müxtəlif istiqamətlərə istiqamətlənərək həyatda uğursuz seçimlərinə səbəb ola bilər. Mənəvi konsultant həmin boşluqların doldurulmasında yaxından iştirak edərək fərdi, uğursuz həyat seçimindən qurtulmaqda köməklik göstərə bilər.

***Açar sözlər:*** *dini-mənəvi konsultasiya, konsultant, sosial xidmət, əxlaq.*

## Роль великого лидера Гейдара Алиева в регулировании государственно-религиозных отношений в Азербайджане

***Намиг Мурадов***
Студент магистерской программы
Документоведение и документация
государственного управления,
Калмыцкого государственного университета
имени Басанга Городовикова
Баку, Азербайджан
namiqmuradov999@gmail.com
https://orcid.org/0009-0008-3725-4975

Азербайджан с древних времен известен как место, где встречаются различные религии и культуры. В период обретения страной независимости правильное установление государственно-религиозных отношений и сохранение религиозной толерантности стали одним из главных условий стабильности и развития общества. Особо следует подчеркнуть роль великого лидера Гейдара Алиева в этой области.

Гейдар Алиев — один из лидеров, занимающих особое место в истории Азербайджана. Его

приход к власти стал поворотным моментом в судьбе страны. В начале 1990-х годов Азербайджан только что восстановил свою независимость, но столкнулся с политическим и экономическим кризисом, внутренними конфликтами и внешним давлением. Именно в такой сложный период возвращение Гейдара Алиева к власти заложило основу стабильности и развития страны.

Одним из важнейших шагов Гейдара Алиева стало обеспечение политической стабильности в стране. Под его руководством были укреплены основы государственности, особое внимание уделялось строительству армии, усилению правоохранительных органов. Эти шаги, помимо обеспечения внутренней стабильности, также создали условия для укрепления позиций Азербайджана на международной арене.

В начале 1990-х годов в Азербайджане наблюдалась нестабильность в религиозной сфере, влияние радикальных группировок, религиозные конфликты. С возвращением Гейдара Алиева к власти в стране начался новый этап государственно-религиозных отношений. Он предпринимал последовательные и целенаправленные шаги по предотвращению религиозного экстремизма и

обеспечению свободы вероисповедания. Под руководством Гейдара Алиева планомерно осуществлялся процесс обеспечения религиозных свобод, защиты прав религиозных общин, государственной регистрации религиозных организаций.

Конституция Азербайджанской Республики, принятая в 1995 году, закрепила принцип светскости государства, свободы совести и вероисповедания, равноправия всех религий. Гейдар Алиев проводил сбалансированную политику в отношении государства к религии, обеспечивая свободу вероисповедания, одновременно стараясь не допустить религиозного радикализма и иностранного влияния. Создание в 2001 году Государственного комитета по работе с религиозными организациями привело к дальнейшему усилению государственной политики в этой сфере.

По инициативе Гейдара Алиева религиозная толерантность и мультикультурализм стали одним из основных направлений государственной политики в Азербайджане. Между представителями различных религиозных конфессий была создана атмосфера взаимного уважения, сотрудничества и диалога. Мусульмане, христиане, иудеи и другие

религиозные меньшинства, проживающие в Азербайджане, могут свободно отправлять свои религиозные обряды. Гейдар Алиев неоднократно отмечал, что религиозное и национальное многообразие является богатством и силой Азербайджана.

В результате политики Гейдара Алиева по регулированию государственно-религиозных отношений Азербайджан получил международное признание как толерантная и многокультурная страна. Политика, заложенная им, успешно продолжается и сегодня, а Азербайджан признан во всем мире примером религиозной свободы и толерантности.

Деятельность великого лидера Гейдара Алиева по регулированию государственно-религиозных отношений создала прочную основу для стабильности, национального единства и развития Азербайджана. В результате его политики в стране были обеспечены религиозные свободы, предотвращен религиозный радикализм, укреплены традиции толерантности.

***Ключевые слова:*** *культура, религия, правительство, возвращение, мультикультурализм, Г.Алиев*

## Din təhsili, tolerantlıq və multikulturalizm

***Ramin Feyziyev***
Bakı Dövlət Universitetinin bakalavrı
*Bakı, Azərbaycan*
feyziyevramin036@gmail.com

Müasir dünyada din və mədəniyyətlərarası müxtəliflik cəmiyyətlərin sosial strukturuna həm fürsətlər qazandırır, həm də çətinliklər gətirir. Qloballaşma ilə sərhədlərin zəiflədiyi bir dövrdə mədəniyyətlərarası qarşılıqlı təsir daha da intensivləşir. Belə bir şəraitdə tolerantlıq və multikulturalizm kimi prinsiplər cəmiyyətin sosial sabitliyinin və mənəvi harmoniyasının təmin olunmasında əsas dayaqlardan birinə çevrilir. Bu çərçivədə din təhsili təkcə bilik və ayinləri öyrətmək funksiyası daşımır, eyni zamanda, fərqli dini və etnik qruplar arasında qarşılıqlı hörmət, anlayış və birgəyaşayış mədəniyyətinin formalaşmasında mühüm rol oynayır.

Əslində, düzgün və sağlam əsaslarla qurulmuş din təhsili fərqlilikləri təhdid və ya ayrılma səbəbi kimi deyil, əksinə, insani zənginlik və ortaq dəyərlər platforması kimi təqdim etməlidir. Bu mənada, Qurani-Kərimdəki *“Sizi bir-birinizlə tanış olasınız deyə,*

*müxtəlif tayfalara və qəbilələrə ayırdıq" ("əl-Hucurat", 13)* ayəsi dini təhsilin universallığını və insani yaxınlaşmanı təşviq edən ruhu əks etdirir. Əgər bu prinsiplər din təhsilinin məzmun və metodikasına inteqrasiya edilərsə, nəticə etibarilə, radikal meyillərin qarşısı alınar, dini nifrət və fanatizmin yerini sosial inteqrasiya, qarşılıqlı hörmət və dinc birgəyaşayış prinsipləri tutar.

Multikulturalizm konsepsiyası isə müxtəlif etnik, dini və mədəni qrupların hüquq və azadlıqlarını qoruyur, birgəyaşayış şəraitinin formalaşdırılmasını hədəfləyir. Bu ideyanın uğurla həyata keçirilməsi üçün isə təkcə hüquqi mexanizmlər deyil, təhsil mühitində – xüsusilə də din təhsilində – inklüziv və dialoqa açıq yanaşmalar önəm daşıyır. Bu baxımdan, Azərbaycan Respublikasının təcrübəsi xüsusi diqqətəlayiqdir. Ölkəmizdə İslam, Xristianlıq, Yəhudilik və digər dinlərə mənsub vətəndaşlar əsrlərboyu birgə yaşamış, bu tarixə əsaslanan dövlət siyasəti dini müxtəlifliyi təhlükə deyil, dəyər kimi qəbul etmişdir.

Müasir dünyada dini radikalizm, etnik qarşıdurmalar və mədəni ayrı-seçkilik halları artdıqca, bu sahədə maarifləndirmənin və düzgün yanaşmanın vacibliyi daha qabarıq şəkildə özünü göstərir. Xüsusilə gənc nəslin düzgün dəyərlərlə formalaşması və dini

biliklərin ekstremist təmayüllərdən uzaq şəkildə öyrədilməsi zəruri olur. Bu məqamda din təhsili bir vasitə olaraq qarşımıza çıxır. Burada əsas məsələ isə budur ki, həmin təhsil hansı ideoloji platformada, nə kimi metodlarla və necə məzmunla həyata keçirilir. Əgər din təhsili yalnız ayin və qaydaların mexaniki şəkildə öyrədilməsindən ibarətdirsə, bu, cəmiyyətdə dəyərlərin inkişafına töhfə verməyəcək, əksinə, müəyyən hallarda qapanmaya, ayrı-seçkiliyə və tolerantlığın itməsinə səbəb olacaq. Bu baxımdan, "din təhsili" anlayışına yeni yanaşma zərurəti yaranır. Bu yanaşmada əsas diqqət insan haqlarına, fərqli dinlərə və inanclara hörmətə, mədəni müxtəlifliyin qəbul olunmasına və sosial ədalət prinsiplərinə yönəlməlidir.

Tədqiqatın əsas problemi bundan ibarətdir ki, bəzi hallarda din təhsili yalnız konfessional biliklərin ötürülməsi funksiyası ilə məhdudlaşır və müxtəlif dünyagörüşlərinin, inanc sistemlərinin tanınması və hörmətlə yanaşılması kimi dəyərlər nəzərə alınmır. Bu isə fərqli dini baxışlara malik şəxslər arasında dözümsüzlük, stereotiplərin formalaşması və cəmiyyətin ideoloji qütbləşməsi riskini artırır. Bu səbəbdən, tezisin əsas müddəası budur ki, din təhsili yalnız dini maarifçiliklə kifayətlənməməli, şəxsiyyətin tolerant, empatik və

multikultural yönümlü formalaşmasına xidmət etməlidir.

Tədqiqatın məqsədi din təhsilinin tolerantlıq və multikultural dəyərlərin inkişafına təsirini araşdırmaq, mövcud təhsil modellərindəki boşluqları üzə çıxarmaq və bu istiqamətdə elmi əsaslara söykənən praktiki tövsiyələr verməkdir. Bu məqsədlə, Azərbaycan və bəzi digər ölkələrin (məsələn, Türkiyə, Almaniya) təcrübələri müqayisəli şəkildə təhlil edilir, eləcə də orta və ali məktəblərdə dinlə bağlı tədris proqramlarının məzmunu nəzərdən keçirilir.

Məqalədə tədqiqat metodu kimi məzmun təhlili, sosioloji sorğular, mütəxəssis müsahibələri və təhlil olunan ölkələr üzrə normativ sənədlərin müqayisəli analizi istifadə olunub. Tədqiqatın elmi yeniliyi budur ki, yazıda din təhsili problemi, sadəcə, informasiyavermə kontekstində deyil, həm də ictimai münasibətlərin humanist və inklüziv əsaslarla formalaşması baxımından tədqiq olunur. Əlavə olaraq, din təhsilinin multikultural mühitlərdə necə təşkil edilməli olduğu barədə konseptual yanaşma formalaşdırılacaq.

Gözlənilən nəticələrdən biri də budur ki, din təhsilinin məzmununda digər dinlərə və mədəniyyətlərə dair obyektiv və dəyərsizləşdirilməyən informasiyanın

yer alması tələbələrin dini biliklərini, tolerant davranışlarını inkişaf etdirəcək. Azərbaycanda dövlətin yürütdüyü multikulturalizm siyasəti bu məqsədə nail olmaq üçün əlverişli zəmin yaradır, lakin bu zəminin təhsildə necə reallaşdığı və hansı boşluqların mövcud olduğu ayrıca təhlil tələb edir.

Tezis, nəticə olaraq, belə bir mövqe irəli sürür: əgər din təhsili düzgün yönləndirilsə, o, sadəcə, dini məlumatların ötürülməsi ilə kifayətlənməyəcək, multikultural dəyərlərin güclənməsinə və cəmiyyətin sosial bütövlüyünün təmin olunmasına xidmət göstərəcək.

***Açar sözlər:*** *Din təhsili, tolerantlıq, multikulturalizm, dini müxtəliflik, dinlərarası dialoq*

*QEYDLƏR*

**"TƏHSİL NƏŞRİYYAT-POLİQRAFİYA" MMC-nin**
**mətbəəsində hazır diapozitivlərdən**
**çap olunmuşdur.**
VÖEN 1300379491
ünvan: Bakı, AZ1052,
Fətəli xan Xoyski küç., (121a)149
Tel.: (+994 12) 567-81-28/29

Kitab Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə
dəstəyi ilə çap olunmuşdur